RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 285 (8878) CÜMƏ AXŞAMI, 30 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV qətiyyətinin təcəssümü



## Prezidentdən hərbçilərə Yeni il hədiyyəsi

**Dekabrın 29-da Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) Hövsan və Yasamal Yaşayış komplekslərində inşa edilmiş binalarda hərbçilər üçün nəzərdə tutulmuş mənzillər istifadəyə verilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hər iki yaşayış kompleksindəki mənzillərlə tanış olub.

Başa çatmaqda olan 2021-ci ilin son iş günlərindəyik. Amma bu o demək deyil ki, dövlət tədbirlərinin keçirilməsində hər hansı ixtisar var. Onu da nəzərə almaq lazımdır ki, təkcə dekabr ayında Prezidentin gündəlik fəaliyyət xronikasında 12 rəsmi qəbul, Quba, Hadrut və Şuşa olmaqla 2 region səfəri, Belçika və Rusiyaya xarici səfərlər daxildir.

Ardı 2-ci səh.

## İşğaldan azad olunmuş ərazilərin bərpası prosesi 2021-ci ildə sürətlə aparıldı

Başa çatmaqda olan 2021-ci il Azərbaycan üçün siyasi, iqtisadi, sosial, mədəni uğurlarla əlamətdardır. Bu ilin əsas hadisələrindən biri isə işğaldan azad olunmuş ərazilərimizdə gedən bərpa və yenidənqurma prosesi idi. Ötən ilin Vətən müharibəsi günlərindən başlayan bu proses 2021-ci il ərzində Prezident İlham Əliyevin xüsusi nəzarəti altında sürətlə davam etdi.

### Böyük qayıdışı təmin edəcək meqalayihələr

Hazırda Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işlərinin miqyası olduqca genişdir. Çünki Ermənistanın 30 ilə yaxın işğal dövründə viran qoyduğu, xarabazarlığa çevirdiyi yurd yerlərimiz tamamilə yenidən qurulur. Cəbrayılda, Füzulidə, Ağdamda düşmən bir dənə də olsun salamat bina qoymayıb. Zəngilan, Qubadlı, Laçın, Kəlbəcərdə bəşər tarixinə ləkə salaraq vandallıq törədən ermənilər millət olaraq öz barbar şüur səviyyələrini dünyaya göstərdilər.

Bu il yanvar ayının 6-da videoformatda keçirilən 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə işğaldan azad olunmuş ərazilərin bərpasından danışan Prezident İlham Əliyev demişdi ki, 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır: "Bərpa işləri artıq başlanıb və bu, onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında bu dəfə də heç bir fərq yoxdur. Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam. Bizim hamımızdan asılıdır ki, bu sözlər yerinə yetirilsin. Ona görə 2021-ci il bu baxımdan çox əlamətdar olmalıdır. Məhz 2021-ci ildə Azərbaycan xalqı və bütün dünya görəcək ki, bizim niyyətimiz həyatda öz əksini tapır, bizim planlarımız həyatda gerçəkləşir". 2021-ci ilin real mənzərəsi ondan ibarətdir ki, bu dövrdə Böyük qayıdışı təmin edəcək mühüm meqalayihələrin təməli qoyulub. Ən mühümü odur ki, qısa dövr ərzində həmin layihələrin bəziləri tam yerinə yetirilib.

Ardı 7-ci səh.



## Gallup İnternational: "Azərbaycan dünyada iqtisadi ümid indeksinə görə ən yüksək nəticə göstərən ölkələrdəndir"

*Nüfuzlu Gallup İnternational təşkilatının yaydığı məlumata əsasən, Azərbaycanda iqtisadi optimizm göstəriciləri yüksəkdir. İqtisadi ümid indeksində Azərbaycanın mövqeyi 53 balla qiymətləndirilmişdir ki, bu da ötən ilin göstəricisindən 6 bal yuxarı olmaqla İndoneziya və Albaniyadan sonra ən yaxşı üçüncü göstəricidir. Məlumat üçün bildirək ki, iqtisadi ümid indeksi ölkə vətəndaşlarının gələcək iqtisadi perspektivlərlə bağlı gözləntilərinə əsaslanır və vətəndaşlar arasında aparılmış sorğunun nəticələrini əsas götürür.*

Bax: səh. 7

◆ Zəfərin izi ilə




## Müharibənin «gizli qatil»ləri

### Ağdam mina və partlayıcı maddələrdən sürətlə təmizlənir

***Diqqət!***
***Mina və mərmilərlə çirklənmiş ərazilərə daxil olmusunuz.***
***Yalnız işlək yollardan istifadə edin. Şübhəli əşyalara, sursatlara toxunmayın. Təhlükəlidir!***

Vətən müharibəsindəki böyük Zəfərdən bir il ötsə də, Qarabağa ilk səfər edən hər kəs o torpağa ayaq basan kimi telefonuna bu xəbərdarlıq mesajı gəlir. Elə ilk andan qanunsuz olaraq bu torpaqlarda məskunlaşan düşmənin əsl xisləti bəlli olur. Şəhərlərimizi, rayon və kəndlərimizi talan edən, daşı daş üstündə qoymayan erməni vandalları torpaqlarımızı tərk edib qaçarkən də xainliklərindən əl çəkməyiblər.

Ardı 7-ci səh.

## Azərbaycan 2022-ci ilə yeni sosial islahatlarla daxil olur

Vətəndaş rifahının təminatı Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin mərkəzində dayanır və bunun nəticəsidir ki, sosial sahədə islahatlar geniş miqyas alıb. Hələ 2019-cu ildə sosial sahədə genişmiqyaslı islahatlar həyata keçirilməklə əməkhaqları və digər sosial ödənişlər orta hesabla 100 faiz, bəzi sahələrdə isə daha çox artmış, yeni sosial təminat növləri formalaşmışdır. Həmin artımlar üçün dövlət büdcəsindən illik əlavə vəsait olaraq 3 milyard manat ayrılmışdır.

2020-ci və 2021-ci illərdə də sosial islahatlar davam etmiş, COVID-19 pandemiyasının məşğulluğa və rifaha mənfi təsirlərinin qarşısının alınması məqsədilə ünvanlı dəstək proqramları icra olunmuşdur. Postmüharibə dövründə şəhid ailələrinin, müharibə əlillərinin təqaüdləri orta hesabla 60 faiz artırılmış, yeni təqaüd növləri təsis olunmuşdur.

Prezidentin 16 oktyabr 2021-ci il tarixli "Əhalinin sosial rifahının qorunması sahəsində əlavə tədbirlər haqqında" sərəncamı qeyd olunan sosial islahatların uğurla davam etdirilməsinə imkan yaratmışdır. Bu əsasda Prezident İlham Əliyevin dekabr ayında imzaladığı yeni fərman və sərəncamlarla ölkəmizdə sosial ödənişlərin artırılması istiqamətində islahatların növbəti mərhələsinə başlanmışdır.

### 2,1 milyondan çox şəxsi əhatə edən sosial ödənişlərin artımı üçün illik əlavə 1,5 milyard manat vəsait ayrılıb

Bu mərhələdə 2,1 milyondan çox şəxsi əhatə edən əməkhaqları, müavinət və təqaüdlərdə növbəti ciddi artımlar edilir ki, bunun üçün illik əlavə olaraq 1,5 milyard manat vəsait nəzərdə tutulub. Yeni sosial islahat mərhələsində minimum aylıq əməkhaqqı artırılaraq 250 manatdan 300 manata çatdırılıb.

Ardı 5-ci səh.



## Azərbaycan Cənubi Qafqazda Rusiyanın əsas ticarət tərəfdaşıdır

### Şimal qonşumuzla iqtisadi əlaqələr qarşılıqlı maraqlara xidmət edir

**Məlumdur ki, Azərbaycan xarici ölkələrlə həm iqtisadi, həm də siyasi münasibətlərdə əsasən ikili əməkdaşlığa üstünlük verir və bu, əksər hallarda özünü doğruldur.**

Çünki regional və beynəlxalq əlaqələr, bir çox halda tərəflərin sayının çoxluğu, belə halda isə maraqların bir-birinə ziddiyyət təşkil etməsi qarşıya qoyulan məqsədə çatmağa imkan vermir. Prezident İlham Əliyev tərəfindən aparılan siyasətin hədəfi isə iqtisadi və siyasi əlaqələrdə nəticəyə nail olmaqdır.

Düzdür, ölkəmiz bütün bunlara baxmayaraq, regional və beynəlxalq əməkdaşlığa səy göstərir və bu zaman aparılan düzgün siyasət nəticəsində istəyimizə nail oluruq. Məsələn, Avropaya qaz xətti çəkərkən müxtəlif maneələrlə rastlaşsaq da, Prezident İlham Əliyevin praqmatik və qətiyyətli siyasəti sayəsində həmin maneələri aşa bildik. Təkcə bu il Azərbaycan Avropa İttifaqına 7 milyard kubmetrdən çox təbii qaz ixrac edib və əsas alıcılarımız İtaliya, Yunanıstan və Bolqarıstan olub.

Hazırda Avropa qaz böhranı yaşayır, çünki qoca qitənin təbii qaza olan ehtiyacı artıb. Gələn il bu tələbatın daha da artacağı proqnozlaşdırılır. Səbəbi dünyanın postpandemiya dövrünə ciddi şəkildə hazırlaşmasıdır. Bu isə o deməkdir ki, Azərbaycanın Avropa bazarına daha çox mavi yanacaq ixrac imkanı yaranacaq.

Ardı 7-ci səh.




## Təyyarə reysləri təxirə salınır, səyahətlər məhdudlaşdırılır...

### "Omikron"un sürətlə yayılması bir çox ölkəni sərt tədbirlər görməyə vadar edib

**Son günlərini yaşadığımız 2021-ci il də koronavirus pandemiyasının həyəcanının təsiri altında keçdi. Virus yeni ştamları ilə yayılaraq dünyanı çənginə almaqda davam etdi. Hazırda bir çox ölkə ştamların ən sürətlisi hesab olunan "Omikron"la mübarizə aparır.**

Ümumilikdə, indiyə qədər dünyada koronavirusa yoluxanların sayı 280 milyonu, ölənlərin sayı isə 5,4 milyonu ötüb. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) bununla bağlı ötən gün yaydığı məlumata görə, yoluxma hallarının əksəriyyəti ABŞ-da qeydə alınıb. Növbəti yerlərdə Hindistan, Braziliya, Böyük Britaniya, Rusiya, Türkiyə, Fransa, Almaniya, İran, İspaniya, İtaliya və Argentina qərarlaşıb. Ən çox ölüm halları isə ABŞ-da baş verib.

Ardı 11-ci səh.

# Prezidentdən hərbçilərə Yeni il hədiyyəsi









Əvvəli 1-ci səh.

Hava və avtomobil yolları ilə qət edilən ümumi məsafə isə 15 min kilometrdən artıqdır.

Qeyd edək ki, Prezident İlham Əliyevin fəaliyyətində diqqəti çəkən amillərdən biri gərgin iş qrafikinə rəğmən, görülən işlərlə yerindəcə tanış olmaqdır. Bu amil xüsusilə sosial layihələrdə özünü daha qabarıq büruzə verir.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 2011-ci il tarixli Fərmanına əsasən, 20 il və daha çox qüsursuz xidmət edən hərbi qulluqçular dövlət vəsaiti hesabına mənzillə təmin olunurlar. İndiyədək 2208 hərbçi bu təşəbbüsdən faydalanıb.

Yeni 2022-ci ili daha 130 hərbçi ailəsi öz mənzilində qarşılayacaq. Onlardan 48-i Mənzil İnşaatı Dövlət Agentliyinin Hövsan Yaşayış Kompleksində mənzillə təmin edilib.

Dövlət başçısı Hövsan Yaşayış Kompleksindəki mənzillərdə yaradılan şəraitlə tanış oldu.

Sonra Prezident İlham Əliyev MİDA-nın Yasamal Yaşayış Kompleksinə gəldi. Bu kompleksdə isə 82 hərbçi ailəsinə mənzil verilib. Dövlət başçısı mənzillərə baxdı.

Mənzillər tam təmirlidir, mətbəx mebeli ilə təchiz olunub. Azərbaycan belə dövlət proqramının icra edildiyi nadir ölkələrdəndir.

Ümumiyyətlə, ölkəmizdə ordu quruculuğu prosesində hərbçilərin sosial müdafiəsi, onların mənzil-məişət problemlərinin həlli, xidmət şəraitinin yaxşılaşdırılması xüsusi yer tutur. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində təqdim olunan növbəti mənzillər bunun əyani təsdiqidir.



## "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə
### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208, № 12, maddə 1019; 2007, № 12, maddə 1194; 2008, № 4, maddə 254, № 6, maddə 464, № 7, maddə 602, № 8, maddələr 699, 710; 2009, № 6, maddələr 395, 399, № 11, maddələr 877, 879; 2010, № 7, maddə 579; 2011, № 4, maddə 267, № 6, maddə 465, № 7, maddə 597, № 12, maddə 1109; 2012, № 11, maddələr 1037, 1044; 2013, № 3, maddə 223, № 5, maddə 485, № 6, maddələr 608, 614; 2015, № 5, maddə 494; 2017, № 5, maddə 676, № 7, maddə 1289, № 10, maddə 1776, № 12 (I kitab), maddə 2193; 2018, № 5, maddə 865, № 12 (I kitab), maddə 2504; 2019, № 2, maddə 205, № 3, maddə 380, № 5, maddələr 805, 808, № 8, maddələr 1374, 1382, № 11, maddə 1691, № 12, maddə 1891; 2020, № 7, maddə 829, № 12 (I kitab), maddə 1451; 2021, № 7, maddə 709, № 8, maddələr 893, 899) 6-1-ci maddəsinin birinci cümləsində "2019-cu il 1 oktyabr tarixindən 200" sözləri "2022-ci il yanvarın 1-dən 240" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 dekabr 2021-ci il*

## Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında
### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə **qərara alıram:**

1. 2021-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 100 (yüz) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

2. Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1241 nömrəli Fərmanının 1.6.1.1-ci yarımbəndində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üçün nəzərdə tutulmuş vəsaitdən 4 800 000 (dörd milyon səkkiz yüz min) manat ayrılsın;

2.2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan ailələrə ödənilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

## İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında
### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. Şəhərdə Azərbaycan xalqına məxsus son dərəcə zəngin ədəbi-mədəni mühit formalaşmışdır. İrəvan xanlığı çar Rusiyasının tərkibinə qatıldıqdan sonra burada dünyəvi təhsilə xüsusi diqqət yetirilməsində həmin mühitin özü əhəmiyyətli rol oynamışdır. XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda maarifçilik hərəkatı geniş vüsət aldı. Regionda dünyəvi təhsil verən yeni tipli məktəbin - İrəvan Müəllimlər Seminariyasının açılması da məhz bu vaxtlara təsadüf edir.

1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası çar hakimiyyətinin bölgədəki maraqları naminə yaradılmasına baxmayaraq, 40 ilə yaxın müddətdə hazırladığı müasir dünyagörüşünə və düşüncə tərzinə malik yüksəkixtisaslı milli müəllim kadrları ilə azərbaycanlıların üstünlük təşkil etdiyi İrəvan mahalında ədəbi-ictimai, elmi-mədəni həyatın ənənəvi dolğunluğunun və canlılığının qorunub saxlanılmasında təqdirəlayiq xidmətlər göstərmiş, pedaqoji fikir salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Görkəmli maarifpərvər Firidun bəy Köçərli seminariyanın ilk müəllimlərindən olmuş, geniş mədəni-maarif işləri aparmışdır. Seminariyanın məzunları sırasında xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi İrəvan Müəllimlər Seminariyasının 140 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

## Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə "Müharibə veteranı" adının verilməsi ilə bağlı tədbirlər haqqında
### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövrdə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə "Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi kateqoriyalar əsasında 2022-ci il yanvarın 1-dən etibarən "Müharibə veteranı" adının və "Azərbaycan Respublikasının müharibə veteranı" vəsiqəsinin verilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 641 nömrəli Fərmanına uyğun olaraq "Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün (bundan sonra - Azərbaycan Respublikası Prezidentinin təqaüdü) təyin edilməsi və ödənilməsi təmin edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bir ay müddətində:

2.1.1."Veteranlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərin kateqoriyalarının müəyyən edilməsini təmin etsin;

2.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını təmin etsin;

2.2. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün ödənilməsini təmin etmək üçün tələb olunan vəsaitin 2022-ci ilin və növbəti illərin dövlət büdcəsində nəzərə alınması üçün müvafiq tədbirlər görsün;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi:

3.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan şəxslərin siyahısını 2022-ci il yanvarın 1-dən etibarən müəyyən edib Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, onlara "Müharibə veteranı" adının və "Azərbaycan Respublikasının müharibə veteranı" vəsiqəsinin verilməsini, həmçinin bu barədə məlumatların Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Zəfər" altsisteminə daxil edilməsini təmin etsinlər;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsinlər.

4. Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan şəxslərin siyahısını 2022-ci il yanvarın 1-dən etibarən müəyyən edib Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla, onlara "Müharibə veteranı" adının və "Azərbaycan Respublikasının müharibə veteranı" vəsiqəsinin verilməsini, həmçinin bu barədə məlumatların 5 (beş) iş günündən gec olmayaraq kağız və elektron daşıyıcılarda Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunmasını təmin etsinlər.

5. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

5.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan şəxslərə 2022-ci il yanvarın 1-dən etibarən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin edilməsini və ödənilməsini təmin etsin;

5.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Bu Sərəncam 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

## Azərbaycan Respublikasında özəl ümumölkə teleradio yayımçılarına birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında
### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında özəl ümumölkə teleradio yayımçıları tərəfindən ölkə ictimaiyyətinin operativ və dolğun informasiya ilə təmin edilməsi, Azərbaycan haqqında həqiqətlərin dünyaya çatdırılması, xaricdə yaşayan azərbaycanlıların öz Vətəni barədə məlumatlılığının artırılması, Azərbaycan xalqının mədəniyyətinin, milli-mənəvi dəyərlərinin təbliği sahəsində fəaliyyətinin stimullaşdırılması, maarifçilik xəttinin gücləndirilməsi, peşəkarlığın yüksəldilməsi, həmçinin televiziya və radioların texniki imkanlarının artırılması, əhatə dairəsinin daha da genişləndirilməsi zəruriliyini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasında fəaliyyət göstərən özəl ümumölkə teleradio yayımçılarının "Azerspace-1" peyki ilə və digər vasitələrlə yayım həyata keçirməsinə əlavə dəstək verilməsi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurasına 4,0 (dörd) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

## "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə
### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2053; 2017, № 7, maddə 1288; 2019, № 1, maddə 28; 2020, № 5, maddə 527, № 11, maddə 1333) 3.4.9-cu maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.4.10-3.4.13-cü maddələr əlavə edilsin:

"3.4.10. ixtisaslaşdırılmış qaydada, o cümlədən komisyon və ticarət təşkilatları vasitəsilə avtomobil satışı üzrə ödənişlər;

3.4.11. pərakəndə satış qaydasında təqdim edilən malların (avtomobillər istisna olmaqla) satışı üzrə bir əməliyyat çərçivəsində dörd min manatdan artıq olan ödənişlər;

3.4.12. tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan ödənişlər;

3.4.13. "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənən münasibətlər üzrə müəyyən edilmiş ümumi məbləği üç min manatdan artıq olan uduşlar (mükafatlar) və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşları).".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə
### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 11, № 12, maddə 706; 2005, № 12, maddə 1083; 2006, № 12, maddə 1005; 2010, № 3, maddə 173, № 4, maddə 276; 2016, № 2 (I kitab), maddə 205, № 4, maddə 628; 2017, № 5, maddə 699; 2018, № 12 (I kitab), maddə 2523; 2019, № 7, maddə 1208, № 8, maddə 1372; 2020, № 5, maddə 525; 2021, № 6 (I kitab), maddə 559, № 7, maddə 719) 8.1-ci maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Tikinti, tikinti quraşdırma və istehsal sahələrinin qurulması ilə bağlı tender qalibi olan qeyri-rezident hüquqi və ya fiziki şəxslərlə malların (işlərin və xidmətlərin) satınalması müqaviləsi həmin şəxslərin Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq uçota alınmış daimi nümayəndəlikləri və daimi nümayəndəlik yaratmayan bölmələri olduğu halda bağlanılır.".

**Maddə 2.** Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 dekabr 2021-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Altmış illik yubileyiniz münasibətilə təbriklərimi qəbul edin.

Sizin böyük təcrübəniz və peşəkarlığınız, aktual problemləri dərhal görmək və zamanın çağırışlarına cavab vermək bacarığınız sayəsində Azərbaycan bu gün sosial-iqtisadi potensialını artırmaqda davam edir, beynəlxalq arenada mövqelərini inamla gücləndirir.

Əminəm ki, Sizin uzaqgörən və savadlı siyasətiniz ölkənizə daha böyük qələbələr gətirəcəkdir.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar, vətəndaşlarınıza sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Sergey MİRONOV,***
***Rusiya Dövlət Dumasının deputatı, "Ədalətli Rusiya-Vətənpərvərlər-Həqiqət uğrunda" fraksiyasının rəhbəri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Yubileyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin Azərbaycan Respublikasına rəhbərlik etdiyiniz illərdə ölkə iqtisadi və sosial həyatın bütün sahələrində həqiqətən böyük nailiyyətlər əldə edib, bütün dünyada nüfuzlu və hörmətli dövlətə çevrilib. Vətənə hədsiz dərəcədə sevgi və onun maraqları naminə yorulmadan xidmət Sizə həmvətənlərinizin böyük hörmətini qazandırıb. Sizin kimi nüfuzlu liderin doğum gününün Azərbaycanın bütün vətəndaşları üçün əlamətdar gün olduğuna əminəm.

Sizə və yaxınlarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Əlişir USMANOV,***
***Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Sizi doğum gününüz münasibətilə Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) adından səmimi-qəlbdən təbrik edirik.

Sizin ölkəmizə rəhbərlik etdiyiniz müddətdə Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davamı olaraq həyata keçirdiyiniz uğurlu siyasət nəticəsində müstəqil Azərbaycanın qızıl hərflərlə ən yeni şanlı tarixi yazıldı. Sizin uzaqgörən və müdrik siyasətiniz nəticəsində Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Bu sevincli günləri bizə bəxş etdiyinizə görə Sizə bir daha sonsuz təşəkkürümüzü bildiririk. Sizin şücaətləriniz tarixə qızıl hərflərlə həkk olunacaq, əsrlər keçsə də Azərbaycan xalqı Sizi minnətdarlıqla xatırlayacaq. Hər bir azərbaycanlı Sizin rəhbərliyiniz altında olan ölkədə yaşadığı üçün daim dərin fəxarət hissləri keçirəcək.

Sizin rəhbərliyinizlə Azərbaycanda iqtisadiyyatın və sosial sahənin modernləşdirilməsi yolu ilə sürətli inkişaf siyasətini dəstəkləyir, Sizə bu yolda Uca Allahdan daha çox güc və səbir verməsini arzulayırıq.

Respublikanın hərtərəfli inkişafı istiqamətində uğurlu fəaliyyətiniz, ordu quruculuğunun yüksək səviyyədə təşkili, təhsilə, idmana və digər önəmli sahələrə qayğınız, xalqın rifah səviyyəsinin yüksəldilməsinə verdiyiniz töhfələr danılmazdır.

Siz Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq xarakteri kəsb edən ənənəvi dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə xüsusi töhfə verirsiniz. Azərbaycan Türkiyə İş Adamları Birliyi olaraq bu siyasəti daim dəstəkləyəcəyimizə Sizi əmin edirəm.

Cənab Prezident, fürsətdən istifadə edərək, təşkilatımızın fəaliyyətinə verdiyiniz dəstəyə görə Sizə bir daha təşəkkür edirik.

Ölkəyə və bəşəriyyətə xidmət amalı ilə qədəm qoyduğunuz yeni yaşınızı bir daha ürəkdən təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik diləyir, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

***Cemal YANĞIN,***
***Azərbaycan Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri***

❖ ❖ ❖

Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan.

Xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərinin, ölkələrimizin "bir millət, iki dövlət" prinsipi ilə inkişaf edən əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edən Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyası və Kocaeli Azərbaycan Heydər Əliyev Mədəniyyət Evi Dərnəyi adından Sizə yubileyiniz münasibətilə səmimi təbriklərimizi, cansağlığı, xoşbəxtlik arzularımızı çatdırırıq.

Siz Azərbaycanın işğal altındakı torpaqlarını azad etməklə bizə böyük sevinc və qürur hissi yaşatdınız. Eyni zamanda, Müzəffər Ali Baş Komandan kimi adınızı əbədi olaraq Azərbaycanın tarixinə həkk etdiniz.

Cənab Prezident, Sizə dərin hörmət və ehtiramımızı bildiririk.

*Hörmətlə,*

***Bilal DÜNDAR,***
***Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının fəxri sədri, Kocaeli Azərbaycan Heydər Əliyev Mədəniyyət Evi Dərnəyinin sədri***

❖ ❖ ❖

Cənab Prezident.

Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirəm. Siz türk dünyasının ən böyük liderlərindən birisiniz.

Siz Axıska türklərinə ən çətin zamanlarda kömək etmisiniz, Azərbaycanın sürətli inkişafı, gücləndirilməsi və dünyaya tanıdılması üçün böyük xidmətlər göstərməkdə davam edirsiniz.

Siz qətiyyətli liderliyiniz, iradəniz, dəmir yumruğunuz sayəsində Azərbaycanın 30 ilə yaxın işğal altında qalmış torpaqlarını azad etdiniz. Sizin əzmkarlığınız nəticəsində Qarabağın yenidən qurulması prosesi başlayıb.

Hörmətli Prezident, Sizin rəhbərliyinizlə Azərbaycanın gələcəkdə daha böyük uğurlar qazanacağına inamımız qətidir.

Dünya Axıska Türkləri Birliyinin İdarə Heyətinin üzvləri və bütün Axıska türkləri adından Sizi bir daha ürəkdən təbrik edir, Zati-alinizə uzun ömür, cansağlığı, xoşbəxtlik, firavanlıq diləyirəm.

*Hörmətlə,*

***Ziyəddin KASSANOV,***
***Dünya Axıska Türkləri Birliyinin baş direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

İstanbul Türkiyə-Azərbaycan Həmrəylik və Mədəniyyət Dərnəyinin idarə heyəti və bütün üzvləri adından Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Böyük zəfərlər böyük insanlarla qazanılır. Uzun illər işğal altında qalmış Azərbaycan torpaqları Sizin əmrinizlə həyata keçirilən uğurlu əməliyyat nəticəsində böyük qəhrəmanlıqla azad edildi. Bu şanlı Zəfər bütün türk dünyasını sevindirdi. Bizə bu xoşbəxtliyi yaşatdığınıza görə Sizə minnətdarlığımızı bildiririk.

Cənab Prezident, Sizə uzun ömür, cansağlığı, Azərbaycanın daha da inkişafı naminə fəaliyyətinizdə uğurlar diləyirik.

*Hörmətlə,*

***Səfər QARAQOYUNLU,***
***İstanbul Türkiyə-Azərbaycan Həmrəylik və Mədəniyyət Dərnəyinin (İSTAD) sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Siz öz vəzifənizi yorulmadan və şərəflə yerinə yetirərək bütün həyatınızı xalqımıza və dövlətimizə həsr etmisiniz. Siz öz gücünüzü, enerjinizi, vaxtınızı, həyat və dövlətçilik təcrübənizi və biliklərinizi dövlətimizin və onun sakinlərinin rifahına sərf edirsiniz.

Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə beynəlxalq birliyin tanınmış və nüfuzlu üzvü, regionda sülhün və sabitliyin qarantı kimi dünyada layiqli yer tutur. Siz, dünyamiqyaslı siyasi xadim kimi, öz üzərinizə götürdüyünüz öhdəliklərin yerinə yetirilməsində, milli və beynəlxalq layihələrin gerçəkləşməsində müdriklik və əzmkarlıq nümayiş etdirirsiniz. Sizin ölkənin iqtisadi inkişafına, yüksək mənəvi və əxlaqi ab-havanın qorunub saxlanmasına, mədəniyyətin, elmin və təhsilin inkişafına yönəlmiş planlarınızın həyata keçirilməsi sayəsində bütün sahələrdə güclü artım müşahidə olunur, bu da vətəndaşlarımızın rifahına müsbət təsir göstərir. Sizin əzmkarlığınız və qətiyyətiniz sayəsində rəşadətli Azərbaycan Ordusu ölkənin ərazi bütövlüyünü bərpa etdi, beynəlxalq hüququn normalarına uyğun olaraq Qarabağı Azərbaycanın yurisdiksiyasına qaytardı. Məhz Sizin Ali Baş Komandan kimi öz xalqını birləşdirmək və səfərbər etmək qabiliyyətiniz Azərbaycanı Vətən müharibəsində zəfərə çatdırdı. Bütün xalqımız Sizi xilaskar kimi görərək öz müdrik liderinin ətrafında sıx birləşdi, lider də xalqımızın böyüklüyünü bütün dünyaya nümayiş etdirdi.

Əzmkarlığınız, uzaqgörənliyiniz, qətiyyətiniz sayəsində mümkün olmuş möhtəşəm Qələbəyə görə Sizə bir daha dərin təşəkkürümü bildirmək istəyirəm. Bu Qələbə bütün xalqların mənafeyi naminə regionun inkişafı və əməkdaşlığı üçün böyük imkanlar yaradıb.

Bu gün Azərbaycan Sizin rəhbərliyinizlə öz tarixinin yeni, əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş dövlətçiliyimizin möhkəmlənməsi və inkişafı zəminində qurulmuş qızıl dövrünü yaşayır. Biz "Mir" və "Mir-24" telekanallarında öz verilişlərimizdə Sizin ölkəmizin hərtərəfli inkişafı və həmvətənlərimizin vahid azərbaycançılıq ideyası ətrafında birləşməsi istiqamətində atdığınız addımlar barədə qürurla söhbət açırıq. Sizin sayənizdə vətənpərvərlik dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün, sadəcə, söz deyil, öz Vətənimizlə, öz qələbəmizlə, öz liderimizlə qürur duymağa imkan verən əlaqələndirici qüvvə olub.

Siz öz dahi atanız, Ulu Öndər Heydər Əliyevin işinin layiqli davamçısı kimi KİV-in, o cümlədən teleradioların inkişafına daim diqqət yetirir, öz peşəkar fəaliyyətində fərqlənmiş jurnalistlərin yüksək dövlət təltiflərinə layiq görülməsi barədə hər il sərəncamlar imzalayırsınız. Məsələn, hörmətli cənab Prezident, 2010-cu ildə Siz məni Azərbaycanın Əməkdar jurnalisti fəxri adı, 2016-cı ildə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif etmisiniz. 2011-ci il fevralın 16-da "Mir" telekanalına verdiyiniz müsahibədə bizim MDB xalqları arasında dostluğun möhkəmlənməsinə və dərinləşməsinə yönəlmiş fəaliyyətimizi yüksək qiymətləndirmisiniz. Çox sağ olun.

Öz adımdan və "Mir" Dövlətlərarası Teleradio Şirkətinin bütün çoxmillətli kollektivi adından Sizi 60 illik yubileyinizlə əlaqədar ürəkdən təbrik edirəm. Sizə uzun ömür, möhkəm cansağlığı, Azərbaycanın rifahı naminə çətin işinizdə uğurlar, Sizə və gözəl ailənizə xoşbəxtlik və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

***İlqar PAŞAZADƏ,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin Azərbaycan Nümayəndəliyinin direktoru, Əməkdar jurnalist***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, ölkəmizin inkişafını daha da sürətləndirən, vətəndaşların həyatını firavanlaşdıran taleyüklü qərarlarınıza görə Zati-alinizə dərin minnətdarlığımızı bildiririk.

İcazə verin, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə yeni-yeni uğurlar, nəzərdə tutduğunuz planlarınızın və ideyalarınızın tez bir zamanda həyata keçməsini arzulayaq.

*Hörmətlə,*

***Rəşad İBRAHİM və Anar MƏLİK,***
***Belçika Azərbaycanlıları Federasiyasının həmsədrləri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Rusiya Federasiyasının Ural Federal Dairəsinin çoxsaylı Azərbaycan icması adından və şəxsən öz adımdan Sizə ehtiramımızı bildirir, Sizi hər bir azərbaycanlı üçün əlamətdar olan 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirik.

Sizin insani keyfiyyətləriniz, siyasi iradəniz, təşəbbüskarlığınız, enerjiniz, peşəkarlığınız həm xalq, həm də dövlət rəhbərləri tərəfindən yüksək qiymətləndirilir.

Sizin Azərbaycan Respublikasının firavanlığı, onun iqtisadiyyatının və mədəniyyətinin inkişafı istiqamətindəki səyləriniz lazımınca dəstəklənir.

Arzu edirəm ki, sevimli Azərbaycanımızın bundan sonra da sosial-iqtisadi inkişafına, həmvətənlərimizin həyat səviyyəsinin yaxşılaşmasına yönəlmiş fəaliyyətinizdə həmişə uğur qazanasınız.

Qoy Sizin bilikləriniz, təcrübəniz, müdrikliyiniz dünyada birliyin və həmrəyliyin möhkəmlənməsinə, tarixən bizə dost, tərəfdaş olan Rusiya Federasiyası ilə qarşılıqlı münasibətlərin daha da genişlənməsinə şərait yaratsın! Biz azərbaycanlılar Sizin ətrafınızda birləşərək daxili və xarici siyasətinizi dəstəkləyir, bütün Azərbaycan xalqının mənəvi birliyi və gücünə görə qürur və sevinc duyuruq.

Milyonlarla həmvətənimizin arzusunu həyata keçirməyinizi - öz əzmkar qərarlarınızla və fəaliyyətinizlə Azərbaycanın əzəli, 30 ilə yaxın işğal altında qalmış torpaqlarını azad etməyinizi bizə böyük hədiyyə hesab edirik. İndi biz cəsarətlə bəyan edə bilərik ki, Azərbaycan xalqı qalib xalqdır.

Biz bilirik ki, Siz həmişə öz xalqınıza inanırsınız və Sizin digər şəxsi keyfiyyətlərinizlə bərabər məhz bu inam bütün qələbələrin mənbəyi və rəhni olub, yenə də belədir.

Bütün Azərbaycan xalqı indi rahat yatır, çünki ölkəmiz bu cür qayğıkeş və etibarlı əllərdədir.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, şəxsi həyatınızda xoşbəxtlik, firavanlıq, Azərbaycan Respublikasının rifahı naminə bütün təşəbbüslərinizdə uğurlar diləyirik.

Siz bütün Azərbaycan xalqını xoşbəxt etdiniz. Sizinlə fəxr edirik, Sizə inanırıq, güvənirik, Sizi sevirik.

Yaşasın müstəqil Azərbaycan, yaşasın Ali Baş Komandan!

Yubileyiniz mübarək, cənab Prezident!

*Hörmətlə və dərin minnətdarlıq hissi ilə,*

***Şahin ŞIXLİNSKİ,***
***Rusiyanın Sverdlovsk vilayətindəki "Azərbaycan-Ural" İctimai Milli-Mədəni Təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Hörmətli İlham Heydər oğlu.

Uzaq Şərqin Azərbaycan diasporu adından yubileyiniz münasibətilə səmimi təbriklərimizi qəbul edin.

Sizin prezidentliyiniz illərində Azərbaycanın bütün sahələrdə firavanlaşan ölkəyə çevrilməsində ümummilli lider kimi rolunuz şəksizdir.

Bütün sosial-iqtisadi məsələlər kompleksi Sizin daimi nəzarətinizdədir, həyat fəaliyyətinin müxtəlif sahələri modernləşdirilir, ölkənin ənənələri və mədəniyyəti qorunub saxlanılır. Sizin peşəkarlığınız, ictimai-siyasi və idarəçilik fəaliyyətinizdə zəngin təcrübəniz, əməksevərliyiniz, həqiqi vətənpərvərliyiniz qarşıya qoyulmuş hədəflərə nail olmaqda, Azərbaycan vətəndaşlarının rifahı naminə işinizdə Sizə kömək edir.

Biz azərbaycanlılar fəxr edirik ki, bizim Prezidentimiz dünyanın böyük siyasətçiləri sırasındadır, Qarabağ müharibəsində qalib gəlib, Azərbaycanın ərazi bütövlüyünü bərpa edib və bu gün Azərbaycan dünyada ən mühüm siyasi proseslərin gedişini müəyyən edir.

İcazə verin, Sizə səmimi-qəlbdən firavanlıq, dövlətçiliyin daha da möhkəmləndirilməsi işində hərtərəfli uğurlar, ailə xoşbəxtliyi, cansağlığı və başınız üzərində aydın səma arzularımızı bildirim. Qoy Sizin bilikləriniz, əzmkarlığınız və məqsədyönlülüyünüz doğma xalqımızın rifahı naminə səmərəli işinizin etibarlı təməli olsun, Azərbaycanı daha böyük uğurlara və nailiyyətlərə doğru aparsın!

*Hörmətlə,*

***Mərdan NOVRUZOV,***
***Rusiya Federasiyası Primorsk diyarı qubernatorunun müşaviri, Primorsk diyarındakı "Azərbaycan Konqresi" Milli-Mədəni İctimai Təşkilatının sədri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu.

"Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" İctimai Təşkilatı adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin Azərbaycan Respublikasının inkişafına, onun iqtisadi və mədəni yüksəlişinə yönəlmiş bütün səyləriniz lazımi dəstək qazanır. Sizin bilikləriniz, təcrübə və müdrikliyiniz cəmiyyətdə birlik və həmrəyliyin daha da möhkəmlənməsinə kömək edir.

Cənab Prezident, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına görə Ulyanovsk vilayəti ərazisində yaşayan bütün azərbaycanlıların səmimi təşəkkürünü qəbul edin.

Azərbaycan Respublikası ilə Ulyanovsk vilayəti arasında dostluq və işgüzar tərəfdaşlıq münasibətlərinin inkişafına verdiyiniz dəstəyə görə Sizə xüsusi minnətdarlığımızı bildirmək istərdik.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, nikbinlik və gümrahlıq, Azərbaycan Respublikasının rifahı naminə yaradıcılıq enerjisi və aktiv fəaliyyət arzulayır, Sizə və yaxınlarınıza xoşbəxtlik və firavanlıq diləyirik.

*Hörmətlə,*

***İslam HÜSEYNOV,***
***Rusiyada fəaliyyət göstərən "Ulyanovsk Regional Azərbaycan Milli-Mədəni Muxtariyyəti" İctimai Təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Arxangelsk vilayətinin Azərbaycan diasporu regional ictimai təşkilatı adından və şəxsən öz adımdan Sizi 60 illik yubileyiniz münasibətilə təbrik edirəm.

Sizin rəhbərliyinizlə Azərbaycan dinamik inkişaf edir, ölkədə iqtisadi, sosial və mədəni inkişaf məsələləri həll olunur. Azərbaycan Respublikasının Rusiya Federasiyası ilə dostluq münasibətləri mövcuddur, ölkədə müxtəlif millətlər və konfessiyalar arasında həmrəylik qorunub saxlanılır. Azərbaycanın Cənubi Qafqazda liderliyinə görə, milli ideyanın dirçəldilməsini və şübhəsiz, Rusiyadakı diaspor təşkilatlarını dəstəklədiyinizə, həmçinin ölkələrimiz arasında münasibətlərin inkişafına görə Sizə təşəkkür edirik.

Bu gün, ilk növbədə, Sizə bir dövlət başçısı kimi daha çox güc və qüvvət, siyasi fəaliyyətinizdə uğurlar arzu edirik. Biz əminik ki, Sizin peşəkarlığınız, məqsədyönlülüyünüz və əzmkarlığınız Azərbaycan Respublikasının daha da inkişafına, firavanlaşmasına və güclənməsinə şərait yaradacaq.

*Hörmətlə,*

***Tərlan QASIMOV,***
***Rusiyada fəaliyyət göstərən Arxangelsk vilayətinin Azərbaycan diasporu regional ictimai təşkilatının idarə heyətinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Rusiya Federasiyasının Krasnoyarsk şəhərində fəaliyyət göstərən "Odlar Yurdu" xalq rəqs ansamblı olaraq 60 illik yubileyinizi hər bir azərbaycanlı kimi böyük sevinc hissi ilə səmimi-qəlbdən təbrik edirik. Azərbaycan mədəniyyətinin xaricdə təbliği diasporumuz üçün hər zaman prioritet istiqamət olduğu kimi, "Odlar Yurdu" xalq rəqs ansamblı da məhz bu missiyanı şərəflə həyata keçirir. Biz Vətənimizdən uzaqlarda mədəni irsimizi yaşadaraq zəngin mədəniyyətimizi layiqincə təmsil etməyə və yaymağa çalışırıq.

Cənab Prezident, Müzəffər Ali Baş Komandan, Siz xalqımıza 30 ilə yaxın intizarla gözlədiyi tarixi Qələbə sevincini yaşadan dahi sərkərdəsiniz. Apardığınız uzaqgörən və müdrik siyasət nəticəsində doğma Qarabağımız düşmən işğalından azad olundu və ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlıya sevinc və fərəh hissi yaşadan tarixi Zəfərinizdən ruhlanaraq, biz mədəniyyət təşkilatı kimi, xüsusilə də üzvlərinin çoxunu erməni işğalı nəticəsində doğma torpaqlarından didərgin düşmüş həmvətənlərimizin övladları təşkil edən ansambl olaraq Vətənimizin mədəniyyət paytaxtı Şuşa şəhərində genişmiqyaslı proqramla çıxış etməyi arzulayırıq.

Xalqımızın xilaskarı, müzəffər sərkərdə olaraq Sizə möhkəm cansağlığı, uzun ömür, dövlətimizin inkişafı və əhalinin rifahı istiqamətində fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Hörmətlə,*

***Səadət QARAYEVA,***
***Rusiyada fəaliyyət göstərən "Odlar Yurdu" xalq rəqs ansamblının yaradıcısı və direktoru***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Rusiyanın Voloqda vilayətinin müsəlman icması Voloqda Kafedral Məscidinin Ağsaqqallar Şurasının üzvləri və Voloqda vilayəti Azərbaycan icmasının liderlərinin adından Sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir.

Azərbaycanın iqtisadi potensialının artırılmasına, ölkədə sosial sabitliyin möhkəmlənməsinə verdiyiniz şəksiz töhfəni, qonşularla əlaqələrin möhkəmlənməsinə və Qarabağda sülhün bərqərar olmasına yönəlmiş müdrik xarici siyasətinizi yüksək qiymətləndiririk.

Rusiyanın şimalının, Voloqda diyarının çoxsaylı Azərbaycan icması - həkimlər, müəllimlər, sahibkarlar öz tarixi vətənləri - günəşli və qonaqpərvər Azərbaycanın firavanlaşmasını səmimi-qəlbdən arzu edirlər. İnşallah, Azərbaycan Sizin rəhbərliyinizlə dünyada əmin-amanlıq adasına çevriləcək.

Sizə və ailənizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, sağlam və uzun ömür, Uca Tanrının mərhəmətini diləyirik.

*İcma adından dərin hörmətlə,*

***Əfqan SULTANOV,***
***Rusiyadakı Voloqda Kafedral Məscidinin Ağsaqqallar Şurasının üzvü,***
***Aqil-həzrət ABIŞOV,***
***Voloqda Kafedral Məscidinin imamı***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Doğum gününüz münasibətilə Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialının bütün kollektivi adından və şəxsən öz adımdan ən səmimi təbriklərimizi qəbul edin.

Siz dövlət başçısı olduğunuz müddətdə Azərbaycanda və xaricdə milyonlarla həmvətəninizin səmimi rəğbətini və hörmətini, çox böyük nüfuz qazanmısınız. Sizi haqlı olaraq nümunəvi güclü lider, müdrik siyasətçi və istedadlı dövlət xadimi hesab edirlər.

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, iqtisadiyyatın artımının təmin edilməsi, sosial sahənin, mənəvi dəyərlərin və vətənpərvərliyin inkişafı, xalqın milli maraqlarının tam qorunması Sizin adınızla bağlıdır.

Sizin qətiyyətli qərarlarınız sayəsində Azərbaycan Respublikasının müasir siması formalaşıb, mühüm dəyişikliklər həyata keçirilib. Təhsilin və elmin inkişafı məsələlərinə göstərdiyiniz diqqətə görə Sizə xüsusi minnətdarlığımı bildirirəm.

Bu əlamətdar gündə Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, əmin-amanlıq və firavanlıq, Azərbaycan dövlətinin və xalqının rifahı naminə yeni-yeni uğurlar və zəfərlər arzu edirəm.

*Hörmətlə,*

***Qurban QURBANOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialının rektoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Mən Odessa Azərbaycanlıları Diasporunun "Birlik" İctimai Təşkilatının rəhbəri kimi Odessada yaşayan azərbaycanlılar adından Sizi doğum gününüz münasibətilə təbrik etmək şərəfinə nail olduğuma görə sevinirəm. İcazə verin, Sizə möhkəm cansağlığı və böyük ailə səadəti arzulayım.

Sizin müdrik siyasətiniz sayəsində Azərbaycan beynəlxalq aləmdə çox böyük nüfuz qazanaraq regionun ən inkişaf etmiş ölkəsinə çevrildi.

Ümummilli Lider Heydər Əliyevin söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" ifadəsi çox qiymətlidir və Sizin sayənizdə dünyada yaşayan bütün azərbaycanlıların şüarına çevrilib.

Bütün azərbaycanlıların Prezidenti kimi hər şeyə görə Sizə təşəkkür edirik.

*Hörmətlə,*

***Rövşən QULİYEV,***
***Ukraynada fəaliyyət göstərən Odessa Azərbaycanlıları Diasporunun "Birlik" İctimai Təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Ukraynanın Jitomir şəhərində yaşayan bütün azərbaycanlılar adından Sizi yubileyiniz münasibətilə təbrik edirik.

Qürur duyuruq ki, qüdrətli Azərbaycanın Sizin kimi Prezidenti var. Siz istedadlı və uzaqgörən lider olaraq Azərbaycanın adını zirvələrə qaldırmısınız. Biz xaricdə Sizin fədakar və əzmkar işinizdən ilhamlanaraq böyük ruh yüksəkliyi ilə fəaliyyət göstərir, ölkəmizi layiqincə təbliğ və təmsil etmək üçün səylərimizi əsirgəmirik.

Möhtərəm Prezident, Sizə cansağlığı, xoşbəxtlik, Azərbaycanın inkişafı və rifahı naminə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirik.

Biz Azərbaycanımızla və Prezidentimizlə fəxr edirik.

*Hörmətlə,*

***Rac QASIMOV,***
***Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun Jitomir vilayəti üzrə nümayəndəliyinin rəhbəri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Ukraynanın Kiyev şəhərində fəaliyyət göstərən Müslüm Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin bütün kollektivi adından Sizi yubileyiniz münasibətilə təbrik edirik.

İcazə verin, Sizə möhkəm cansağlığı və Prezident kimi Azərbaycanın firavanlığı naminə fəaliyyətinizdə uğurlar diləyək.

Siz dahi atanız, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin yolunun davamçısı kimi, ölkənizi inamla firavanlığa və dövlətçilik əsaslarının möhkəmləndirilməsinə doğru aparırsınız.

Sizin rəhbərliyinizlə Azərbaycanda milli iqtisadiyyatın və sosial sahənin inkişafına yönəlmiş genişmiqyaslı proqramlar həyata keçirilir. Respublikanın regionda və beynəlxalq aləmdə nüfuzu əhəmiyyətli dərəcədə möhkəmlənib. Sizin rəhbərliyiniz dövründə Azərbaycan özünün ən böyük arzusunu həyata keçirib - ölkənin əzəli tarixi torpaqları öz sahibinə qaytarılıb. Sizin rəhbərliyinizlə Azərbaycan iqtisadi və sosial sahələrdə də sanballı uğurlar qazanıb. Azərbaycan gələcəyə cəsarətlə baxır və heç şübhəsiz, bu da Sizin xidmətinizdir.

*Hörmətlə,*

***Qurbanəli ABBASOV,***
***Ukraynada fəaliyyət göstərən Müslüm Maqomayev adına Azərbaycan Mədəniyyət Mərkəzinin sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzi və Gürcüstanda yaşayan azərbaycanlılar adından Sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edir və ən xoş arzularımızı çatdırırıq.

Sizə uzun ömür, möhkəm cansağlığı, ailə səadəti, yürütdüyünüz daxili və xarici siyasətdə uğurlar arzu edirik.

*Dərin hörmətlə,*

***Orxan PİRVERDİYEV,***
***Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin icraçı direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Gürcüstanda fəaliyyət göstərən "Aktual Media" təşkilatı və onun azərbaycandilli "Aktual.ge" xəbər portalının kollektivi adından, şəxsən öz adımdan Sizi yubileyiniz münasibətilə təbrik edirəm.

Cənab Prezident, Siz dünya azərbaycanlılarına, o cümlədən Gürcüstanda yaşayan azərbaycanlılara daim diqqət və qayğı göstərirsiniz. Sizin uzaqgörən siyasətiniz sayəsində Azərbaycan Respublikasının hər keçən gün inkişaf etməsi, güclənməsi Gürcüstandakı soydaşlarımıza böyük sevinc yaşadır. Sizin rəhbərliyinizlə müzəffər Azərbaycan Ordusunun işğal altındakı əzəli torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad etməsi münasibətilə Zati-alinizi xüsusi olaraq təbrik edirəm.

Cənab Prezident, yubileyiniz mübarək olsun!

Uca Allah Sizə möhkəm cansağlığı, güc-qüvvət versin.

*Hörmətlə,*

***İlkin HÜSEYNOV,***
***Gürcüstanda fəaliyyət göstərən "Aktual Media" təşkilatının təsisçisi və baş direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram.

İlk növbədə, dünya azərbaycanlılarına qələbə sevinci yaşatdığınıza görə Sizə minnətdarıq. Sizin qətiyyətli komandanlığınızla Azərbaycan Ordusu Vətən müharibəsində Zəfər çaldı, yeni tarix yazdı.

Cənab Prezident, biz Sizi Azərbaycanın inkişafına, xalqın rifahına yönəlmiş ölçülüb-biçilmiş siyasət yürüdən müdrik dövlət başçısı və əsl vətənpərvər kimi tanıyırıq. Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası gündən-günə tərəqqi etməkdə davam edir və əminəm ki, bundan sonra da demokratik dövlət quruculuğu, sabit iqtisadi və sosial inkişaf yolu ilə inamla irəliləyəcək. Ümidvaram ki, Sizin yorulmaz səyləriniz, xalqın etimadı və respublika vətəndaşlarının həyatını daha firavan etmək üçün gördüyünüz işlər ali dövləti fəaliyyətinizdə uğurlarınızı artıracaq.

İcazə verin, əlamətdar yubileyiniz münasibətilə Sizə və yaxınlarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzu edim.

*Hörmətlə,*

***Nahid QURBANOV,***
***Gürcüstanda fəaliyyət göstərən "Təmiz Xəbər" təşkilatının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Sizi 60 illik yubileyiniz münasibətilə "Vətənsevər" Azərbaycan- Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin üzvləri adından ürəkdən təbrik edir və Sizə uzun ömür, cansağlığı arzulayırıq.

Bu gün biz Küveytdə yaşayan azərbaycanlılar olaraq Sizin uzaqgörən siyasətinizi dəstəkləyir və bizim Prezidentimiz olmağınızdan qürur hissi duyuruq. Siz Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı kimi bir çağırışınızla bütün Azərbaycan xalqını torpaqlarımızın azadlığı uğrunda mübarizə aparmaq üçün tək bayraq altında birləşdirən və dəmir yumruğa çevirən, tarix yazan qüdrətli sərkərdəmizsiniz.

Cənab Prezident, bu gün Siz dünya azərbaycanlılarının qürur mənbəyinə çevrilmisiniz. Fürsətdən istifadə edərək Sizi və ailə üzvlərinizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və qarşıdan gələn Yeni il münasibətilə ürəkdən təbrik edir, əzmkar fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Allah sizi və ailənizi qorusun.

*Hörmətlə,*

***Könül HACIZADƏ,***
***"Vətənsevər" Azərbaycan-Küveyt Mədəniyyət və Dostluq Cəmiyyətinin sədri***

# "Media haqqında" qanun layihəsinə əlavə və dəyişikliklər edilir

Dekabrın 29-da Milli Məclisin İnsan hüquqları və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin videokonfrans formatında birgə iclası keçirilib. Videokonfransı açan parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc komitələrin birgə iclasında üçüncü oxunuşda müzakirəyə çıxarılan "Media haqqında" qanun layihəsinin əvvəlki oxunuşlarında keçirilən geniş ictimai müzakirələrindən və dinləmələrdən danışıb. Milli Məclisin Sədri Sahibə Qafarovanın məsələyə xüsusi diqqətini vurğulayan Zahid Oruc keçirilən müzakirələrin nəticələrindən söz açıb.



Zahid Oruc qanun layihəsinə qarşı əsassız tənqidlərə toxunub. Vurğulayıb ki, layihədə internet televiziyalara qarşı heç bir müddəa yer almayıb. Yalnız klassik mənada ölkənin mərkəzi kommunikasiya qurğuları üzərindən yayımlandıqda televiziya kanalı kimi lisensiyalaşdırılmasından söhbət gedir. Komitə sədri ölkənin aparıcı media orqanlarının və qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə müxtəlif platformalarda aparılan fikir mübadiləsindən sonra qanun layihəsinə nəzərdə tutulan əlavə və dəyişikliklərin 9 maddəni əhatə etməsi barədə məlumat verib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, sənədlə bağlı ictimai müzakirə prosesində media subyektləri, həmçinin digər maraqlı tərəflərlə keçirilən görüşlərdə təklif olunan dəyişikliklərdən qanun layihəsinə tənqidi yanaşanların da məmnun qaldıqlarını, dünənki geniş ictimai müzakirədə media nümayəndələrinin qanun layihəsinin indiki formatından razılıqlarını açıq ifadə etdiklərini vurğulayıb. Birinci vitse-spiker qeyd edib ki, yeni qanun layihəsi Venesiya Komissiyası tərəfindən təqdir olunmuş normaların məcmusudur. Yəni hazırda qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" və "Televiziya və radio yayımı haqqında" qanunların ümumiləşdirilmiş formasıdır.

Sonra Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev "Media haqqında" qanun layihəsinə təklif olunan dəyişiklikləri bir-bir iclas iştirakçılarının diqqətinə çatdırıb.

Şöbə müdiri bildirib ki, sənədin 13.3-cü maddəsinə informasiya agentliklərinin təklifinə əsasən, media subyektləri üçün informasiya agentliklərinin məlumatlarından istifadə zamanı istinad göstərmək öhdəliyini daha aydın müəyyən etmək üçün "istinadla bağlı tələb istisna olmaqla" sözlərinin əlavə edilməsi təklif olunub.

İkinci düzəliş 14.1.11-ci maddə ilə bağlıdır. Maddədə "faktlar və hadisələr qərəzsiz və obyektiv şərh olunmalı, birtərəfliliyə yol verilməməlidir" cümləsində media nümayəndələrinin təklifi ilə "şərh olunmalı" sözləri "təqdim olunmalı" sözləri ilə əvəzlənib.

Adil Vəliyev məlumat verib ki, layihədə internet televiziyalarının məcburi lisenziyalaşdırılması müddəası nəzərdə tutulmasa da, ictimai müzakirələrdə ən çox narahatlıq bu məsələ ilə bağlı ifadə edilib. Bu yanaşmanın aydın başa düşülmədiyi iddia edildiyindən, layihəyə yeni 30.8-ci maddə əlavə olunub və daha dəqiq göstərilib ki, "Birbaşa internet üzərindən audiovizual proqramlar yayımlayan şəxslər yalnız öz müraciətləri əsasında platforma yayımçısı lisenziyası ala bilərlər".

30.8-ci maddənin əlavə edilməsinin məntiqi davamı olaraq 30.2-ci maddədə də müvafiq istisnanın dəqiq göstərilməsi zərurəti yaranıb. Yəni internet televiziyaları istisna olmaqla digər platforma yayımçıları lisenziya əsasında fəaliyyət göstərəcəkdir.

Beşinci dəyişikliklə bağlı bildirilib ki, proqramların istehsalında istifadə olunan hər hansı bir texniki avadanlığın uyğunluğunun qiymətləndirilməsi bu layihənin predmeti olmadığı üçün qanun layihəsinin 36-cı maddəsinin "proqramların istehsalı, ötürülməsi və yayımlanmasını" ifadəsində "istehsalı" sözü çıxarılıb.

39.1.2-ci maddədə edilən dəyişiklik 2017-ci ildə qəbul olunmuş "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunun müddəaları ilə uyğunlaşdırma xarakteri daşıyır. Milli qanunvericilikdəki yeni yanaşma nəzərə alınaraq, 39.1.2-ci maddənin "tütün istifadəsi prosesinin açıq nümayiş etdirildiyi proqramlarda tütündən istifadənin sağlamlığa və ətraf mühitə zərərli təsiri barədə xüsusi xəbərdaredici məlumatların verilməsini təmin etmək" müddəasından "açıq" sözü çıxarılıb.

Həmçinin normativ hüquqi akt layihəsinin qəbul olunma prosedurunun yekunlaşacağı vaxtın əvvəlcədən müəyyən edilməsi çoxsaylı müzakirələrə səbəb olduğundan müvafiq 78.4-cü maddə layihədən çıxarılıb.

Bundan başqa, layihəyə 78.6-cı maddə əlavə olunub. Həmin maddəyə əsasən, bu qanunun 26.3.1-ci və 74.2.3-cü maddələri qanun qüvvəyə mindikdən sonra yaranmış hallara şamil olunur.

Adil Vəliyev bununla bağlı bildirib ki, layihənin müvafiq maddələrində ağır və ya xüsusilə ağır cinayətlərə, habelə ictimai mənəviyyat əleyhinə olan cinayətlərə görə əvvəllər məhkum edilmiş şəxslərə münasibətdə media subyekti təsis etməyi və jurnalist kimi Media Reyestrinə daxil olunmağı qadağan edən normaların qanunun qəbulundan əvvəl yaranmış münasibətlərə də şamil olunacağına dair fikirlərin qarşısını almaq üçün sözügedən müddəanın təsbiti məqsədəuyğun sayılıb.

Şöbə müdiri diqqətə çatdırıb ki, nəzərdə tutulan son dəyişiklik 26.3-cü maddə ilə bağlıdır. Müzakirələrdə bu maddənin müddəalarında siyasi partiya və dini qurumlarla bağlı məsələyə yenidən baxılmış, araşdırılmış və ortaq məxrəcə gəlinmişdir. Belə ki, 26.3.4-cü və 26.3.5-ci maddələr "Siyasi partiyalar və dini qurumlar yalnız çap mediasının təsisçisi (iştirakçısı) ola bilərlər" məzmununun 26.4-cü maddə ilə əvəzlənməsi məqsədəmüvafiq hesab edilmişdir.

Sonra deputatlar layihənin müzakirəsinə keçiblər. Deputatlardan Tahir Kərimli, Fazil Mustafa, Hikmət Məmmədov, Razi Nurullayev, Azay Quliyev çıxış edib, qeydlərini bildiriblər. Deputatlar sosial şəbəkələrdə və digər platformalarda qanun layihəsinə qarşı aparılan kampaniyanın əsassız olduğunu vurğulayıblar. Tənqidlərin konkretlikdən və qanunun predmetindən uzaq olması qeyd edilib.

Deputatlar "Media haqqında" qanun layihəsinə cəmiyyətin böyük maraq göstərməsini və sənədin kifayət qədər geniş ictimai müzakirələrdən keçməsini, maraqlı diskussiyaların aparılmasını, təkliflərin diqqətlə dinlənilməsini, ciddi araşdırılmasını müsbət qiymətləndiriblər. Belə bir inam ifadə olunub ki, qanun layihəsinin indiki formatı media sektorundakı düzənsizliyi nizama salacaq, bu sahəni müasir dövrün tələblərinə uyğun tənzimləyəcək.

İclasın sonunda "Media haqqında" qanun layihəsi üçüncü oxunuşda müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***Aydan XƏLİLOVA, "Azərbaycan"***

# Azərbaycan Ordusunun keyfiyyətcə yüksək, müasir standartlara çatdırılması tapşırıqları uğurla yerinə yetirilir

2021-ci ildə Azərbaycan Ordusunun gündəlik və döyüş fəaliyyəti Silahlı Qüvvələrin Ali Baş Komandanının göstəriş və tapşırıqları, müdafiə naziri və Baş Qərargah rəisinin əmr və direktivləri əsasında torpaqlarımızın, ərazi sularının və hava məkanının müdafiəsi, o cümlədən mümkün təxribatların qarşısının alınması və müxtəlif döyüş tapşırıqlarının yerinə yetirilməsi ilə həyata keçirilib. Azad edilmiş ərazilərdə müdafiənin təşkili və dayanıqlığının təmin edilməsi məqsədilə qoşunların hazır vəziyyətdə saxlanılması üzrə tapşırıqlar yerinə yetirilib.

AZƏRTAC xəbər verir ki, bu barədə dekabrın 29-da keçirilən mətbuat konfransında Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəis müavini, polkovnik-leytenant Anar Eyvazov məlumat verib.

Anar Eyvazov bildirib ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunda islahatların həyata keçirilməsi 2021-ci ildə də davam etdirilib. Ordunun keyfiyyətcə yüksək, müasir standartlara çatdırılması tapşırıqları uğurla yerinə yetirilir.

Vətən müharibəsinin təcrübəsi nəzərə alınmaqla qoşunların imkan və qabiliyyətlərinin artırılması, idarəetmə orqanlarının optimallaşdırılması, səfərbərlik, əməliyyat və döyüş hazırlığının təkmilləşdirilməsi üzrə planlı tədbirlər həyata keçirilir. Vətən müharibəsindən sonrakı dövrdə həyata keçirilən fəaliyyətlər mahiyyəti və miqyası ilə əvvəlki illərdən xeyli fərqlənir. Bu çətin, lakin şərəfli dövrdə qarşıya qoyulan tapşırıqlar Azərbaycan Ordusu tərəfindən real vəziyyət nəzərə alınmaqla müvəffəqiyyətlə yerinə yetirilib.

Qeyd olunub ki, Azərbaycan Ordusunun müasir orduların modelinə uyğun yeni inkişaf mərhələsinə keçməsi üçün təşkilati-ştat strukturu təkmilləşdirilərək Quru Qoşunları Komandanlığı və yeni hərbi birlik yaradılıb. Azad edilmiş ərazilərdə dislokasiya olunmuş bölmələrin əməliyyat və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, həmçinin xüsusi şəraitdə döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə əməliyyat (komando) hərbi hissələri yaradılıb. Komandoların Türkiyədə müvafiq hazırlıq kurslarını keçməsi təmin edilib. Bu proses hazırda da davam etdirilir. Vətən müharibəsində əldə edilən təcrübələrin təhlili əsasında Türkiyə Silahlı Qüvvələrinin də modeli nəzərə alınaraq yeni döyüş təlimatları hazırlanır. Türkiyə Silahlı Qüvvələri zabitlərinin iştirakı ilə təşkil edilən bir çox kurslara xeyli sayda hərbi qulluqçunun cəlb edilməsi mütəxəssis hazırlığını da yeni səviyyəyə yüksəldib.

Bu il ərzində Azərbaycan Ordusunda bir sıra istiqamətlər üzrə tədbirlər icra edilib. Əsas diqqət daim döyüşə hazırolma və silahlı qarşıdurma kəskinləşdiyi zaman yarana biləcək vəziyyətdə adekvat cavab tədbirlərinin görülməsinə yönəldilib. Döyüş hazırlığının təşkili və keçirilməsində əsas məqsəd qoşunların döyüş təyinatlarına uyğun imkan və qabiliyyətlərinin artırılması, qarşılıqlı əlaqə və birgə fəaliyyətlərin uzlaşmasına, həmçinin komandirlərin və qərargah zabitlərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsidir.

Bildirilib ki, Azərbaycan Ordusunun bölmələri ilə cari il ərzində 900-dək komanda-qərargah, taktiki, taktiki-xüsusi və simulyasiya təlimləri yüksək texnologiyanın tətbiqi ilə həyata keçirilib. Bundan başqa, hərbi qulluqçularımız Rusiya, Qazaxıstan və İranda təşkil edilən beynəlxalq səviyyəli yarışlarda, eləcə də Türkiyə, Pakistan, Gürcüstan və ölkəmizdə keçirilən bir sıra müxtəlif təyinatlı beynəlxalq təlimlərdə iştirak ediblər.

Hərbi Təhsil sahəsində əsas diqqət xüsusi təyinatlı təhsil müəssisələrində və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsində təhsil və elmi fəaliyyətin təşkilinə, təlimatların və fənn proqramlarının təkmilləşdirilməsinə, eləcə də tədris prosesinin koordinasiyasına yönəldilib. "Milli təhlükəsizlik və hərbi elmlər" elm sahəsi üzrə 10 nəfərə müxtəlif elmi adlar verilib. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində hərbi mütəxəssislərin hazırlıq proqramı Türkiyə Respublikasının Milli Müdafiə Universitetinin hərbi məktəblərində tətbiq olunan proqramlara uyğunlaşdırılıb. 2021-ci tədris ilində beynəlxalq hərbi əməkdaşlıq sahəsində də planauyğun fəaliyyətlər icra edilib. Müdafiə Nazirliyinin rəhbərliyinin il ərzində xarici ölkələrə on səfəri təşkil edilib.

Cari il ərzində ölkə daxilində 27, xaricdə isə 178 beynəlxalq kursda şəxsi heyətin iştirakı təmin edilib. İkitərəfli əməkdaşlıq planları və NATO ilə Sülh Naminə Tərəfdaşlıq proqramı çərçivəsində xarici ölkələrdə və Azərbaycanda ümumilikdə 522 beynəlxalq tədbir keçirilib. NATO-nun Əfqanıstanda keçirdiyi "Qətiyyətli Dəstək" Missiyasında iştirak edən Azərbaycan Ordusunun sülhməramlı kontingentinin iştirakı bu ilin avqust ayında sona çatdırılıb.

2022-ci ildə də beynəlxalq hərbi əməkdaşlıq sahəsində bir sıra ölkələrlə təlim və treninqlərin keçirilməsi planlaşdırılır. Azərbaycan hərbçilərinin Türkiyə ilə ikitərəfli təlimlərdə, NATO proqramları çərçivəsində, o cümlədən "Beynəlxalq Ordu Oyunları"nda iştirakı da nəzərdə tutulur.

Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun maddi-texniki təminatı məsələləri də daim diqqət mərkəzindədir. Xüsusilə azad olunmuş ərazilərdə dislokasiya olunan hərbi hissələrin sosial-məişət şəraitinin yaxşılaşdırılması prioritet məsələlərdəndir.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçuların döyüş hazırlığını yoxlamaq və onların sosial-məişət şəraiti, eyni zamanda, aparılan tikinti-quruculuq işləri ilə tanış olmaq məqsədilə azad olunmuş ərazilərə cari il ərzində 30 dəfədən çox səfər edib.

Yüksək dağlıq ərazilərdə yerləşən bölmələrdə fasiləsiz elektrik enerjisi, isti və soyuq su xətləri çəkilib, 6 aylıq ərzaq, yanacaq ehtiyatı yaradılıb və qış mövsümü ilə əlaqədar bütün şəxsi heyət isti geyimlə təmin edilib.

Vətən müharibəsində sərf olunmuş raket və döyüş sursatlarının əvəzinə yeniləri alınaraq qoşunlara çatdırılıb, hazırda bütün birləşmə və hissələr döyüş sursatları ilə tam təmin olunub. Müdafiə Nazirliyinin hərbi hissələrində müxtəlif təyinatlı 400-ə yaxın yeni hərbi infrastruktur obyektinin istismara verilməsi ilə bölmələrdə qoşun xidmətinin və döyüş növbətçiliyinin təşkil edilməsi, o cümlədən şəxsi heyətin asudə vaxtının səmərəli keçirilməsi üçün münbit şərait yaradılıb. Bir sıra obyektlərin inşası hazırda davam etdirilir.

Azad olunan ərazilərdə minalardan təmizləmə işlərinin sürətləndirilməsi və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi istiqamətində aparılan işlər də davam etdirilir. 2021-ci il ərzində Mühəndis Qoşunları tərəfindən azad olunan ərazilərimizdə nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar minalardan və qar örtüyündən təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin döyüş mövqelərinə yeni təminat yolları çəkilir. Mina təmizlənmə işlərində əsas səylər yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib. 2021-ci il ərzində 13 min hektardan çox ərazi mina və partlamamış döyüş sursatlarından təmizlənib, 17 minədək mina və partlamamış döyüş sursatı aşkarlanaraq zərərsizləşdirilib.

Cari il ərzində Kəlbəcər rayonu istiqamətində 220, Laçın rayonu istiqamətində 330, Zülfüqarlı yaşayış məntəqəsi istiqamətində isə 120 kilometrdən artıq, ümumilikdə 700 kilometrə yaxın yeni yol çəkilib və hazırda bu sahədə işlər davam etdirilir.

Tibbi təminat tədbirlərinin icrası zamanı əsas diqqət şəxsi heyətin sağlamlığının qorunması və möhkəmləndirilməsi, müalicə-təxliyə işi, tibbi reabilitasiya, həmçinin qoşunlarda profilaktiki tədbirlərin həyata keçirilməsinə yönəldilib. Vətən müharibəsi zamanı yaralanmış hərbi qulluqçulardan bir qismi ixtisaslı müayinə və müalicə məqsədilə xarici ölkələrə göndərilib. Azərbaycan Ordusunda COVID-19 virusunun yayılmasının qarşısının alınması üçün cari ildə də Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi ilə koordinasiyalı iş təşkil edilib. Ordumuzda COVID-19 əleyhinə birinci doza üzrə 88 faiz, ikinci doza üzrə 72 faiz, üçüncü doza üzrə isə 8 faiz hərbi qulluqçuya peyvəndin vurulması təşkil edilib. Hesabat dövründə COVID-19-a hər bir yoluxma halı ilə əlaqədar dərhal epidemioloji müayinələr və dezinfeksiya işləri aparılıb, xəstəliklərin kontakt qrupları müəyyənləşdirilib, xəstələr izolyasiya olunaraq müalicəyə və tibbi müşahidəyə götürülüb. Şəxsi heyətin COVID-19 əleyhinə vaksinasiyası prosesinin sürətləndirilməsi məqsədilə səyyar peyvəndlənmə qrupları hərbi hissələrə ezam olunub.

Vurğulanıb ki, Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə Azərbaycan Ordusunun Vətən müharibəsində, həmçinin 2021-ci il noyabrın 16-da Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları ərazisində Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatlarında iştirak etmiş və fərqlənmiş bir qrup hərbi qulluqçusu 154 mindən artıq müxtəlif orden və medallarla təltif olunub. Cari ilin mayından başlayaraq 92 min orden və medal aidiyyəti üzrə təqdim olunub. Hazırda bu proses davam etdirilir. Bundan başqa, Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, Azərbaycan Ordusunun qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə, Silahlı Qüvvələrdə uzunmüddətli qüsursuz xidmətlərinə, eləcə də Azərbaycan Ordusu ilə uğurlu əməkdaşlığa görə ümumilikdə 4173 nəfər hərbi qulluqçu və digər şəxslər müvafiq medallarla təltif olunub.

Azərbaycan və Türkiyə arasında hərbi-mülki heyətin sosial və mədəni məqsədli mübadiləsinə dair protokola əsasən Türkiyədən dəvət edilmiş 25 psixoloq yerli psixoloqlarla birlikdə Azərbaycanın şəhər və rayonlarında Vətən müharibəsində yaralanmış hərbi qulluqçuları, şəhid və ya itkin düşmüş şəxslərin psixi sarsıntı keçirmiş ailə üzvlərini qəbul ediblər. İl ərzində ümumilikdə 2500 nəfərdən çox şəxsə kompleks dəstək göstərilib və onlarla reabilitasiya tədbirləri həyata keçirilib. Şəhid olmuş hərbi qulluqçuların əziz xatirəsinin yad edilməsi məqsədilə onların doğum və anım günlərində şəhidlərin ailə üzvləri, yaxınları və hərbi qulluqçuların iştirakı ilə 200-dək tədbir təşkil edilib. Rəsmi dövlət bayramlarında və əlamətdar günlərdə yerli icra orqanları və ictimaiyyət nümayəndələri ilə birlikdə şəhid ailələri ziyarət olunub.

A.Eyvazov qeyd edib ki, Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə Vətən müharibəsində əldə edilən Qələbədən sonra Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti daha da yüksəlib. Şəxsi heyətin psixoloji hazırlığı, maarifləndirilməsi, şəxsi heyətlə iş üzrə zabitlərin və psixoloqların peşəkarlıq səviyyəsinin artırılması məqsədilə Müdafiə Nazirliyinin, Respublika Hərbi Prokurorluğunun, Ombudsman Aparatının, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Qafqaz Müsəlmanları İdarəsinin regional bölmələrinin əməkdaşları tərəfindən hərbi hissələrdə görüşlər, seminarlar və təlim-metodiki məşğələlər keçirilib. Bundan başqa, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyi ilə birgə əməkdaşlıq planına əsasən "Beynəlxalq Humanitar Hüquq" mövzusunda seminarlar təşkil edilib.

İl ərzində Müdafiə Nazirliyinə ümumilikdə 50 mindən çox vətəndaş müraciəti daxil olub ki, onlardan 16 minə qədəri Müdafiə Nazirliyində fəaliyyət göstərən "Qaynar xətt" vasitəsilə qəbul edilib. Vətəndaş müraciətlərinin təxminən 70 faizi tam və ya qismən icra edilib, 20 faizədək müraciətlər müvafiq izahat verilməklə cavablandırılıb, qalanları isə aidiyyəti üzrə yönləndirilərək icraata alınıb. Azərbaycan Ordusunun yuxarıda qeyd olunan fəaliyyətləri ilə bağlı mətbuat xidməti tərəfindən 2021-ci il ərzində ümumilikdə Azərbaycan, rus və ingilis dillərində 1600-dən artıq məlumat, 6700-dən çox foto və 800-dən çox videomaterial hazırlanaraq nazirliyin rəsmi internet səhifəsi və sosial şəbəkə hesabları vasitəsilə ictimaiyyətə təqdim olunub. Müdafiə Nazirliyinin tabeliyindəki hərbi hissələrdə çəkilişlərlə bağlı il ərzində KİV nümayəndələrindən daxil olan 250-dən çox məktub icra olunub. Müxtəlif mövzularla əlaqədar KİV-dən daxil olan 143 sorğu cavablandırılıb. Bundan başqa, 712 nəfər yerli və xarici KİV nümayəndəsinin iştirakı ilə Tovuz, Tərtər, Füzuli, Xocavənd, Ağdam, Qubadlı, Kəlbəcər, Laçın rayonlarında, Hərbi Dəniz Qüvvələri, Raket və Artilleriya Qoşunları, Mühəndis Qoşunları, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində 33 mediatur təşkil olunub.

# Yeni Azərbaycan Partiyası İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib

Dekabrın 29-da Yeni Azərbaycan Partiyası İdarə Heyətinin videokonfrans formatında növbəti iclası keçirilib.



YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, İdarə Heyətinin iclasının müzakirəsinə "Yeni Azərbaycan Partiyasının Proqramının təsdiq edilməsi" və "Yeni Azərbaycan Partiyasında üzvlük haqlarının məbləği və ödənilməsi qaydasının təsdiq edilməsi" məsələləri çıxarılıb.

Birinci məsələ barədə məlumat verən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, VII qurultayda partiyamızın Sədri İlham Əliyev Yeni Azərbaycan Partiyasının yeni proqramının hazırlanması barədə tapşırıq və tövsiyələrini verib. Bu tövsiyələrdən irəli gələrək yaradılmış müvafiq işçi qrupu tərəfindən proqram üzərində işlərə başlanılmış, ötən müddət ərzində sənədin layihəsi işçi qaydada dəfələrlə geniş tərkibdə müzakirə olunmuş, partiyamızın Sədri İlham Əliyevin irad və tapşırıqları əsasında təkmilləşdirilmişdir.

Ümummilli Liderimiz Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının böyük inkişaf yolu keçdiyini deyən Tahir Budaqov xatırladıb ki, partiyamızın fəaliyyəti dövründə qəbul olunmuş proqramlar uğurla icra olunub. Diqqətə çatdırılıb ki, 1992-ci ildə təsis konfransında qəbul olunmuş və 1999-cu ildə keçirilmiş I qurultayda yenilənmiş partiyamızın yaradıcısı Heydər Əliyevin müəllifi olduğu proqramda ideoloji prinsiplər, o cümlədən sosial-iqtisadi tərəqqi, əhalinin rifah halının yüksəldilməsi, sosial ədalətin bərqərar olunması, vətəndaş həmrəyliyi, Azərbaycanın beynəlxalq müstəvidə mövqelərinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin edilməsi əsas hədəflər sırasında olmuşdur. Ötən illər ərzində qarşıya qoyulmuş bu vəzifələr yüksək səviyyədə icra edilib.

YAP Mərkəzi Aparatının rəhbəri qeyd edib ki, partiyamızın proqramı Azərbaycan xalqını və dövlətini qurtuluşdan tərəqqiyə, tərəqqidən zəfərə çatdırıb. Yeni proqram isə, əsasında Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi təməl prinsipləri dayanmaqla, Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyət istiqamətlərini müəyyən edən sənəddir. 5 fəsildən ibarət olan proqramda Cənubi Qafqazda yeni reallıqlar yaradan Azərbaycanın qarşısında dayanan yeni hədəflər əksini tapmışdır.

Müzakirələr zamanı çıxış edən YAP İdarə Heyətinin üzvləri Mübariz Qurbanlı, Musa Quliyev və Hikmət Babaoğlu partiyanın yeni proqramının əhəmiyyətini vurğulayaraq nəzərdə tutulan gələcək hədəflərində partiyamızın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçiriləcəyinə əminliklərini ifadə ediblər.

Müzakirələrdən sonra Yeni Azərbaycan Partiyasının Proqramı yekdilliklə təsdiq edilib.

Daha sonra iclasda "Yeni Azərbaycan Partiyasında üzvlük haqlarının məbləği və ödənilməsi qaydasının təsdiq edilməsi" məsələsi müzakirə olunub. Bu barədə məlumat verən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, sənəd Yeni Azərbaycan Partiyasının Nizamnaməsinin 5.5-ci bəndinin icrasını təmin etmək məqsədilə hazırlanıb.

Müzakirələrdə YAP İdarə Heyətinin üzvləri Cavid Osmanov, Bayram Aslanov və Elmar Qasımov çıxış etdikdən sonra sənəd yekdilliklə təsdiq edilib.

# Azərbaycan ilə Türkiyə arasında su təsərrüfatı və daşqınlar üzrə idarəetmənin təkmilləşdirilməsi sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikası Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin Su Ehtiyatlarının İdarə Edilməsi Baş İdarəsinin direktor müavini, Su Şurasının Baş katibi Mustafa Uzunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, görüşdə su ehtiyatlarından səmərəli istifadə sahəsində mövcud vəziyyət, su təsərrüfatı və daşqınlar üzrə idarəetmənin təkmilləşdirilməsi, bu sahədə iki ölkə arasındakı birgə əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, səfər çərçivəsində Türkiyə Respublikasının nümayəndə heyəti ölkəmizdə yaradılan su ehtiyatlarından səmərəli istifadə üzrə komissiyada təmsil olunan digər qurumlar ilə görüşlər keçirəcək və işğaldan azad olunmuş ərazilərə səfər edəcək.

# Yeni Azərbaycan Partiyası Təftiş Komissiyasının növbəti iclası keçirilib

Dekabrın 29-da Yeni Azərbaycan Partiyası (YAP) Təftiş Komissiyasının videokonfrans formatında növbəti iclası keçirilib.

YAP-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iclasın gündəliyi barədə məlumat verib. Bildirib ki, iclasda YAP Təftiş Komissiyasının 2022-ci il üçün İş Planının təsdiqi müzakirə olunacaq, cari məsələlərə baxılacaq.

İclasda YAP Təftiş Komissiyasının üzvləri - Aydın Hüseynov, Məlahət İbrahimqızı, Naqif Həmzəyev, Səməd Seyidov, Musa Musayev, Cavanşir Paşazadə və Elman Nəsirov İş Planına münasibət bildiriblər.

Sonda YAP Təftiş Komissiyasının 2022-ci il üçün İş Planı təsdiq olunub.

# Azərbaycan və Türkiyənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı məsələləri müzakirə olunub

Dekabrın 29-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının ölkəmizdəki səfiri Cahit Bağçı ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, tərəflər iki ölkə arasında ən yüksək səviyyədə inkişaf edən qarşılıqlı əməkdaşlıq və müttəfiqlik münasibətlərinin gündəliyi üzrə fikir mübadiləsi aparıblar.

2021-ci ilin hər iki dövlət üçün həm ikitərəfli münasibətlərin inkişafı baxımından, həm də regional və qlobal müstəvilərdə olduqca zəngin və diplomatiya ağırlıqlı bir il olduğu qeyd edilib, qarşıdan gələn ildə bu münasibətlərin daha da irəli aparılması üçün səylərin səfərbər ediləcəyi vurğulanıb.

Səfir Cahit Bağçı gələn ilin mart ayında təşkil olunacaq Antalya Diplomatiya Forumuna dəvət məktubunu nazir Ceyhun Bayramova təqdim edib. Nazir Ceyhun Bayramov dəvətə görə təşəkkür edərək birinci forumun olduqca uğurlu platforma olduğunu bildirib və qarşıdan gələn tədbirdə məmnuniyyətlə iştirak edəcəyini söyləyib. Görüşdə tərəflər Azərbaycan və Türkiyənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı məsələlərini, həmçinin hər iki dövlətin təşəbbüsü və birgə iştirakı ilə həyata keçirilən layihələri, eləcə də 3+3 formatında bu yaxınlarda ilk görüşü baş tutan regional məsləhətləşmələr mexanizmi, üçtərəfli və dördtərəfli əməkdaşlıq platformalarının perspektivlərini müzakirə ediblər.

Tərəflər, qarşıdan gələn 2022-ci il üzrə ən xoş arzularını bölüşüblər.



# Azərbaycan 2022-ci ilə yeni sosial islahatlarla daxil olur

Əvvəli 1-ci səh.

19 pilləli vahid tarif cədvəli üzrə əməkhaqqı müəyyən olunan sahələrdə də bu cədvəlin ilk pilləsindəki əməkhaqqı 300 manata çatmaqla digər pillələrdəki əməkhaqqı göstəricilərinin də artmasına səbəb olacaq. Ümumilikdə 800 min işçi (dövlət sektoru üzrə 400 min, özəl sektor üzrə 400 min nəfər) bu artımdan faydalanacaq, onların gəlirləri artacaq, maaşları orta hesabla 80 manat çox olacaq.

Minimum əməkhaqqı 300 manata çatmaqla bir tərəfdən gələn il üçün yaşayış minimumunu (210 manat) 43 faiz üstələyəcək, digər tərəfdən xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbəti göstəricisi növbəti dəfə yüksələcək. Xatırladaq ki, bu nisbət 2018-ci ildə 26,5, 2019-cu ildə 33,3, 2020-ci ildə 38 faiz olmuşdur. 2022-ci ildə isə təqribən 40-41 faiz səviyyəsində olacaq. Yəni bu istiqamətdə də əməkhaqqı sisteminin qabaqcıl beynəlxalq normalara uyğunlaşdırılmasında irəliyə doğru yeni addım atılmış olur.

2019-cu ilin əvvəlində 130 manat təşkil edən minimum əməkhaqqı son 3 ildə 2,3 dəfə artırılıb ki, bu da çox ciddi irəliləyişdir. Yeni islahat mərhələsində dövlət ümumi təhsil müəssisələrindəki müəllimlərin maaşları orta hesabla 20, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşları orta hesabla 40 faiz artıb. Dövlət peşə təhsili müəssisələri müəllimlərinin, idarəetmə, təlim işçilərinin maaşlarında orta hesabla 20, gənclərin çağırışaqədərki hazırlığı rəhbərlərinin maaşlarında orta hesabla 40, fiziki tərbiyə rəhbərlərinin maaşlarında orta hesabla 30, digər bir sıra sahələrdə əməkhaqlarında orta hesabla 20 faiz artım olacaq. Bir sıra qurumların - həqiqi hərbi xidmət hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarına həmin maaşın 20 faizi məbləğində əlavə müəyyən edilib, dövlət qulluqçusu olmayan mülki işçilərin aylıq vəzifə (tarif) maaşları orta hesabla 20 faiz artırılıb.

2018-2021-ci illərdə ölkəmizdə orta aylıq əməkhaqqında 37, median əməkhaqqında 74, əmək müqavilələrinin sayında 30 faiz və ya 400 minə yaxın artım baş verib. Bu müsbət proseslər əməkhaqqı fondunda da iki dəfəyə yaxın artımı təmin edib. Yeni artımlarla gələn il əməkhaqqı fondu daha da artacaq.

## Müavinət və təqaüdlər növbəti dəfə artırıldı

Prezident İlham Əliyevin yeni fərman və sərəncamları ilə 732 min şəxsi, o cümlədən 132 min doktorant və tələbəni əhatə edən müavinət və təqaüdlər növbəti dəfə artırılıb. Əlilliyə görə müavinətlər I dərəcə üzrə 150 manatdan 220, II dərəcə üzrə 130 manatdan 180, III dərəcə üzrə 110 manatdan 120 manata çatdırılıb. Həmin müavinətlərdə son üç ildə I dərəcə üzrə 2,7, II dərəcə üzrə 3, III dərəcə üzrə 2,3 dəfə artım baş verib.

Müavinətlə yanaşı, ümumi səbəbdən I dərəcə əlilliyi olanlar Prezidentin aylıq təqaüdü (130 manat) ilə də təmin edilirlər. Müharibə, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və digər xüsusi səbəblərlə əlaqədar əlilliyi olanlar bu müavinətlə və ya pensiya ilə yanaşı, Prezidentin aylıq təqaüdü (I dərəcə üçün 400, II dərəcə üçün 350, III dərəcə üçün 300 manat) ilə təmin olunurlar ki, həmin təqaüdlər də 2021-ci ilin əvvəlindən növbəti dəfə olmaqla orta hesabla 50 faiz artırılıb.

2019-cu ildə I dərəcə əlilliyi olan şəxslərə qulluğa görə Prezidentin aylıq təqaüdü təsis olunub ki, bu təqaüd də yeni islahatla 50 manatdan 80 manata çatdırılıb, yəni 60 faiz artırılıb. Beləliklə, müharibə və digər xüsusi səbəblərlə əlaqədar əlilliyi olanlar əgər əlilliyə görə müavinət və təqaüd alırlarsa, yeni ilin əvvəlindən onlara I dərəcə üzrə 700, II dərəcə üzrə 530, III dərəcə üzrə 420 manat ödəniləcək. Yeni onlara yönələn sosial ödənişlər 2019-cu ilin əvvəlinə nisbətən müvafiq olaraq 2,5, 2,2 dəfə və 2,2 dəfə çoxalıb. Əlilliyə görə pensiya və təqaüd alırlarsa, o zaman 2019-cu illə müqayisədə dərəcələr üzrə müvafiq olaraq 72, 81 və 97 faiz çox olmaqla gələn aydan orta hesabla aylıq I dərəcə üzrə 915, II dərəcə üzrə 845, III dərəcə üzrə 610 manat alacaqlar. Ümumi səbəbdən əlilliyi olan şəxslər üzrə sosial ödənişlərdə isə son 3 ildə dərəcələr üzrə müvafiq olaraq 50, 59 və 112 faiz artım olub.

Yeni fərman və sərəncamlarla sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara müavinət 150 manatdan 200 manata, onlara qulluğa görə Prezidentin aylıq təqaüdü 60 faiz artırılaraq 50 manatdan 80 manata çatdırılıb. 2019-cu ilin əvvəlində həmin uşaqlara yalnız müavinət kimi cəmi 82 manat ödənilirdisə, 2019-cu ildəki islahatlar nəticəsində bu məbləğ müavinət və təqaüd formasında 200 manat oldu. Yeni islahatlarla isə gələn aydan 280 manat təşkil edəcək. Yəni həmin uşaqlar üzrə sosial ödənişdə son üç ildə 3,4 dəfə artım baş verib.

Eləcə də yeni fərman və sərəncamlarla:

- Yaşa görə müavinət 130 manatdan 180 manata çatdırılıb və bununla üç il əvvələ (73 manat) nisbətən 2,5 dəfə artırılıb;
- Ailə başçısını itirməyə görə hər ailə üzvü üçün müavinət 80 manatdan 100 manata çatdırılıb və üç il əvvələ (68 manat) nisbətən 47 faiz artırılıb;
- Müddətli hərbi xidmətdə olanların uşaqlarına müavinət 100 manatdan 120 manata çatdırılıb və bununla üç il əvvələ (68 manat) nisbətən 76,5 faiz artırılıb;
- Uşaqların qəyyumları üçün müavinət 100 manatdan 120 manata çatdırılıb və bununla üç il əvvələ (61 manat) nisbətən təqribən 2 dəfə artırılıb;
- Beşdən çox uşağı olan qadınlara hər uşağa görə aylıq müavinət 55 manatdan 70 manata çatdırılıb və bununla üç il əvvələ (33 manat) nisbətən 2,1 dəfə artırılıb;
- Bir yaşınadək uşağı olan aztəminatlı (ünvanlı sosial yardım təyin edilən) ailələrə hər uşağa görə müavinət 55 manatdan 70 manata çatdırılıb. Beləliklə, son üç ildə 55,6 faiz artırılıb;
- Övladlığa götürülən uşağa, o cümlədən sağlamlıq imkanları məhdud uşağa görə müavinət 2021-ci ilin əvvəlindən təsis olunub. Yeni fərmanla bu müavinət də 25 faiz artırılaraq hər uşağa görə 160 manatdan 200 manata, sağlamlıq imkanları məhdud hər uşağa görə isə 480 manatdan 600 manata çatdırılıb;
- Uşağın anadan olmasına görə birdəfəlik müavinət 200 manatdan 300 manata çatdırılıb və bununla üç il əvvələ nisbətən (109 manat) 2,8 dəfə artırılıb;
- Dəfn üçün birdəfəlik müavinət 300 manatdan 350 manata çatdırılıb və bununla üç il əvvələ (146 manat) nisbətən 2,4 dəfə artırılıb;
- Azı 25 il pedaqoji staja malik, işləməyən pensiyaçı elmlər doktorları və fəlsəfə doktorlarına 2021-ci il yanvarın 1-dən Prezidentin aylıq təqaüdü təsis olunub. Yeni fərmanla bu təqaüd elmlər doktorları üçün 50 faiz artırılaraq 200 manatdan 300 manata, fəlsəfə doktorları üçün 67 faiz artırılaraq 120 manatdan 200 manata çatdırılıb;
- Fəxri adlara görə aylıq təqaüdlər də 20 faiz artımla "Xalq" fəxri adına görə 150 manatdan 180 manata, "Əməkdar" fəxri adına görə 100 manatdan 120 manata çatdırılıb;
- Doktorant və tələbələrin təqaüdlərinin də 20 faiz artırılması təmin edilib.

Göründüyü kimi, son üç ildə bu ödənişlərdə baş verən artımlar hətta bəzi hallarda 3 dəfəyə yaxındır.

## Pensiyalarda ciddi artım dinamikası ardıcıl xarakter alıb

Yeni sosial islahat paketinin tərkib hissəsi kimi, yeni qanunla minimum aylıq əmək pensiyasının məbləği 2022-ci ilin əvvəlindən 20 faiz artımla 200 manatdan 240 manata çatdırılır. Bu artım 65 min insanı əhatə edəcək və bunun üçün illik əlavə 13,2 milyon manat ayrılıb.










Ümumilikdə, 2019-cu ildə reallaşan sosial islahatların nəticələrindən biri kimi ölkəmizdə minimum pensiya 82 faiz artırılaraq 200 manata çatdırılmışdı. 2022-ci ilin əvvəlindən isə daha 20 faiz artırılır. Beləliklə, son üç ildə minimum pensiyalarda 2,2 dəfə artım baş verib.

Bildiyimiz kimi, 2022-ci il üçün yaşayış minimumu ölkə üzrə 210, əmək qabiliyyətli əhali üçün 220, pensiyaçılar üçün 176, uşaqlar üçün 193 manat məbləğində müəyyən edilib. Beləliklə, 2022-ci il üçün minimum pensiya məbləği pensiyaçılar üçün yaşayış minimumunu 36,4 faiz üstələyəcək.

Minimum pensiya kimi, orta aylıq pensiya da mütəmadi artmaqda davam edir. Son üç ildə orta aylıq pensiya 60 faiz artaraq 331, o cümlədən yaşa görə orta aylıq pensiya 358 manata çatıb. Onu da qeyd edək ki, 2020-2021-ci illərdə pensiyaların indeksasiya üzrə əvvəlki dövrlərlə müqayisədə dəfələrlə yüksək artımı baş verib.

Əməkhaqqında ciddi artımlara uyğun olaraq 2020-ci ilin əvvəlindən pensiyaların indeksləşdirilərək 16,6, 2021-ci ilin əvvəlindən isə 11,4 faiz artırılması təmin olundu.

2019-cu ilin əvvəlindən pensiyaların, sonralar müavinət və təqaüdlərin elektron qaydada təyinatı sistemləri fəaliyyətə başlayıb. Cari ilin 1 dekabr tarixinə 254 min, o cümlədən bu ilin 11 ayında 128,3 min pensiya, müavinət, təqaüd təyinatı e-qaydada həyata keçirilib.

Ünvanlı sosial yardımın hər ailəyə düşən orta aylıq məbləği də son 4 ildə 88 faiz artaraq 280 manatı ötüb. Prezident İlham Əliyevin imzaladığı yeni "Aztəminatlı ailələrə birdəfəlik yardım göstərilməsi haqqında" sərəncam həmin ailələrin sosial müdafiəsinə xüsusi qayğının daha bir təzahürüdür. Sərəncama əsasən, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 2021-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 100 manat məbləğində birdəfəlik yardım ödənilməsi nəzərdə tutulub və bunun üçün 4,8 milyon manat ayrılıb. Sərəncam hazırda ünvanlı dövlət sosial yardımı alan, 200 mindən çox ailə üzvü olan 47 min ailəni əhatə edir.

Ümumilikdə isə 2018-2021-ci illərdə sosial təminat (pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım) üzrə illik xərclər 2,4 mlrd. manat və ya 60 faiz artaraq 6,4 mlrd. manata çatıb. 2022-ci ildə isə yeni artımlar nəticəsində sosial ödənişlərə yönəldilən vəsaitlərdə də artım olacaq.

Onu da bildirim ki, əməkhaqqı və digər sosial ödənişlərin artımı üçün 2019-cu ildəki islahatlar üzrə illik əlavə 4 milyard manat, 2020-ci ildəki islahatlar üzrə illik əlavə 600 milyon manat, builki islahatlar üzrə isə illik əlavə 1,5 milyard manat ayrılıb. Beləliklə, son üç ildə əməkhaqqı və digər sosial ödənişlərin artırılması üçün yalnız dövlət vəsaitləri hesabına əlavə olaraq ayrılan illik məbləğ 6 milyard manatdır.

## Qarabağ müharibəsi əlillərinə xüsusi qayğıkeşliyin daha bir təzahürü

Hələ 2019-2020-ci illərdə Prezident İlham Əliyevin müvafiq fərmanları ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 1997-ci il avqustun 2-dək Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə verilməsi proqramını icra etmişdir. Proqram üzrə 12,3 minə yaxın şəhidin 18 mindən çox vərəsəsi birdəfəlik ödəmə ilə təmin olunmuşdur.

Yeni sosial islahat paketinin bir istiqaməti də Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik sığorta ödənişi verilməsini nəzərdə tutur. Bu məqsədlə dövlət başçısının imzaladığı yeni - 23 dekabr 2021-ci il tarixli fərmanla 1997-ci il avqustun 2-dək olan xidmət dövründə ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar, hərbi xidmət vəzifələrini yerinə yetirərkən və ya hərbi xidmət dövründə xəsarət alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçular və daxili işlər orqanları əməkdaşları, vəfat etmiş şəxslərin ailə üzvləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən birdəfəlik ödəmə (I dərəcə əlilliyə görə 8800 manat, II dərəcə əlilliyə görə 6600 manat, III dərəcə əlilliyə görə 4400 manat) ilə təmin olunacaq. Həmin kateqoriyaya aid 17-20 min şəxs birdəfəlik ödəmə ilə təmin ediləcək və bunun üçün ilkin olaraq 50 milyon manat vəsait ayrılıb. Ödənişlər onların bank hesabına köçürüləcək.

## Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" adı, vəsiqəsi və Prezidentin təqaüdü veriləcək

Yeni sosial islahatlar paketinin bir istiqaməti də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun möhtəşəm Zəfərlə başa vurduğu Vətən müharibəsinin iştirakçıları ilə bağlıdır. Dövlət başçısının imzaladığı yeni sərəncamla onlara yeni ildən "Müharibə veteranı" adı və "Azərbaycan Respublikasının Müharibə Veteranı" vəsiqəsi veriləcək.

"Müharibə veteranı" adı və vəsiqəsi 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək olan dövr ərzində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə veriləcək. Onların siyahısı xidmət keçdikləri aidiyyəti qurumlar tərəfindən müəyyən edilib, Nazirlər Kabineti ilə razılaşdırılacaq. Həmin qurumlar razılaşdırılmış siyahı nəzərə alınmaqla "Müharibə veteranı" adı və vəsiqəsi verdikləri şəxslərə dair məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Zəfər" altsisteminə daxil edəcək. Nazirlik isə "Müharibə veteranı" adı və vəsiqəsi verilmiş və "Zəfər" altsisteminə daxil edilmiş şəxslərə proaktiv qaydada 2022-ci il yanvarın 1-dən Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdünü (80 manat) təyin edəcək.

## Postmüharibə dövrü üzrə sosial dəstək tədbirləri getdikcə daha da genişlənir

Vətən müharibəsindən sonra dövlət başçısının tapşırığına əsasən, şəhid ailələri üzvləri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkən şəxslər ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aparılan genişmiqyaslı sosial dəstək işləri artıq 41 min şəxsi əhatə edib, onlara 47 min xidmət göstərilib. Belə ki, Vətən müharibəsi şəhidlərinin ailə üzvlərindən və Vətən müharibəsi əlillərindən ibarət 10351 şəxsə 20644 sosial ödəniş (Prezidentin aylıq təqaüdü, pensiya və ya müavinət) təyin edilib. Vətən müharibəsində yaralanmış hərbi qulluqçulardan artıq 2500 şəxsə ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik və müvafiq sosial ödənişlər təyin olunub.

Dövlət başçısının fərmanları ilə Prezidentin aylıq təqaüdü növbəti dəfə olmaqla 2021-ci ilin əvvəlindən əhəmiyyətli şəkildə artırılıb, yəni şəhid ailəsi üçün 300 manatdan 500, müharibə əlilləri üçün I dərəcə üzrə 250 manatdan 400, II dərəcə üzrə 230 manatdan 350, III dərəcə üzrə 210 manatdan 300, Azərbaycanın Milli Qəhrəmanları üçün 1500 manatdan 1800 manata çatdırılıb. Eyni zamanda "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə 2000 manat məbləğində Prezidentin aylıq təqaüdü təsis edilib.

Şəhid ailələrinin, müharibə əlillərinin mənzil və fərdi evlə təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib. Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli sərəncamı ilə 2021-2025-ci illərdə onların mərhələli şəkildə 11 min mənzil və ya fərdi evlərlə təmin olunması nəzərdə tutulub. 2021-ci il üzrə də 2018-ci ilə nisbətən 5 dəfə çox olmaqla 3 minədək mənzilin şəhid ailələri və müharibə əlillərinə (o cümlədən 44 günlük Vətən müharibəsi zamanı şəhid olanların ailələrinə və həmin müharibənin əlillərinə) verilməsi proqramının icrası artıq uğurla yekunlaşır. Ümumən ötən dövrdə 12,1 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. 2021-ci ilin ötən dövründə daha 164 müharibə əlili, ümumilikdə ötən dövrdə 7400 müharibə əlili nazirlik tərəfindən avtomobillə təmin olunub.

Şəhid ailələri üzvləri, müharibə iştirakçıları, erməni terrorundan zərər çəkən şəxslər daxil olmaqla 10 minədək şəxsin məşğulluğuna dəstək göstərilib, o cümlədən 6 minədək şəxs özünüməşğulluq proqramına cəlb edilib, 4 minədək şəxs işlə təmin olunub. Bu ilin 10 iyunundan başlanan "Məşğulluq marafonu"na artıq 600-dən çox işəgötürən qoşularaq 3900 vakansiya təqdim edib. Həmin vakansiyalar üzrə artıq 1400-dən çox şəhid ailəsi üzvü və müharibə iştirakçısı işlə təmin olunub. 3 min ailə üzrə 10 minədək şəxsə sosial-psixoloji dəstək göstərilib.

Reabilitasiya müəssisələrində 1300 müharibə əlili reabilitasiya xidmətləri, Qarabağ müharibəsi əlillərindən ibarət 1200 şəxs 12600 reabilitasiya vasitəsi, o cümlədən əsasən müharibə əlillərindən ibarət 1000 şəxs mühərrikli təkərli oturacaqla, 183 müharibə əlili 192 ədəd yüksək texnologiyalı, müasir 4-cü nəsil protezlə təmin edilib.

Prezident İlham Əliyevin 25 iyun 2021-ci il tarixli fərmanı ilə vahid əlaqələndirmə mərkəzləri yaradılıb ki, bu mərkəzlərdə şəhid ailələrinə, müharibədə yaralanmış qazilərə xidmətlər "bir pəncərə"dən, operativ, şəffaf, vətəndaş rahatlığı və məmnunluğu prinsipi əsasında təqdim edilir.

Mərkəzlərdə mərkəzi icra hakimiyyəti orqanları (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Müdafiə Nazirliyi, Səhiyyə Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Dövlət Sığorta Kommersiya Şirkəti) və aidiyyəti şəhər və rayonların icra hakimiyyətləri tərəfindən 26 istiqamətdə xidmətlər təqdim edilir.

Bu il avqustun 23-dən Bakıdakı DOST mərkəzlərində, noyabrın əvvəlindən Abşerondakı DOST mərkəzində, dekabrın 24-dən isə 19 rayon və şəhəri də əhatə etməklə Gəncə şəhərində, Masallı və Ucar rayonlarında da regional vahid əlaqələndirmə mərkəzləri fəaliyyət göstərir. Ötən dövrdə vahid əlaqələndirmə mərkəzlərində 6,1 min şəxsə xidmətlər göstərilib.

## Yeni ilə yeni sosial hədəflərlə

2022-ci il üçün əsas hədəflərdən biri - qeyd edilən növbəti islahat paketi üzrə gələn ilin əvvəlindən 2,1 milyon insanın sosial ödənişlərində artımların təmin edilməsidir. Həmçinin ilin əvvəlindən indeksasiya əsasında pensiyaların artırılması da gözlənilir.

Bu ilin 11 ayında məşğulluq orqanları tərəfindən daha 74,2 min nəfər işlə təmin edildi, həmçinin 56 min insan ictimai işlər proqramı çərçivəsində fəaliyyət göstərdi. Özünüməşğulluq proqramına 16 min şəxsin cəlb edilməsi işləri aparıldı, yəni özünüməşğulluq proqramının icrasına başlandığı 2017-ci illə muqayisədə bu proqram 2021-ci ildə 13,6 dəfə genişləndi.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan, nazirliklə BMT-nin İnkişaf Proqramının birgə icra etdiyi layihə üzrə də 500 nəfər əlilliyi olan şəxsin dayanıqlı biznes qurmalarına dəstək verilir.

Nazirlik və Dünya Bankının birgə icra etdiyi "Azərbaycanda məşğulluğa dəstək" layihəsi iştirakçılarına isə aktivlərin təqdim edilməsinə artıq başlanıb. Layihə ölkə üzrə 22 min işsiz şəxsin özünüməşğulluq proqramı üzrə kiçik biznesə çıxışını təmin edəcək. Onlardan artıq 6003 nəfər qeydiyyata alınaraq təlimlərə cəlb olunub.

Gələn il aktiv məşğulluq proqramları daha da genişlənəcək. Bu günlərdə nazirliyin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin Bakı Peşə Hazırlığı Mərkəzi ISO beynəlxalq sertifikatı aldı və ölkəmizdə ilk ISO sertifikatlı peşə hazırlığı müəssisəsi oldu. Artıq yeni ildə bu standart üzrə peşə hazırlığı təşkil ediləcək. Bu da əmək bazarına daha ixtisaslı işçi qüvvəsi gətirməyə imkan verəcək.

Əsas prioritetlərdən biri həm məşğulluq xidmətlərinin keyfiyyətinin, həm də əhatə dairəsinin genişləndirilməsidir. Vətəndaşların daha çox aktiv dəstək proqramları ilə əhatə olunması, əmək bazarına çıxış imkanlarının artırılmasıdır.

Əlilliyi olan insanların cəmiyyətə inteqrasiyası imkanlarının artırılması da hədəflərdən biridir. 2021-ci ilin oktyabr ayında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışı bu sahədə çox böyük dəstəkdir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan bu mərkəz əlilliyi olan şəxslər və digər həssas qruplar üçün Cənubi Qafqazda kifayət qədər əhatəli, çoxşaxəli fəaliyyət istiqamətlərini özündə birləşdirən ilk ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanıdır. Mərkəzdə eyni anda 5 yaşdan yuxarı 100 nəfərin müxtəlif peşə-yaradıcılıq növləri üzrə bacarıqlarının inkişafı üçün tədris-təlim işləri aparılması imkanı mövcuddur.

Ümumilikdə, əmək, məşğulluq, sosial təminat, sosial xidmət, əlillik, reabilitasiya, övladlığagötürmə və s. sahələrdə e-texnologiyaların geniş tətbiqi təmin edilib. Dövlət başçısının 5 sentyabr 2018-ci il tarixli fərmanı ilə yaradılan "e-sosial.az" portalına 2021-ci ilin 11 ayında 8,7 milyon müraciət qeydə alınıb. Nazirliyin e-xidmətlərinə isə 11 ayda 14 milyon müraciət olub. Bu gün nazirlik üzrə 173 xidmətdən 105-i e-platforma üzərindən göstərilir. Həmçinin 44 e-xidmət vasitəsilə proaktiv qaydada xidmətlər göstərir. Gələn il elektronlaşdırma proqramı daha da genişlənəcək, nazirlik üzrə daha 56 xidmətin elektronlaşması təmin ediləcək. Həssas əhali qrupları ilə bağlı sosial xidmət layihələri də daha geniş miqyasda davam edəcək.

Prezident İlham Əliyevin 9 avqust 2018-ci il tarixli fərmanı ilə nazirliyin tabeliyində 2019-cu ilin may ayında DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyi və bundan sonra 5 DOST mərkəzi açılıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST konsepsiyası dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ, tam şəffaf və müasir, innovativ əsasda, nəzakətli şəkildə təqdim edilməsinə imkan verib. Ötən dövrdə DOST xidmətlərindən faydalanan vətəndaşların sayı 650 mini ötür və bu xidmətlərdən məmnunluq səviyyəsi 2021-ci ildə 98 faizdir.

DOST xidmətlərinin sayı 2019-cu ilin may ayından bəri 30 faizə yaxın genişlənərək 155-ə çatıb. "Virtual DOST mərkəzi" platforması da hazırlanır və gələn il istifadəyə veriləcək ki, bu da ölkənin istənilən yerindən DOST xidmətləri üzrə müraciət etmək imkanı verəcək. Bu gün 15-dək ölkə Azərbaycanın sosial sahədə mühüm innovativ yeniliyi olan "DOST" təcrübəsini özündə tətbiq etməyə maraq göstərir.

Yeni ildə əsas hədəflərdən biri də Bakıda və respublikanın regionlarında yeni DOST mərkəzlərinin açılmasıdır. Açılmış 5 DOST mərkəzindən 4-ü Bakıdadır, 1-isə Abşeron rayonunda. Bakıdakı DOST mərkəzlərinə paytaxtın hansı rayonunda qeydiyyatda olmasından asılı olmayaraq istənilən Bakı sakini müraciət edə bilər.

Yeni iki il ərzində bütün Bakı şəhəri və hətta Aberon rayonu DOST xidmətləri ilə əhatə edilib. Regionlarda da bu sürətlə DOST xidmətləri şəbəkəsinin qurulması əsas hədəflərdəndir.

Son üç ildə nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib, Qəbələdə yeni Uşaq Reabilitasiya Mərkəzi açılıb. Gələn il Şəmkirdə də Uşaq Reabilitasiya Mərkəzi açılacaq. Artıq reabilitasiya infrastrukturu, potensial xeyli güclənib və bu əsasda gələn il reabilitasiya müəssisələrində ambulator və stasionar şəkildə reabilitasiya xidmətləri göstəriləcək şəxslərin sayının 25-30 minə çatdırılması hədəflənir. Halbuki iki il əvvəl bu göstərici maksimum 10 min nəfər idi.

Həmçinin gələn il günərzi və icma əsaslı reabilitasiya mərkəzləri şəbəkəsi genişlənəcək, bununla bağlı təqribən 150-200 sosial xidmət layihəsinin reallaşdırılması nəzərdə tutulur. Xidmət sahələrində daimi təkmilləşdirmələr də aparılacaq. Ümumilikdə nazirliyin hər bir fəaliyyət sahəsi üzrə strateji yol xəritələri mövcuddur.

*Prezident İlham Əliyevin sosial sahəyə böyük qayğıkeşliyi ölkəmizdə sosial inkişaf istiqamətində mühüm nailiyyətlərin əldə olunmasına imkan verib və qarşıdakı dövrdə bu uğurların sırası daha da genişlənəcək.*

**Sahil BABAYEV,**
***əmək və əhalinin sosial müdafiəsi naziri***

# Xarici İşlər Nazirliyi 2021-ci ilin yekunlarına dair mətbuat buraxılışını təqdim edib

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi 2021-ci ilin yekunlarına dair mətbuat buraxılışını təqdim edib. AZƏRTAC XİN-in Mətbuat xidmətinə istinadla buraxılışı təqdim edir:**

2021-ci il ərzində Azərbaycan Respublikasının xarici siyasəti ölkənin milli təhlükəsizliyi və sosial-iqtisadi inkişafına töhfə vermək məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi istiqamətlərə uyğun olaraq həyata keçirilmişdir. Ölkənin müstəqil, açıq, praqmatik və milli maraqlara söykənən xarici siyasət kursu il ərzində uğurla davam etdirilmişdir.

Dövlət başçımızın vurğuladığı kimi, bütün ölkələrlə bərabərhüquqlu, qarşılıqlı hörmət və etimad əsasında münasibətlərin qurulması xarici siyasətimizin başlıca prinsiplərindən olmuşdur. Azərbaycan diplomatiyasının bu prinsip əsasında fəaliyyəti onun həm qonşu, həm də regiondan kənarda yerləşən dövlətlərlə münasibətlərinin sabit əsasda inkişafına zəmin yaratmışdır. Bu kontekstdə, beynəlxalq münasibətlər sistemində gərginliyin artdığı bir dövrdə, Azərbaycan dövlətinin dünyada bölücü deyil, birləşdirici xətləri təşviq etməsi yanaşması xüsusi əhəmiyyət kəsb etmişdir.

2021-ci il ərzində xarici siyasət fəaliyyətimiz dövlətimizin suverenliyi və ərazi bütövlüyünün möhkəmləndirilməsi, Vətən müharibəsində əldə edilmiş Qələbənin beynəlxalq diplomatik müstəvidə irəlilədilməsi, işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsi, bərpası və yenidən qurulması vəzifələrinin həyata keçirilməsi işinə dəstəyin göstərilməsinə yönəlmişdir. Bu xüsusda, dövlətimizin üzv olduğu bir sıra təşkilatlar, eləcə də tərəfdaş dövlətlər tərəfindən Vətən müharibəsinin nəticələrini alqışlayan bəyanatlar verilmiş və işğaldan azad olunmuş torpaqlarımızın minalardan təmizlənməsi, bərpası və yenidən qurulması prosesinə dəstək göstərməyə başlanmışdır.

Eyni zamanda, Vətən müharibəsindən sonra regionda yaranmış yeni vəziyyətin dayanıqlı sülh və inkişaf üçün açdığı imkanların reallaşdırılması, o cümlədən nəqliyyat kommunikasiyalarının açılmasını təmin etmək istiqamətində ardıcıl və məqsədyönlü səylər göstərilmişdir.

İl ərzində Azərbaycan Respublikası bəşəriyyət qarşısında duran ümumi təhdid və çağırışlara, o cümlədən COVID-19 pandemiyasına effektiv cavabların axtarışı və verilməsi məqsədilə dünya birliyinin digər üzvləri ilə birgə çalışmışdır. Xüsusilə qeyd olunmalıdır ki, dövlətimiz ilk günlərindən pandemiya ilə mübarizədə aparıcı dövlətlərdən biri olmuşdur.

Azərbaycan Respublikası Qoşulmama Hərəkatında Sədrliyini uğurla davam edərək üzv dövlətlərin potensialının Hərəkatın qarşısında duran məqsədlərin reallaşdırılmasına yönəlməsində aktiv rol oynamışdır.

Azərbaycan tərəfinin yuxarıda təsvir olunan bu siyasəti dünyada ölkəmizə olan rəğbəti və regionda sabitləşdirici rolunu daha da möhkəmləndirmişdir. 2021-ci il, pandemiya şəraitini də nəzərə alaraq, Azərbaycanın dünya dövlətləri ilə təmaslarının intensivləşməsi, xarici dövlət və beynəlxalq təşkilatların, akademik dairələrin və media nümayəndələrinin ölkəmizə çoxsaylı səfərləri, beynəlxalq təşkilatlar çərçivəsində artan dəstəyi və regional siyasət gündəliyinin uğurla irəlilədilməsi ilə yadda qalmışdır.

Xaricdə yaşayan vətəndaşlarımızın üzləşdiyi çətinliklərin həlli diplomatiyamızın təbii prioritetlərindən olmuşdur.

İl ərzində xarici siyasətimizin informasiya təminatı və diplomatiyamız barədə agahlığın artırılması məsələləri diqqət mərkəzində olmuşdur.

## Postmünaqişə mərhələsində diplomatik fəaliyyət

2020-ci il noyabrın 10-da Ermənistan-Azərbaycan münaqişəsinin bitməsindən sonra Azərbaycan tərəfi 2021-ci il ərzində Azərbaycan və Ermənistan arasında bir-birinin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət edilməsi əsasında dövlətlərarası münasibətlərin təsis edilməsi, Ermənistan-Azərbaycan sərhəd xəttinin delimitasiya və demarkasiya prosesinin başlanması, regional əməkdaşlıq, dayanaqlı inkişaf və tərəqqi üçün intensiv şəkildə fəaliyyət aparmışdır.

İkitərəfli, regional və çoxtərəfli formatlar, o cümlədən BMT, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO, GUAM, İslam Əməkdaşlığı Təşkilatı, Türk Dövlətləri Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində keçirilmiş görüşlər, səsləndirilmiş bəyanatlar və qəbul edilmiş sənədlər vasitəsilə Vətən müharibəsindən sonra yaranmış reallıqlar barədə məlumatlandırılma işləri gücləndirilmiş, regionda sülhün bərpa edilməsi, münaqişədən sonrakı bərpa və yenidənqurma fəaliyyətləri və məcburi köçkünlərin geri qayıtması üçün zəruri şərtlərin formalaşdırılması istiqamətində addımlar atılmışdır.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin mina və digər partlayıcılarla kütləvi çirkləndirilməsinin və minalanmış sahələrin tam və dəqiq xəritələrinin Azərbaycan tərəfinə təhvil verməsi, ərazilərimizin minalardan təmizlənməsinə beynəlxalq diqqətin cəlb edilməsi və ölkəmizə müvafiq dəstəyin göstərilməsi məqsədilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq mexanizmlərinin imkanları səfərbər edilmişdir.

Azərbaycan Respublikası xarici işlər naziri cari il ərzində iştirak etdiyi beynəlxalq tədbirlərdə və iclaslarda, o cümlədən mayın 25-də ATƏT-in Daimi Şurasının xüsusi iclası, sentyabrın 20-27-də BMT Baş Assambleyasının 76-cı sessiyası, oktyabrın 14-də MDB Xarici İşlər Nazirləri Şurasının iclası, noyabrın 9-10-da UNESCO-nun Baş Konfransının 41-ci sessiyası, noyabrın 14-18-də Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirlərinin görüşü, dekabrın 2-3-də ATƏT-in Nazirlər Şurasının 28-ci iclası, habelə İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının növbədənkənar iclasında və çoxtərəfli müstəvilərdə keçirdiyi çoxsaylı ikitərəfli görüşlərdə postmünaqişə mərhələsində bölgədə mövcud olan reallıqlar, ölkəmizin üzləşdiyi çağırışlar barədə ətraflı məlumat təqdim edib.

Ermənistanın işğal altında saxladığı ərazilərimizdə törətdiyi cinayətlərin - mülki infrastrukturun məqsədyönlü şəkildə kütləvi miqyasda dağıdılması (urbisid), mədəni irsin talan edilməsi, dağıdılması, saxtalaşdırılması, qanunsuz daşınması (kultursid), ətraf mühitə və biomüxtəlifliyə vurulan zərər (ekosid), ərazilərin kütləvi şəkildə minalar və digər partlayıcılarla çirkləndirilməsi, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməməsi, girov və ya əsir götürülmüş vətəndaşlarımıza münasibətdə törədilmiş müharibə cinayətlərinin araşdırılmaması, günahkarların cəzalandırılmamasının ifşa edilməsi və bu pozuntulara görə Ermənistanın beynəlxalq hüquqi məsuliyyətinin təsbit edilməsi ilə bağlı işlər davam etdirilmişdir.

Belə ki, 2021-ci ilin yanvar ayında Azərbaycan Respublikası Ermənistana qarşı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə dövlətlərarası şikayət verib. Bu şikayətdə Azərbaycan vətəndaşlarının İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında 1950-ci il Konvensiyasında nəzərdə tutulmuş hüquqlarının Ermənistan tərəfindən davamlı şəkildə pozulduğunu sübut edən faktlar təsbit olunub. Sentyabr ayında isə Azərbaycan Respublikası BMT-nin 1965-ci il tarixli "İrqi ayrı-seçkiliyin bütün formaların ləğv edilməsi haqqında" beynəlxalq konvensiya əsasında Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı uzun müddət ərzində etnik təmizləmə siyasətinin aparılması faktları ilə bağlı Haaqa şəhərində yerləşən BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edib.

Dekabrın 7-də Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın, o cümlədən Ermənistan ərazisində fəaliyyət göstərən və Azərbaycanlıları hədəf alan fərdlər və təşkilatlar tərəfindən irqi nifrətin təşviq etməsini qadağan edən müvəqqəti tədbirlərə dair Azərbaycanın vəsatətini təmin edib. Məhkəmə əsaslı olaraq Ermənistan tərəfinə azərbaycanlıların insan hüquqlarının pozulmasının qarşısını almaq üçün təcili tədbirlər görməyi tapşırıb. Bu qərar oktyabrın 14-dən 19-dək olan məhkəmə dinləmələrindən sonra verilib.

## Qonşu dövlətlər ilə münasibətlər və üçtərəfli əməkdaşlıq formatları

Azərbaycan Respublikası üçün qonşularının hər biri ilə dostluq münasibətlərinin saxlanılması və qarşılıqlı maraqlar əsasında inkişaf etdirilməsi xarici siyasətimizin prioriteti olaraq qalmışdır. İl ərzində Türkiyə, Rusiya, İran, Gürcüstan, Qazaxıstan və Türkmənistan ilə ali və yüksək səviyyədə təmaslar davam etmiş və münasibətlərin məzmunu bir çox hallarda konkret əməkdaşlıq layihələri ilə daha da zənginləşdirilmişdir.

Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərləri (15-16 iyun və 26 oktyabr 2021-ci il), işğaldan azad olunmuş ərazilərimizi ziyarət etməsi, Azərbaycan və Türkiyə Prezidentlərinin iki ölkə arasında müttəfiqlik münasibətləri barədə Şuşa Bəyannaməsi imzalaması əlamətdar hadisə olmuşdur. Bundan əlavə, il ərzində hər iki dövlətin Baş nazirləri, parlament sədrləri, xarici işlər nazirləri, müdafiə nazirləri və digər hökumət rəsmiləri səviyyəsində görüşlər təşkil olunmuş və qarşılıqlı maraq doğuran sahələr üzrə əməkdaşlıq həyata keçirilmişdir.

2021-ci ildə də Rusiya Federasiyası ilə əməkdaşlığımızın məzmunu kifayət qədər zəngin olmuşdur. Rusiya Prezidentinin vasitəçiliyi ilə Azərbaycan Prezidenti və Ermənistan baş nazirinin yanvarın 11-də Moskvada və noyabrın 26-da Soçidə üçtərəfli görüşləri keçirilmişdir. İl ərzində Rusiya Federasiyasının Baş nazirinin müavini və xarici işlər naziri ölkəmizə səfər etmişdir. Azərbaycan-Rusiya Birgə Demarkasiya Komissiyasının iclasları və iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 19-cu iclası baş tutmuşdur.

İran İslam Respublikası ilə dostluq və mehriban qonşuluq əlaqələrinin yüksək səviyyədə saxlanması üçün səylər göstərilmişdir. Noyabrın 27-28-də Aşqabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Görüşü çərçivəsində Azərbaycan və İran Prezidentləri arasında baş tutmuş görüş ikitərəfli münasibətlərin inkişafına təkan vermişdir. Görüş çərçivəsində iki ölkə prezidentlərinin iştirakı ilə "İran İslam Respublikasının ərazisindən təbii qazın tranzit şərtlərini müəyyənləşdirən Saziş" imzalanmışdır. İl ərzində Azərbaycan və İran xarici işlər nazirləri arasında görüşlər təşkil olunmuşdur. Dekabrın 22-də İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahian Azərbaycana ilk rəsmi səfərini etmişdir.

Gürcüstan ilə dostluq və əməkdaşlıq gündəliyi kifayət qədər geniş olmaqla sabit əsasda inkişaf etmiş, hər iki dövlət rəsmilərinin, o cümlədən Gürcüstan Baş naziri İrakli Qaribaşvilinin ölkəmizə, Azərbaycan Respublikasının müdafiə və mədəniyyət nazirlərinin Gürcüstana səfərləri baş tutmuşdur. Gürcüstan Baş naziri iştirakı ilə sentyabrın 29-da Bakıda Birgə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilmişdir.

Qazaxıstan ilə münasibətlərimiz qarşılıqlı hörmət və dostluq ruhunda davam etmiş, iyunun 21-də Qazaxıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdi ölkəmizə səfər etmişdir. Eyni zamanda, Qazaxıstanın ticarət və inteqrasiya naziri Bakıt Soltanov sentyabrın 9-da Bakıda keçirilmiş Birgə Hökumətlərarası Komissiyanın 17-ci iclasında iştirak etmişdir.

2021-ci ildə Türkmənistan ilə qarşılıqlı hörmət və dostluq ruhunda münasibətlərimiz davam etmişdir. Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkmənistana səfər etmiş və səfər çərçivəsində yanvarın 21-də "Azərbaycan Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının hidrogen resurslarının birgə kəşfiyyatı və işlənməsi və mənimsənilməsi üzrə Anlaşma Memorandumu" imzalanmışdır. İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Görüşü çərçivəsində Azərbaycan və Türkmənistan dövlət başçıları arasında Aşqabad şəhərində baş tutmuş görüş ikitərəfli münasibətlərin inkişafına təkan vermişdir.

2021-ci ildə üçtərəfli əməkdaşlıq formatları çərçivəsində əməkdaşlıq davam etdirilmişdir. Belə ki, yanvarın 13-də İslamabad şəhərində Azərbaycan, Türkiyə və Pakistanın xarici işlər nazirlərinin 2-ci, fevralın 23-də isə Ankara şəhərində Azərbaycan, Türkiyə və Türkmənistanın xarici işlər nazirlərinin 5-ci üçtərəfli görüşləri keçirilmişdir.

## Digər dövlətlərlə ikitərəfli münasibətlər

2021-ci ildə strateji tərəfdaşlarımız olan Belarus, Ukrayna, Özbəkistan, habelə yüksək səviyyəli əməkdaşlıq münasibətlərini bölüşdüyümüz Moldova, Tacikistan və Qırğızıstan ilə əlaqələr genişlənmiş, ali və yüksək səviyyədə ikitərəfli əsasda ölkəmizə səfərlər və beynəlxalq təşkilatlar çərçivəsində görüşlər bu əməkdaşlığa töhfə vermişdir.

ABŞ, Çin və Avropa dövlətləri ilə münasibətlər diqqət mərkəzində saxlanılmışdır.

Bu xüsusda, qeyd edilməlidir ki, 2021-ci il ərzində ABŞ-la Azərbaycan arasında ali səviyyədə məktub mübadilələri və ABŞ dövlət katibi Entoni Blinken ilə Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov arasında təmaslar baş tutmuşdur. Bununla yanaşı, Oklahoma ştatının qubernatoru Kevin Stitti və Oklahoma Milli Qvardiya Komandanı general-leytenant Maykl Thompsonun rəhbərlik etdiyi nümayəndə heyəti və ABŞ Dövlət Departamentinin digər rəsmilərinin ölkəmizə səfərləri olmuşdur.

Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında siyasi, iqtisadi və nəqliyyat-logistika sahələrində əməkdaşlıq ilə bağlı təmaslar davam etdirilmişdir. 2021-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında telefon danışığı və müvafiq fikir mübadiləsi ikitərəfli münasibətlərin inkişafına təkan vermişdir. İl ərzində Azərbaycan-Çin Hökumətlərarası ticarət-iqtisadi əməkdaşlıq Komissiyasının 8-ci iclası keçirilmiş, Azərbaycan və Çin şəhərləri arasında əməkdaşlıq əlaqələrinin qurulmasına dair sazişlər imzalanmışdır.

2021-ci ildə Avropa dövlətlərindən Macarıstan, Xorvatiya, Serbiya, Bosniya və Herseqovina, Avstriya, Rumıniya, Litva, Slovakiya, Çex Respublikası və ATƏT-in Fəaliyyətdə olan Sədri qismində İsveç xarici işlər nazirləri Azərbaycana səfər etmişlər. Beynəlxalq tədbirlər çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Macarıstan, Polşa, Bolqarıstan, Portuqaliya, Rumıniya, İsveç, Finlandiya, İslandiya, Estoniya, Niderland Krallığı və Fransa xarici işlər nazirləri ilə görüşmüşdür. Azərbaycan Respublikası ilə Portuqaliya, Almaniya, Böyük Britaniya, Slovakiya, Sloveniya, Rumıniya və Xorvatiya xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilmişdir.

Yaxın Şərq və Afrika dövlətləri ilə Xarici İşlər Nazirlikləri xətti ilə təmaslar davam etmişdir. Beynəlxalq tədbirlər çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri İraq Respublikasının, Suriya Ərəb Respublikası, Bəhreyn Krallığı, Livan Respublikası, Fələstin Dövlətinin xarici işlər naziri ilə görüşmüş, Qətər Dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri ölkəmizə səfər etmişdir. 2021-ci il ərzində Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi ilə Misir Ərəb Respublikası, Qətər Dövləti və Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilmişdir. 23-24 iyun tarixlərində Azərbaycan Respublikası xarici işlər nazirinin Səudiyyə Ərəbistanı Krallığına rəsmi səfəri baş tutmuşdur. İl ərzində, həmçinin İsrail Dövləti, İraq, Qətər Dövləti və BƏƏ ilə iqtisadi əməkdaşlıq üzrə birgə komissiyaların iclasları keçirilmişdir. Afrika regionu ölkələrinə gəldikdə, beynəlxalq tədbirlər çərçivəsində Azərbaycan Respublikasının xarici işlər naziri Somali Federativ Respublikası, Qvineya-Bisau Respublikası, Çad, Lesoto Krallığı, Kamerun, Burundi, Uqanda və Kapo-Verde xarici işlər nazirləri ilə görüşlər keçirmişdir.

Asiya regionu dövlətləri, o cümlədən İndoneziya, Malayziya, Koreya Respublikası və Vyetnam ilə münasibətlərimizdə ümumilikdə müsbət tendensiya üstünlük təşkil etmişdir.

Xüsusilə qeyd olunmalıdır ki, Pakistan ilə strateji tərəfdaşlıq münasibətlərimiz 2021-ci ildə uğurla inkişaf etmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Aşqabadda Pakistanın İslam Respublikasının Prezidenti Arif Alvi ilə görüşmüş, yanvarın 13-14-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Pakistan İslam Respublikasına rəsmi səfər etmiş, dekabrın 1-2-də Bakıda Azərbaycan - Pakistan Birgə Hökumətlərarası Komissiyanın 7-ci iclası keçirilmişdir.

Azərbaycan ilə Cənubi Amerika və Karib hövzəsi regionunun ölkələri, xüsusilə Sent-Kits və Nevis, Nikaraqua, Qvatemala, Qrenada, Venesuela, Çili, Peru və Boliviya Çoxmillətli Dövləti arasında təmaslar davam etmiş, o cümlədən beynəlxalq tədbirlər çərçivəsində xarici işlər nazirləri (bəzi hallarda Xarici İşlər nazirliklərinin yüksək vəzifəli şəxsləri) səviyyəsində görüşlər keçirilmiş və diplomatik münasibətlərimizin qurulmasının yubiley (Peru və Boliviya Çoxmillətli Dövləti) ilə bağlı təbrik məktubları mübadiləsi baş tutmuşdur.

Ümumilikdə, Azərbaycan Respublikasının xarici işlər naziri öz həmkarları ilə Azərbaycanda və onun hüdudlarından kənarda 80-dan çox görüş keçirmiş, 16 ölkənin xarici işlər naziri ölkəmizə səfər etmişdir.

İl ərzində qonşu dövlətlərlə yanaşı Ukrayna, Belarus Respublikası, Estoniya Respublikası, Bolqarıstan Respublikası, Serbiya Respublikası, Çex Respublikası, Slovakiya Respublikası, Xorvatiya Respublikası, Macarıstan, Pakistan İslam Respublikası, Monqolustan, Qətər Dövləti, Səudiyyə Ərəbistanı Krallığı, İndoneziya Respublikası və İspaniya Krallığı ilə -ümumilikdə 27 beynəlxalq müqavilə imzalanmışdır.

2021-ci ildə Azərbaycan Respublikasının Bosniya və Herseqovinada və Müqəddəs Taxt-Tacda Səfirlikləri təsis edilmişdir.

İl ərzində dünya dövlətləri ilə parlamentlərarası əməkdaşlıq davam etmişdir. Bu xüsusda, qeyd edilməlidir ki, Bosniya və Herseqovina Parlament Assambleyasının Xalqlar Palatasının Sədri, Türkiyə Böyük Millət Məclisinin Sədri, Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri və Koreya Respublikası Milli Assambleyasının Sədri ölkəmizə, Azərbaycan Respublikasının Milli Məclisinin Sədri isə ikitərəfli əsaslarda İtaliya, Slovakiya, Macarıstan və İrana, eləcə də beynəlxalq parlamentlərarası təşkilatların iclaslarında iştirak məqsədilə Avstriya, İspaniya, Yunanıstan, Rusiya, Qazaxıstan və Pakistana səfərlər etmişdir.

## İqtisadi və humanitar sahələrdə əməkdaşlıq

Azərbaycan Respublikasının dünya ölkələri ilə ikitərəfli iqtisadi əməkdaşlıq münasibətlərinin inkişafı, birbaşa xarici sərmayələrin ölkə iqtisadiyyatına cəlb edilməsi, işğaldan azad olunmuş ərazilərimizdə gedən bərpa proseslərində xarici şirkətlərin iştirak imkanlarının araşdırılması və qeyri-neft sektorunda yeni əməkdaşlıq sahələrinin qurulmasının təşviqi istiqamətində iş aparılmışdır.

Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığına əsasən ölkəmizdə qurulmaqda olan Ələt Azad İqtisadi Zonaya (AFEZ) birbaşa xarici sərmayələrin cəlb edilməsi məqsədilə XİN və xaricdə akkreditə olunmuş səfirliklərimiz fəaliyyət göstərmişdir.

Ölkəmizin tranzit-nəqliyyat potensialının gücləndirilməsi istiqamətində Şərq-Qərb, Şimal-Cənub və Cənub-Qərb beynəlxalq nəqliyyat dəhlizləri və marşrutlarının, o cümlədən Zəngəzur dəhlizinin, regional nəqliyyat və infrastruktur layihələrinin əhəmiyyəti müxtəlif platformalardan təbliğ edilmişdir.

Cənub Qaz Dəhlizinin tam istismara verilməsi nəticəsində Azərbaycan 2021-ci il ərzində İtaliya, Yunanıstan və Bolqarıstana qaz təchiz etməklə bu ölkələrin və bütövlükdə Avropa İttifaqının enerji təhlükəsizliyinə öz töhfəsini verməyə davam etmişdir.

2021-ci il iyulun 6-15-də keçirilmiş BMT-nin Dayanıqlı İnkişaf üzrə 2021-ci il Yüksək Səviyyəli Siyasi Forumu zamanı Azərbaycan Respublikası növbəti Könüllü Milli İcmalını (KMİ) təqdim etmişdir. Bununla, region ölkələri arasında Azərbaycan Respublikası BMT-nin "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə bağlı sayca üçüncü KMİ təqdim etmiş ilk ölkə və dünyanın 12 ölkəsindən biri olmuşdur.

Mədəniyyətlər və dinlər arasında dialoqun təşviqi Azərbaycanın xarici siyasətində ənənəvi olaraq önəmli yer tutur. Xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı üçün Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 2008-ci ildə başlamış "Bakı Prosesi" çərçivəsində UNESCO, ICESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası və Ümumdünya Turizm Təşkilatı ilə tərəfdaşlıqda iki ildən bir keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun mədəniyyətlərarası dialoqun təşviqi üçün vacib qlobal platforma olması bu il də BMT Baş Assambleyasının "Sülh naminə sülh mədəniyyətinin, dinlərarası və mədəniyyətlərarası dialoqun, qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşviqi" adlı qətnaməsində (A/RES/76/69) öz əksini tapmışdır.

İl ərzində Azərbaycan Respublikası, həmçinin beynəlxalq səviyyədə humanitar yardım və inkişafa dəstək fəaliyyətini davam etdirmişdir. Bununla bağlı, qeyd edilməlidir ki, yalnız Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi - AİDA-nın (Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərkibində fəaliyyət göstərilir) əlaqələndirməsi ilə 2021-ci ildə İndoneziya, Xorvatiya, Sent-Vinsent və Qrenadinə humanitar yardım, eləcə də Türk Dövlətləri Təşkilatı xətti ilə isə Burkina-Fasoya COVID-19 əleyhinə peyvənd göndərilmişdir. Ümumilikdə isə ölkəmiz indiyədək dünyanın 80-a yaxın ölkəsinə və üç beynəlxalq təşkilata yardım göstərmişdir. Bundan əlavə, AİDA-nın qoşulduğu İslam İnkişaf Bankının Afrika ölkələrində "Qarşısı alınabilən görmə qabiliyyətinin itirilməsi ilə mübarizə" (AFAB) layihəsi çərçivəsində 2021-ci ildə Qvineya, Kot-d'İvuar və Nigerdə humanitar aksiyalar keçirilmişdir.

Eyni zamanda, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlığı Təşkilatına üzv dövlətlərinin vətəndaşları üçün təsis edilmiş qrant proqramları sayəsində 2021-ci ildə 37 ölkədən 40 tələbə Azərbaycan universitetlərində ali təhsil almaq şansı əldə etmişdir. AİDA-nın ADA Universiteti ilə birgə təşkil etdiyi "Əcnəbi diplomatlar üçün xarici siyasət proqramı" çərçivəsində 15 xarici diplomat üçün təlim təşkil olunmuşdur.

## Beynəlxalq qurumlarda sədrlik: Qoşulmama Hərəkatı

2021-ci ildə Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına sədrliyi uğurla davam etdirilmişdir. Beynəlxalq təşkilat və qurumlar çərçivəsində, xüsusilə BMT-nin 6 qərargahında (Nyu-York, Cenevrə, Vyana, Nayrobi, Paris, Haaqa) Hərəkatın fəaliyyətinin əlaqələndirilməsi həyata keçirilmiş, Hərəkat adından müvafiq bəyanatlar səsləndirilmiş və irəli sürülmüş qətnamələr qəbul olunmuşdur.

Koronavirus (COVID-19) pandemiyasının ilk günlərindən Azərbaycan dünya ölkələrini bu hədəyə qarşı həmrəy olmağa və qarşılıqlı şəkildə əməkdaşlıq etməyə çağıran təşəbbüslərlə çıxış edən ölkələrdən biri olmuşdur. Bu xüsusda, 23 mart 2021-ci il tarixində BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edilmişdir. Qətnaməyə ümumilikdə 137 dövlət həmmüəlliflik etmişdir ki, bu da BMT-nin İnsan Hüquqları Şurasında qəbul edilən qətnamələr üçün olduqca yüksək göstəricidir.

2021-ci il dekabrın 16-da BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Assambleyanın plenar iclasında Hərəkatın sədri qismində Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Hərəkat üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT üzv dövlətlərinin mütləq əksəriyyətinin dəstəyi ilə qəbul edilmişdir.

2021-ci il oktyabrın 4-5-də Qoşulmama Hərəkatında Azərbaycan sədrliyinin təşəbbüsü əsasında Hərəkatın üzv dövlətlərini təmsil edən 100-dən çox gəncin iştirakı ilə Qoşulmama Hərəkatı Gənclər Şəbəkəsinin virtual təsis iclası, 26 noyabr 2021-ci il tarixində isə Hərəkatın Parlamentarilər Şəbəkəsinin təsis iclası keçirilmişdir.

2021-ci il oktyabrın 11-12-də Belqradda Qoşulmama Hərəkatının təsis edilməsinin 60-cı ildönümü münasibətilə yüksək səviyyəli yubiley tədbiri keçirilmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin açılış nitqində təsis edilməsindən bəri Hərəkatın beynəlxalq münasibətlər sistemində oynadığı mühüm rolu vurğulanmış, QH-nin əsasını təşkil edən Bandunq prinsiplərinin əhəmiyyətinə diqqət çəkilmiş, xüsusilə suverenlik və ərazi bütövlüyünə hörmət, təcavüz aktlarından çəkinmə, digər dövlətlərin daxili işlərinə qarışmama kimi prinsiplərin müasir beynəlxalq münasibətlər sistemində aktuallığı və əhəmiyyəti vurğulanmışdır.

Həmçinin Qoşulmama Hərəkatının prinsip, ideya və məqsədlərinin həyata keçirilməsində parlamentarilərin konstruktiv rolu nəzərə alınaraq, üzv dövlətlərin parlamentləri arasında əlaqələrin dərinləşdirilməsi məqsədilə 26 noyabr 2021-ci il tarixində QH Azərbaycan sədrliyinin təşəbbüsü əsasında Hərəkatın Parlamentarilər Şəbəkəsinin təsis iclası keçirilmişdir. QH-nin Parlamentarilər Şəbəkəsinin təsis edilməsi QH sədrliyimizin Hərəkata tarixi töhfəsi olmaqla yanaşı, ölkəmizin digər dövlətlərlə parlamentlərarası əməkdaşlığının inkişafına töhfə verən təşəbbüs olması baxımından əhəmiyyətlidir.

## Türk Dövlətləri Təşkilatı

Türk Dövlətləri Təşkilatında ölkəmizin 15 oktyabr 2019-cu ildən etibarən başlayan sədrliyi uğurla davam etmişdir. Bu müddətdə təşkilatın fəaliyyəti daha da güclənmiş və nüfuzu artmışdır. Azərbaycanın il ərzində sədrliyi dövründə videokonfrans vasitəsilə Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə Görüşü (31 mart 2021-ci il), Təşkilata üzv dövlətlərin mediaya məsul nazir və rəsmilərinin Bakıda iclası (10 aprel 2021-ci il), Xarici İşlər Nazirləri Şurasının "Əfqanıstandakı vəziyyət və son inkişaflar işığında onun Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzv dövlətlərinə təsiri" mövzusunda İstanbulda fövqəladə iclası (27 sentyabr 2021-ci il) və sahəvi əməkdaşlıq ilə bağlı digər önəmli tədbirlər keçirilmişdir.

12 noyabr 2021-ci ildə İstanbulda Türk Dövlətləri Təşkilatının Səkkizinci Zirvə Görüşü keçirilmişdir. Zirvə Görüşündə, o cümlədən təşkilatın adının dəyişdirilməsi və Türkmənistanın təşkilatda müşahidəçi statusu alması barədə qərar, "Türk Dünyasına Baxış - 2040" sənədi və Səkkizinci Zirvə Görüşünün Bəyannaməsi qəbul edilmiş, Sədrlik Azərbaycandan Türkiyəyə ötürülmüşdür. Səkkizinci Zirvə Görüşünün Bəyannaməsində üzv dövlətlər Azərbaycan Respublikasını 44 günlük Vətən müharibəsində Qələbə münasibətilə təbrik etmiş, torpaqlarımızın hərbi işğaldan azad edilməsi ilə bağlı haqq işinə dəstəyini ifadə etmiş, Ermənistan ilə Azərbaycan arasında münaqişənin bitməsini alqışlamış və bir-birinin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət əsasında münasibətlərin normallaşmasını dəstəkləmiş və Azərbaycanın münaqişədən sonra bərpa, yenidənqurma və reinteqrasiya səylərinə dəstəkləməyə hazır olduqlarını ifadə etmişlər. Zirvə Görüşündə dövlətimizin başçısı Azərbaycan Respublikasının torpaqlarının azad edilməsini və ərazi bütövlüyünün bərpa olunmasını təmin edən, Türk birliyinə önəmli töhfə verən, regionda davamlı sülh və sabitliyə nail olunmasına yol açan tarixi Qələbə münasibətilə Türk Dünyasının Ali Ordeni ilə təltif olunmuşdur.

## ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumu

2021-ci il dekabrın 15-də ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunun (TƏF) Avstriya Sədrliyi altında son iclası keçirilib. İclasın yekununda Avstriya tərəfi Sədrlik funksiyasını Azərbaycana ötürüb.

Avstriya TƏF-in Sədri funksiyasını 2021-ci ilin sentyabr-dekabr ayları üzrə icra edib. TƏF-də Sədrlik il ərzində əlifba sırası ilə ATƏT-in üç iştirakçı dövləti tərəfindən həyata keçirilir. Beləliklə, Azərbaycan tərəfi rəsmi olaraq TƏF-in Sədri funksiyasını 2022-ci ilin yanvar-aprel aylarında yerinə yetirəcək. Azərbaycanın TƏF-də Sədrliyi dövründə Avstriya və Belarus TƏF Troykasının üzvləri qismində fəaliyyət göstərəcəklər.

ATƏT-in hərbi-siyasi ölçüsünü əhatə edən və təşkilatın bu sahədə əsas strukturu olan Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumu ATƏT məkanında hərbi təhlükəsizlik və stabilliyin gücləndirilməsi istiqamətində fəaliyyət göstərir. Forum ATƏT-ə üzv dövlətlərin hərbi-siyasi öhdəliklərinin və bu sahədə mövcud olan müvafiq sənədlərin həyata keçirilməsinə töhfə verir. İştirakçı dövlətlər arasında hərbi-siyasi sahədə müxtəlif təhlükəsizlik və etimad quruculuğu tədbirləri vasitəsi ilə onlar arasında etimadın möhkəmləndirilməsi və bununla ümumi təhlükəsizlik və stabilliyə töhfənin verilməsinə xidmət edir.

## BMT və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq

Azərbaycan Respublikası əvvəlki illərdə olduğu kimi, 2021-ci il ərzində də beynəlxalq sülh, təhlükəsizlik və inkişafın bərqərar edilməsi istiqamətində BMT Nizamnaməsinin məqsədlərinin yerinə yetirilməsinə öz töhfəsini vermişdir.

Ölkəmiz terrorçuluğa, mütəşəkkil cinayətkarlığa, narkotiklərin qanunsuz dövriyyəsinə, kibercinayətkarlığa və çirkli pulların yuyulmasına, eləcə də digər yeni təhdid və çağırışlara qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıqda fəal iştirak etmişdir.

BMT Baş Assambleyasının 76-cı sessiyasının yüksək səviyyəli həftəsi (21-27 sentyabr 2021-ci il) çərçivəsində "Ümid sayəsində dayanıqlılıq yaratmaq - COVID-19-dan sonra bərpa olunmaq, dayanıqlı yenidənqurma, planetin ehtiyaclarını qarşılamaq, insanların hüquqlarına hörmət etmək və Birləşmiş Millətlər Təşkilatını canlandırmaq" mövzusunda ümumi müzakirələrdə Azərbaycan Respublikası adından Prezident İlham Əliyevin videobəyanatı səsləndirilmişdir.

Aprelin 8-9-da BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri Volkan Bozkırın ölkəmizə səfəri təşkil edilmişdir.

BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına tərəf dövlətlərin Konfransının 13-17 dekabr 2021-ci il tarixlərində Misir Ərəb Respublikasının Şarm Əl-Şeyx şəhərində keçirilmiş 9-cu sessiyası çərçivəsində "Maliyyə toplanması üzrə fəaliyyətin korrupsiya və əlaqəli cinayətkarlıq məqsədləri üçün sui-istifadə edilməsi" (Misuse of fundraising activities for corruption and related criminal offences) mövzusunda paralel tədbir (side-event) keçirilmiş, xüsusilə Vətən müharibəsi dövründə xaricdə fəaliyyət göstərən erməni diaspor təşkilatları və xeyriyyə fondları tərəfindən ianə toplanaraq qanunsuz əsasda Azərbaycan ərazilərinə göndərilməsi və burada terrorçuluğun maliyyələşdirilməsi məqsədilə istifadə edilməsinə beynəlxalq ictimaiyyətin diqqəti yönəldilmişdir.

2021-ci il ərzində beynəlxalq qurumların seçkili vəzifələrinə Azərbaycan Respublikası tərəfindən irəli sürülmüş namizədliklərin təşviq edilməsi istiqamətində fəaliyyət davam etdirilmişdir. Aparılmış uğurlu seçki kampaniyasının nəticəsi olaraq Paris şəhərində 17 noyabr 2021-ci il tarixində keçirilmiş seçkilərdə ölkəmiz 143 səs toplayaraq UNESCO İcraiyyə Şurasının 2021-2025-ci illər üçün üzvü, 30 noyabr 2021-ci il tarixində keçirilmiş seçkilərdə UNESCO-nun Silahlı Münaqişələr zamanı mədəni mülkiyyətin qorunması üzrə Hökumətlərarası Komitəsinin 2021-2025-ci illər üzrə üzvü seçilmişdir. Bundan əlavə Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin müşaviri Azad Tağızadə növbəti dəfə BMT-nin Əməkçi Miqrantlar üzrə Komitəsinin (CMW) 2022-2025-ci illər üzrə üzvlüyünə seçilmişdir.

Ölkəmizin xarici siyasətində önəmli yer tutan İslam Əməkdaşlıq Təşkilatında üzvlüyümüzün 30 illiyi 2021-ci ilə təsadüf etmişdir. Bu təşkilat Ermənistanın təcavüzünə məruz qaldığımız illərdə Azərbaycana münasibətdə öz ədalətli, beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqeyi ilə seçilmiş və dövlətimizin haqq işini dəstəkləmişdir. İl ərzində İslam Əməkdaşlıq Təşkilatının Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzünə dair Təmas Qrupuna üzv ölkələrin təşkilatda akkreditə olunmuş daimi nümayəndələri, İƏT Baş katibi və ICESCO-nun Baş direktoru ölkəmizə səfərləri baş tutmuş, Azərbaycan Respublikasının xarici işlər naziri İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Azərbaycan Respublikasında akkreditə olunmuş səfirləri ilə görüşü keçirilmişdir.

2021-ci il noyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Aşqabadda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 15-ci Zirvə Toplantısında iştirak etmişdir. Görüş zamanı qəbul edilmiş yekun sənəddə (Ashgabat Consensus for Action) üzv dövlətlər Azərbaycan Respublikası Hökuməti və xalqını torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpası münasibətilə təbrik etmiş, bunun Cənubi Qafqaz regionunda xoş qonşuluq münasibətlərinin qurulması vasitəsilə davamlı sülh və iqtisadi rifah üçün yol açdığına inamını ifadə etmiş, Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa layihələrinə sərmayə yönəltmək üçün imkanları araşdırmağa çağırış etmişlər.

İl ərzində ölkəmizin Aİ və NATO ilə, eləcə də üzvü olduğumuz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı kimi təşkilatlar çərçivəsində milli maraqlarımız əsasında əməkdaşlıq davam etdirilmişdir.

Aİ ilə Azərbaycan arasında mövcud olan dialoq 2021-ci ildə intensivliyi ilə səciyyələnmişdir. Aİ Şurasının Prezidenti Şarl Mişel və Aİ-nin Qonşuluq və Genişlənmə üzrə Komissarı Oliver Varhelyinin ölkəmizə səfərləri baş tutmuşdur. Bu təmaslar zamanı, o cümlədən 15 dekabr tarixində Brüssel şəhərində Aİ-nin Şərq Tərəfdaşlığının VI Zirvə Görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Aİ ilə münasibətlərin inkişafında ölkəmizin mövqeyi və gözləntiləri qarşı tərəfə çatdırmışdır. Son 4 ildə fiziki əsasda ilk dəfə keçirilmiş Şərq Tərəfdaşlığı Zirvə Toplantısının yekununda qəbul edilmiş Birgə Bəyannamədə Aİ tərəfindən bütün tərəfdaş ölkələrin müstəqilliyi, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək bir daha ifadə olunmuşdur.

İl ərzində NATO ilə yüksək səviyyəli siyasi dialoq davam etdirilmişdir. Belə ki, 15 dekabr 2021-ci il tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Brüsseldə keçirilmiş Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələrinin Zirvə Görüşü çərçivəsində NATO-nun Baş katibi Yens Stoltenberqin dəvəti əsasında NATO-nun mənzil-qərargahına səfər etmişdir. Səfər çərçivəsində Azərbaycan Respublikası Prezidentinin NATO-nun Baş katibi ilə görüşü baş tutmuş və birgə mətbuat konfransı keçirilmişdir. Həmçinin Azərbaycan Respublikası Prezidenti Şimali Atlantika Şurasının Azərbaycan Respublikası ilə birlikdə "30+1" formatında keçirilmiş iclasında iştirak etmişdir. İl ərzində NATO rəsmiləri ilə digər səviyyələrdə də təmaslar davam etmişdir. NATO rəsmiləri və müttəfiq dövlətlər Türkiyənin Komandanlığı altında Həmid Kərzai adına Kabil Beynəlxalq Hava Limanında (HKİA) qüvvə mühafizəsinə və müxtəlif qərargah vəzifələrinə cəlb olunmuş hərbi kontingentimizin "Qətiyyətli dəstək" missiyasının son günlərində HKİA-nın təhlükəsizliyin təmin olunması və təhlükəsiz təxliyə prosesinə şərait yaradılması ilə bağlı müstəsna xidmətlərini yüksək qiymətləndirmişlər.

Çoxtərəfli əməkdaşlıq sahəsində digər bir tədbir 13 dekabr tarixində Sakit Okean Alyansı təşkilatının Bakıdakı ofisinin açılışını olmuşdur.

Hesabat ili ərzində Xarici İşlər Nazirliyinin rəsmiləri ATƏT, Avropa Şurası, UNESCO, BMT-nin Cenevrədəki Ofisi və Beynəlxalq Qırmızı Xaç Komitəsinə səfərlər etmişlər.

## Azərbaycan Respublikası vətəndaşlarının xaricdə üzləşdikləri çətinliklərin həlli istiqamətində 2021-ci il ərzində görülən işlərə dair

2021-ci ildə də qanunvericiliyimizə və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xaricdəki vətəndaşlarımızın hüquq və azadlıqlarının qorunması istiqamətində zəruri tədbirlər davam etmişdir. Bu sahədə aparılan çoxşaxəli fəaliyyətdən bəziləri aşağıdakı kimi olmuşdur:

İraq Respublikası və Suriya Ərəb Respublikasının qaçqın düşərgələri və həbsxanalarında saxlanılan 81 nəfər (69-u uşaq və 12-si qadın olmaqla) Azərbaycan Respublikası vətəndaşı repatriasiyası edilmişdir.

Həmçinin koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar, ölkə rəhbərliyinin müvafiq tapşırıq və qərarlarından irəli gələrək, 2021-ci il ərzində xarici ölkələrdən Azərbaycan Respublikası vətəndaşlarının təxliyəsi prosesinin təşkili, ölkəmizə giriş-çıxışla bağlı vətəndaşlarımızın qarşılaşdıqları çətinliklərin müəyyən edilməsi və bu sahədə daxil olmuş müraciətlərə baxılması üzrə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində yaradılmış Operativ Qərargah Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahla sıx əməkdaşlıq şəraitində öz fəaliyyətini uğurla davam etdirmişdir.

İl ərzində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində həyata keçirilən vətəndaş qəbulu zamanı yuxarıda sözügedən məqsədlərlə 80 mindən çox müraciəti qəbul edilmiş, sözügedən sahəni tənzimləyən qanunvericiliyə müvafiq olaraq həmin şəxslərin müraciətlərinə baxılmış, gündəlik əsasda xüsusi yaradılmış qaynar xətlərə daxil olan çoxsaylı zənglər cavablandırılmış, mümkün konsulluq və hüquqi yardım edilmiş, ölkəyə giriş-çıxışla bağlı zəruri informasiya verilmiş və müvafiq sənədlər sonrakı baxılma üçün aidiyyəti üzrə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargaha göndərilmişdir. Həmçinin Rusiya Federasiyasının Dağıstan Respublikasından vətəndaşlarımızın yerüstü sərhəd-keçid buraxılış məntəqəsi üzərindən (Yaraq Qazmalar-Samur) 2020-ci il aprel ayından başlayaraq mütəmadi əsasda Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargah tərəfindən müəyyən olunmuş prosedura uyğun ölkəmizə təxliyəsi cari ildə də həyata keçirilmişdir. (2021-ci il ərzində 4217 nəfərin sərhəd keçidi təmin edilmişdir).

## Xarici İşlər Nazirliyi tərəfindən təşkil olunan konfranslar, xarici siyasətin informasiya təminatı və analitik iş

İl ərzində Xarici İşlər Nazirliyi tərəfindən təhlil işi davam etdirilmiş, aidiyyəti dövlət qurumlarımıza müvafiq məlumatlar təqdim olunmuşdur.

Xarici İşlər Nazirliyi ilə ADA Universiteti tərəfindən Xocalı soyqırımının 29-cu ildönümünə həsr olunmuş konfrans, "44 günlük Zəfər yolu" adlı konfrans və sərgi, Xarici İşlər Nazirliyi və Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası tərəfindən Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərlə bağlı ADA Universitetində 30 Avqust Beynəlxalq Zorakı İtkindüşmə Qurbanları Günü ilə əlaqədar konfrans və sərgi və digər bu kimi tədbirlər təşkil edilmişdir. XİN tərəfindən ölkəmizdəki diplomatik korpusun mətbuat ilə iş üzrə məsul diplomatlarının və ölkəmizdə uzunmüddətli akkreditasiya olunmuş xarici media agentliklərinin nümayəndələrinin Şuşa şəhərində səfəri təşkil edilib.

İl ərzində Xarici İşlər Nazirliyi "Diplomatiya Aləmi" jurnalının xüsusi buraxılışları və "Əhmədiyyə Cəbrayılov-100" adlı sənədlər toplusu nəşr edilmiş, ADA Universitetində Ə.Cəbrayılovun döyüş və həyat yolunu əks etdirən fotosərgi təşkil olunmuşdur.

Vətən müharibəsində sonra 2021-ci il ərzində işğaldan azad olunmuş ərazilərə jurnalistlərin çoxsaylı səfərləri (press turlar) təşkil olunmuşdur. Eyni zamanda, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə Xarici İşlər Nazirliyi feysbuk, tviter, instaqram və yutub platformalarında aktiv fəaliyyət davam etdirilmişdir. İl ərzində XİN-in saytında 500-dən çox xəbər yerləşdirilmişdir.

# İLHAM ƏLİYEV qətiyyətinin təcəssümü

*Əvvəli 1-ci səh.*

Xatırladaq ki, hazırda Əhmədbəyli-Füzuli-Şuşa, Toğanalı-Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Xudafərin-Qubadlı-Laçın, Qubadlı-Eyvazlı, Şükürbəyli-Cəbrayıl-Hadrut, Füzuli-Hadrut, Bərdə-Ağdam, Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yollarının inşası davam edir. Göründüyü kimi, Qarabağ və Şərqi Zəngəzurda bir-birinə bağlı olan əhatəli yol-nəqliyyat şəbəkəsi yaradılır. O cümlədən Horadiz-Ağbənd, Bərdə-Ağdam dəmir yolu xətti yenidən qurulur. Bu layihələrin bir qismi həm də Zəngəzur dəhlizinin tərkib hissəsidir və onların icrası nəticəsində Azərbaycanın əsas hissəsinin Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə birbaşa nəqliyyat əlaqələri yaranacaq. Bununla ölkəmizin geoiqtisadi əhəmiyyəti daha da artacaq. Zəngilan və Laçında beynəlxalq hava limanlarının inşası, şəhər və kəndlərin bərpasında müasir idarəetmə modellərinin reallaşması işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulması prosesinin nə qədər əzəmətli olduğunu göstərir.

2021-ci il ərzində qısa vaxtda infrastruktur layihələrinin bir qisminin icrası ən yüksək səviyyədə başa çatdı. Şuşaya çəkilən "Zəfər yolu", Füzuli Beynəlxalq Hava limanı istismara verildi. Bu cür mürəkkəb və böyük infrastruktur layihələrinin qısa müddətdə yerinə yetirilməsi Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin təcəssümü kimi tarixə düşdü.

## Bir ildə 17 səfər

Prezident İlham Əliyev dekabrın 24-də Hadrut və Şuşaya səfər etdi. Bu, 60 illik yubileyini Qarabağda qarşılayan Müzəffər Ali Baş Komandanın 2021-ci il ərzində işğaldan azad olunmuş torpaqlarımıza sayca 17-ci səfəri idi. Xatırladaq ki, Prezident İlham Əliyev bu il yanvarın 15-də Füzuli və Şuşaya, fevralın 14-də Füzuli, Zəngilan, Laçın və Cəbrayıla, martın 15-də Füzuli və Xocavəndə, martın 16-da Şuşaya, aprelin 26-da Cəbrayıl və Zəngilana, mayın 13-də Şuşaya, mayın 28-də Ağdama, iyunun 15-də Füzuli və Şuşaya, avqustun 16-da Kəlbəcər və Laçına, avqustun 30-da Füzuli və Şuşaya, oktyabrın 4-də Cəbrayıla, oktyabrın 9-da Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə, oktyabrın 17-də Füzuliyə, oktyabrın 21-də Zəngilana, oktyabrın 25-də Qubadlıya, oktyabrın 26-da Füzuli və Zəngilana, dekabrın 24-də Hadrut və Şuşaya səfər edib.

Bu səfərlərin hər biri işğaldan azad edilmiş ərazilərin bərpasına böyük diqqətin, həssas münasibətin göstəricisidir. Həmin səfərlər zamanı dövlət başçısı bir sıra şəhər və rayonun baş planlarını ictimaiyyət nümayəndələrinin iştirakı ilə müzakirə edib, təməlqoyma və açılış mərasimlərində iştirak edib, bərpa işlərinə dair tapşırıq və göstərişlərini verib. Bu səfərlərin hər biri işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində mühüm hadisələrlə əlamətdar olub.

Dövlət başçısı dekabrın 24-də Xocavəndin Hadrut qəsəbəsində hərbi hissənin açılışında iştirak edib. Bu hərbi hissənin yaradılması ilk növbədə onu göstərdi ki, işğaldan azad edilmiş ərazilərimizin bərpası ilə yanaşı, onların etibarlı müdafiəsi də dövlətimizin diqqət mərkəzindədir. Eyni zamanda bir daha göründü ki, ordumuzun döyüş imkanlarının daha da artırılması ilə bağlı proseslər davam edir. Həm müasir tələblərə cavab verən silah-sursat, texnikalar alınır, həm də yeni silahlı birləşmələr yaradılır. Hadrutda yaradılan Komando briqadası da bunu təsdiq edir. "Komando briqadasının yaradılması bizim üçün yenilikdir. Bir yox, iki yox, bir çox Komando briqadaları artıq Azərbaycanda yaradılır və bu briqadalar istənilən hərbi vəzifəni icra etməyə qadir olacaqlar. Yüksək təlim keçmiş, yüksək iradə nümayiş etdirmiş və Vətən uğrunda özlərini fəda etməyə hazır olan övladlarımız bu briqadalarda xidmət edəcəklər. Bu, bizim ordumuzun gücünü böyük dərəcədə artıracaq. Bir daha demək istəyirəm ki, belə briqadalar çox olacaq, minlərlə hərbçimiz bu briqadalarda xidmət edəcəklər. Beləliklə, Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaqdır", - deyə Prezident İlham Əliyev bildirib.

İşğaldan azad olunmuş ərazilərin yenidənqurulması kompleks xarakter daşıyır. Həm infrastrukturlar, həm də şəhər və kəndlər bərpa olunur, yeni hərbi hissələr yaradılır. 2021-ci il ərzində bu ərazilərdə görülən işlər qürurverici olmaqla, Prezident İlham Əliyevin qətiyyətinin, siyasi iradəsinin və dövlətimizin iqtisadi gücünün təcəssümüdür. 2022-ci ildə isə Qarabağ və Şərqi Zəngəzurun bərpasında daha böyük uğurların əldə olunacağı şübhəsizdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



*Nüfuzlu Gallup İnternational təşkilatının yaydığı məlumata əsasən, Azərbaycanda iqtisadi optimizm göstəriciləri yüksəkdir. İqtisadi ümid indeksində Azərbaycanın mövqeyi 53 balla qiymətləndirilmişdir ki, bu da ötən ilin göstəricisindən 6 bal yuxarı olmaqla İndoneziya və Albaniyadan sonra ən yaxşı üçüncü göstəricidir.*

*Məlumat üçün bildirək ki, iqtisadi ümid indeksi ölkə vətəndaşlarının gələcək iqtisadi perspektivlərlə bağlı gözləntilərinə əsaslanır və vətəndaşlar arasında aparılmış sorğunun nəticələrini əsas götürür.*

*İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi bildirir ki, son illər xüsusilə inkişafda olan ölkələrdə iqtisadi ümid indekslərinin davamlı olaraq artdığı müşahidə olunur. Ümumilikdə isə pandemiyanın təsiri ilə iqtisadi ümid göstəriciləri qlobal miqyasda resessiv trendlərə məruz qalmışdır. Bununla yanaşı, qlobal olaraq vətəndaşların gələcəyə iqtisadi ümidləri yüksək qiymətləndirilir, baxmayaraq ki, bir sıra ölkələrdə müxtəlif dolayı səbəblər (müharibə, təbii fəlakət, siyasi böhranlar və s.) vətəndaşların gələcəyə iqtisadi ümid gözləntilərini xeyli azaltmışdır.*

# Gallup İnternational:

## "Azərbaycan dünyada iqtisadi ümid indeksinə görə ən yüksək nəticə göstərən ölkələrdəndir"

Xatırladaq ki, 1947-ci ildən fəaliyyət göstərən Gallup İnternational təşkilatı dünyada müxtəlif sosioloji sorğular və tədqiqatların aparılması üzrə ixtisaslaşmış nüfuzlu və geniş şəbəkəyə malik beynəlxalq təşkilatdır. Müvafiq sorğu isə 1947-ci ildən bəri aparılır. Təşkilatın cari ilin oktyabr-dekabr aylarında apardığı sorğular ümumilikdə 44 ölkədə 41560 insanı əhatə etmişdir. Sorğunun nəticələrinə əsasən, dünya üzrə respondentlərin 38 faizi 2022-ci ilin 2021-ci illə müqayisədə daha yaxşı, 28 faizi daha çətin, 27 faizi əsaslı dəyişikliklərin olmayacağına inanır. Bu isə o deməkdir ki, qlobal miqyasda iqtisadi ümid indeksi ötən illə müqayisədə azalmışdır.

İndeks insanların öz ölkələrinin iqtisadi gələcəyi barədə düşüncələrini ölçən mühüm indikator hesab olunur. Onun metodologiyası əhalinin ümumi rifahını deyil, daha çox gələcəklə bağlı iqtisadi gözləntilərini əsas götürür. Lakin aydındır ki, gələcəyə bağlı gözləntilər məhz cari situativ vəziyyət əsasında formalaşır. Bu baxımdan indeksin nəticələri sosioloji sorğulara əsaslandığı üçün ölkə vətəndaşlarının təkcə iqtisadi deyil, həm də cari siyasi, mənəvi və psixoloji vəziyyətlərinin də inikasiyası hesab oluna bilər. Azərbaycanın mövcud indeks üzrə postmüharibə dövründə yüksək nəticələr göstərməsi həm də Qarabağ münaqişəsinin uzun illərdən sonra hərbi-siyasi yolla həllinin yaratdığı nəticələri əks etdirir.

Azərbaycan bundan əlavə 2021-ci ildə İrs Fondu tərəfindən hazırlanan "İqtisadi Azadlıq İndeksi 2021" hesabatında 6 pillə irəliləyərək 172 ölkə arasında 38-ci, "Davamlı inkişaf hesabatı 2021" sənədində 166 ölkə arasında "davamlı inkişaf məqsədləri indeksi" üzrə 55-ci pillələrdə mövqe tutmuşdur. Eyni zamanda Azərbaycan cari ildə açıqlanmış digər reytinq hesabatlarında da rolunu qoruyub saxlamışdır. Məsələn, "Global Firepower" təşkilatının "Potensial Hərbi Güc 2021" reytinq siyahısında Azərbaycan bu il 63-cü olmuşdur.

# Azərbaycan Cənubi Qafqazda Rusiyanın əsas ticarət tərəfdaşıdır

*Əvvəli 1-ci səh.*

İkitərəfli iqtisadi əlaqələrin qurulması belə gərginliklərə səbəb olmur. Bu gün Avropa İttifaqının üzvü olan İtaliya ilə ikili iqtisadi əlaqələrimiz mövcuddur. Qoca qitədə ən çox ixracımız da İtaliyayadır. Təkcə cari ilin yanvar-oktyabr aylarında ixracatımızın 39,6 faizi bu ölkəyə olub.

Rusiya da ikitərəfli ticarət əlaqələrimizdə əsas tərəfdaşlarımızdandır. Dekabrın 16-da ADA Universitetində "İnteqrasiya prosesi çərçivəsində Rusiya-Azərbaycan iqtisadi əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri" mövzusunda keçirilən konfransda bu barədə ətraflı məlumat verilmişdir. ADA Universitetinin rektoru Hafiz Paşayev Rusiya ilə siyasi və iqtisadi əlaqələrin bölgəmizdə pozitiv rol oynadığını vurğulayaraq bildirmişdir: "Biz regionumuzda sabitliyin təmin olunması baxımından Rusiyanın dəstəyini həmişə hiss etmişik və ümid edirəm ki, bundan sonra da görəcəyik".

44 günlük Vətən müharibəsindən sonra yaranan yeni reallıq bütün region ölkələri arasında iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinə böyük imkanlar yaradıb. Xüsusilə Zəngəzur dəhlizinin açılması nəinki region ölkələri arasında, həmçinin beynəlxalq ticarətin sürətlənməsinə təkan verəcək. Bu üzdən Rusiya tərəfi bütün görüşlərdə kommunikasiyaların açılmasının tərəfdarı kimi çıxış edir. Konfransda iştirak edən Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuk ölkələr arasında iqtisadi əlaqələrin inkişafında nəqliyyat-kommunikasiyalarının açılmasının əhəmiyyətini vurğulayaraq demişdir: "Azərbaycanın regionda Avropanı Asiya ilə birləşdirəcək kommunikasiyaların açılması təklifi reallaşır və bu, ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf perspektivləri baxımından mühüm rol oynayacaq". Baş nazirin müavini həmçinin bildirmişdir ki, Rusiya Azərbaycanla biznesin inkişafında maraqlıdır və iki ölkə arasında logistika, enerji və nəqliyyat sahələrində əməkdaşlıq üçün böyük potensiala malikdir.

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev də iki ölkə arasında mövcud iqtisadi münasibətləri və perspektivləri yüksək qiymətləndirmişdir. Baş nazirin müavini bildirmişdir: "Cari ilin yanvar-oktyabr ayları ərzində Rusiya ilə Azərbaycan arasında əmtəə dövriyyəsi nikbin olmağa əsas verir - bu sahədə təqribən 7 faiz (2,35 milyard dollar) artım qeydə alınıb və beləliklə, Azərbaycan Cənubi Qafqazda Rusiyanın əsas ticarət tərəfdaşına çevrilib".

İndiyədək Rusiya Azərbaycan iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyub. Azərbaycanlı iş adamları da qarşılıqlı olaraq Rusiya iqtisadiyyatına 1,2 milyard dollardan çox investisiya yatırıb. Hazırda ölkəmizdə Rusiya kapitalına əsaslanan 1110 müəssisə qeydiyyatdadır.

Azərbaycanla Rusiya arasında iqtisadi və ticarət əlaqələri bir çox sahələri əhatə edir. Şimal qonşumuz xüsusilə qeyri neft-qaz ixracatımızda böyük paya malik olan ölkədir. Belə ki, ölkəmiz öz aqrar məhsullarını bu ölkəyə ixrac etdiyi kimi, biz də Rusiyadan bu növ məhsulları alırıq. Ölkəmiz Rusiyadan aqrar məhsulları ən çox idxal edən 10 ölkədən biridir. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-oktyabr aylarında qeyri neft-qaz ixracatında Rusiya 32,4 faizlə birinci yerdə qərarlaşıb. Həmin dövrdə ölkəyə daxil olmuş məhsulların ümumi dəyərinin 17,7 faizi bu ölkənin payına düşüb.

Məlumdur ki, işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərinin aparılması ölkəmiz üçün strateji məsələdir. Bu ərazilərin bərpası Azərbaycana qonşu ölkələrlə ikitərəfli əməkdaşlığı inkişaf etdirmək üçün geniş imkanlar yaradır. Hazırda bir çox ölkələrin, o cümlədən Rusiyanın iş adamları həmin ərazilərdə çalışmağa maraq göstərirlər.

Rusiyanın işğaldan azad edilən ərazilərə kapital qoyuluşu təkcə iqtisadi faktor deyil, həm də mühüm əhəmiyyət daşıyan siyasi hadisədir. Belə ki, uzun illər ərzində ermənilər işğal etdikləri ərazilərə Rusiya iş adamlarının kapital qoyuluşuna çalışsalar da, buna nail ola bilməmişlər. Amma həmin ərazilər işğaldan azad ediləndən sonra rusiyalı biznesmenlər bu əraziyə sərmayə yatırmaqda maraqlı olduqlarını bildirmişlər. Artıq Rusiya şirkətləri işğaldan azad edilən ərazilərdə bərpa-quruculuq işlərində iştirak etmək üçün 13 layihə barədə öz təkliflərini veriblər. Həmin layihələrdən biri olan Şərqi Zəngəzur iqtisadi regionundakı "Araz vadisi iqtisadi zonası" sənaye parkında "KamAZ" müştərək servis mərkəzinin tikintisi artıq reallaşmaqdadır.

Rusiya ilə nəqliyyat-kommunikasiya əlaqələrinin genişləndirilməsi həm ikitərəfli, həm də regional əlaqələrin inkişafına öz faydasını verir. Hazırda beynəlxalq "Şimal-Cənub" və "Şimal-Qərb" nəqliyyat dəhlizləri uğurla fəaliyyət göstərir. Bu dəhlizlər vasitəsilə Bakı-Tbilisi-Qars dəmiryolu ilə Rusiyadan Türkiyəyə yüklər göndərilir. Ötən il "Şimal-Cənub" dəhlizi üzrə yükdaşımaların həcmi 15,3, "Şimal-Qərb" dəhlizi üzrə isə 11 faiz artıb.

Prezident İlham Əliyev Brüsseldə işgüzar səfərdə olarkən dekabrın 15-də İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verərkən Azərbaycanın beynəlxalq əhəmiyyətli tranzit ölkə olduğunu vurğulayaraq demişdir: "Biz artıq Mərkəzi Asiyadan gələn mallar üçün tranzit ölkəyə çevrilmişik. Çin də öz mallarını Avropa məkanına daşıyır. Üstəgəl, əlavə üstünlük ondan ibarətdir ki, Azərbaycan "Şimal-Cənub nəqliyyat dəhlizi" üzərində yerləşir. Bu dəhliz Şimali Avropa, Rusiya, Azərbaycan, İran və Fars körfəzindən keçir. Dəmir yolu və avtomagistral olmasından asılı olmayaraq, "Şimal-Cənub" dəhlizinin Azərbaycan seqmentində aparılan bütün tikinti işləri artıq tamamlanıb. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindən sonra hər yerdə artıq Zəngəzur dəhlizi adlandırılan yeni dəhlizi açmaq üçün imkan var... Onda Ermənistanın da regional nəqliyyat şəbəkəsinin üzvü olmağa imkanı olacaq, çünki indi o, çıxılmaz vəziyyətdədir. Onun Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur, olacaq. Onun İranla dəmir yolu əlaqəsi yoxdur, Azərbaycan ərazisindən olacaq".

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Müharibənin «gizli qatil»ləri

*Əvvəli 1-ci səh.*

Lakin qüdrətli Azərbaycan 44 günlük Vətən müharibəsində düşməni necə məhv etdisə, eləcə də onun basdırdığı mina və digər partlayıcı maddələri sürətlə zərərsizləşdirir. Qarabağın giriş qapısı sayılan Ağdamda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) mütəxəssislərinin minatəmizləmə əməliyyatlarına etdiyi şahidlik bunu söyləməyə tam əsas yaradır.

## Bircə səhv ölümdür

Biz əraziyə çatanda minatəmizləyənlər tərəfindən hələ axtarış prosesi başlanmamışdı. ANAMA-nın 2 saylı təmizləmə qrupunun rəhbəri axtarışa başlayacaq heyəti təlimatlandırırdı.

Kənardan müşahidələr aparırıq. Əməliyyatçılar xüsusi geyimdə müxtəlif növ müasir minaaxtaran aparatlarla təchiz olunublar. Bir qədər sonra qrup hərəkətə keçir. Biz isə bütün bu proseslərə nəzarət edən supervayzer Xaliq Zülfüqarovla söhbətləşirik.

17 ildir bu sahədə çalışdığını bildirən Xaliq Zülfüqarov müharibədən sonra Cəbrayıl-Füzuli istiqamətində aparılan əməliyyatlarda iştirak edib. Mütəxəssis deyir ki, ANAMA tərəfindən indiyədək işğaldan azad olunmuş ərazilərdə "gizli qatillər"in axtarışında böyük işlər görülüb. Ağdamda isə bir neçə layihə işlənərək aidiyyatı üzrə təhvil verilib.

Mütəxəssisin sözlərinə görə, hazırda həyata keçirilən əməliyyatlarda iştirak edən minaaxtaranların hamısı xüsusi təlimlər, kurslar keçdikdən sonra ərazilərə ezam olunublar. Bütün bunlar ANAMA-nın Göygöl rayonunda yerləşən xüsusi təlim bazasında baş verir. Bununla belə kurs keçib ərazilərə ezam olunan yeni əməkdaşlar birbaşa əməliyyat qruplarına daxil edilmirlər. Müəyyən təlimatlardan, məşqlərdən sonra təmizlənmiş ərazilərdə yoxlama xarakterli axtarışlar aparırlar. Bu müddətdə onların psixoloji, fiziki durumlarına nəzarət edilir və sonra təmizlənməmiş ərazilərdə aparılan yoxlamalar üzrə qruplara daxil edilirlər.

## "Gizli qatillər"i xüsusi təlim görmüş itlər də tapırlar

Minalanmış ərazilərin təmizlənmə prosesinə gəldikdə isə mütəxəssis deyir ki, öncə ərazilərin qeyri-texniki və ardınca isə texniki tədqiqatı həyata keçirilir. Sonra yerin relyefinə və əməliyyatın planlanmasına başlanılır və həmin ərazidə ola biləcək partlayıcıların xüsusiyyətləri müəyyənləşdirilir.

ANAMA-ya məxsus kənardan idarəetmə üsulu ilə işləyən mexaniki təmizləmə maşınlarından istifadə etməklə "ərazilərin kiçildilməsi" əməliyyatları həyata keçirilir. Xaliq Zülfüqarovun sözlərinə görə, böyük ərazilərdə, xüsusən də minalı olmasına dair ilkin əlamətlər olmayan hallarda əl ilə axtarış aparmaq vaxt itkisi yaradar. Ona görə də mexaniki təmizləmə maşınları müəyyən edilmiş əraziyə çıxarılır və texnika hərəkət etdikdə hansı hissədə mina partlayırsa və ya texnikadan sonra partladılmadan qırılmış mina parçaları aşkar edilirsə, bu, artıq mina sahəsinin aşkarlandığını bildirir. Sonra ərazi işarələnir və həmin yerdə əl ilə axtarışlara başlanılır. Bir sözlə, mexaniki təmizləmə texnikası riskləri azaldır, torpağı yumşaldır, işə mane olacaq kolları aradan qaldırır və təmizləmə əməliyyatının aparılmasını sürətləndirir. Axtarışların aparılması supervayzerlərin qərarından asılı olur: "Müəyyən proseslərdən sonra qərar verilir ki, burada əllə və ya avadanlıqla, ya da xüsusi təlim görmüş itlərlə axtarışlar aparılmalıdır. Ola bilər ki, hər 3 vasitədən də istifadə edilsin. Çünki zirehli texnika əleyhinə minaların dərin qatlarda da yerləşməsi mümkündür. Bu zaman xüsusi avadanlıqdan istifadə etmək lazım gəlir. Piyadalar əleyhinə fuqas (partlayış dalğalı) minaları adi metal detektoru ilə aşkar etmək çox çətindir, çünki bu cür minaların gövdəsi əsasən plastik materiallardan hazırlanır və onların daxilində isə bir neçə qram metal olur. Minanın materialı plastikdən olsa da, bütün minalardakı partlayıcı maddənin tərkibi təxminən eynidir və həmin maddələri iyduyma qabiliyyəti güclü olan xüsusi təlim keçmiş itlərin köməyi ilə aşkar etmək mümkündür. Minaların zərərsizləşdirilməsi isə milli və beynəlxalq minatəmizləmə standartlarına uyğun həyata keçirilir. Həmin standartlarda göstərilir ki, bütün mümkün hallarda aşkarlanmış mina və sursatlar yerində partladılmalıdır".

Axtarışların aparılması prosesi 2 mərhələli ola bilir. Əgər ərazidə aparılacaq tikinti işləri zamanı dərin qazıntı olmayacaqsa, metal detektorlar və itlərlə axtarış hədəfə çatmaq üçün kifayət edir. Yox, əgər həmin ərazidə yaşayış binaları tikiləcəksə və ya böyük obyektlərin inşası nəzərdə tutulursa, o zaman xüsusi avadanlıqlarla axtarışlar aparlmalıdır. Təmizləmə dərinliyi son istifadəçilərin niyyətlərinə görə öncədən müəyyən edilir.

Hazırda isə Ağdam şəhərində tikiləcək yaşayış binalarının, bayraq meydanının ərazisində minalardan təmizləmə əməliyyatı həyata keçirilir. Bu ərazilərdə axtarışlar 2 mərhələli - həm üz qatda, həm də iri sursatların aşkar edilməsi üçün 6 metr dərinliyə qədər olan hissədə aparılacaq.

Ağdam ərazisində aparılan ümumi yoxlamalardan danışan mütəxəssis deyir ki, şəhərin müxtəlif yerlərində düşmənin basdırdığı daha çox piyada əleyhinə olan "PMN- G" minalarına rast gəlinir. Çünki bu minalar Ermənistanda istehsal edilir. Kustar üsulla, yəni əldə düzəldilən partlayıcılar da tapılıb: "Düşmən "sürpriz" kimi əldədüzəlmə partlayıcı tələlər də qurub. Yol üzərində olan müxtəlif diametrli dəmir su borularının içərisinə elektrik detonatoru və trotil adlı partlayıcı yerləşdiriblər. Həm də borunun içərisini kəsilmiş məftillərlə doldurublar. Bununla da qəlpələnən mina yaradıblar. Onları səngərlərin üstünə düzüblər ki, Azərbaycan əsgəri hücum edəndə kənardan idarə etməklə partlatsınlar. Amma bəzilərini partlada bilməyiblər. Aşkar etdiklərimizi isə zərərsizləşdirmişik".

## Tərkibində iynənin ucu boyda metal olan minanı tapan cihazlar var

Bir qədər söhbətləşdikdən sonra diqqətimizi minaaxtaranların olduğu əraziyə yönəldirik.

Axtarış aparılan sahədə müxtəlif rənglərə boyanmış hündür (1.20 sm) və kiçik (60 sm) taxta payalar yan-yana basdırılıb. Qırmızı rəngli hündür payalar sərhəd xəttini, göy payalar başlanğıc xəttini, qara payalar itlərin mina tapdığı əraziləri, ağ rəngli payalar isə ərazinin təhlükəsiz olduğunu göstərir. Sarı payalar isə mina çıxarılan ərazilərə vurulur.

Axtarış aparan qrupdan bir nəfər "Ferex" adlı cihazla (yerin 6 metr dərinliyinə qədər olan məsafədə yerləşən metal obyektlərin və sursatların maqnit sahəsini ölçərək) müəyyən trayektoriya ilə hərəkət edir. O, 6 metr dərinliyə qədər torpağın altında tərkibində dəmir olan bütün əşyaları müəyyənləşdirir. Sonra ərazidən kənara çıxaraq aparatın müəyyən etdiyi yaddaşı kompüterə köçürür. Qrup rəhbəri bu görüntülərə baxaraq qərarlar verir.

"Ferex"lə hərəkət edən şəxsdən bir qədər aralıda isə iki nəfər bir-birindən 4-5 addım məsafədə "Schonstedt"lə, yəni əldə tutulan maqnit lokatorlarla axtarış aparırlar. Onlardan bir qədər arxada isə qrup rəhbəri hərəkət edir. Hər hansısa bir detal aşkarlanırsa, minaaxtaran şəxs dayanıb bir əlini havaya qaldırır. Bunu görən qrup rəhbəri ona yaxınlaşır və ilkin yoxlama aparıb göstərişini verir. Bundan sonra qazma əməliyyatına başlanılır. Əgər tapılan metaldırsa, metal toplama, partlamamış hərbi sursatdırsa, sursatların müvəqqəti saxlanması ərazisinə təhvil verilir.

Bəzi hallarda mina detektoru ilə də axtarışlar aparılır. Bu cihaz hətta tərkibində iynənin ucu boyda metal olan minanı da müəyyən edə bilir.

Ərazi yoxlanıldıqdan sonra həmin qrupun sahə rəhbərləri tərəfindən daxili keyfiyyət yoxlaması aparılır. Bir qədər sonra əraziyə başqa bölgədən xarici keyfiyyət yoxlaması heyəti gələrək son yoxlama aparır. Bu qrup birbaşa ANAMA-nın baş qərargahına tabedir. Yoxlama apardıqdan sonra görülən işin keyfiyyəti ilə bağlı baş idarəyə məlumat verir. Bundan sonra ərazidə çalışacaq şirkətə təhlükəsizlik üçün tamamlanma sertifikatı verilir.

## Qeyri-adi hadisələrlə zəngin olan minaaxtaran həyatı

45 dəqiqə əməliyyat aparıldıqdan sonra bütün heyətə eyni vaxtda 15 dəqiqə fasilə verilir. Vaxtdan istifadə edərək ANAMA əməkdaşlarının çay süfrəsi ətrafında dəmlədikləri "samovar" çayından içə-içə söhbətləşirik.

Xalq arasında belə bir deyim var ki, adətən minaaxtaranlar bir dəfə səhv edirlər, o da bu sənəti seçəndə. Amma sən demə, bu fikir yalnış imiş. Xaliq Zülfüqarov bildirir ki, nə qədər təhlükəli olsa da, onlar hər gün "gizli qatil" axtarışına çıxırlar. Bilirlər ki, bircə səhvləri ölümdür. Elə bu səbəbdən də daim psixoloji cəhətdən hazırlıqlı və çox diqqətli olurlar. Bununla da həm özlərinin, həm də digərlərinin təhlükəsizliyinə təminat verirlər.

Fasilə yarandığı üçün minaaxtaranlardan birinə yaxınlaşıb söhbətləşirik. Saqif Kərimov 2014-cü ildən bu sahədə çalışır. O, noyabrın 18-dən ANAMA-nın Zəngilan bazasından Ağdama ezam olunub. İndiyədək bir çox əməliyyatlarda iştirak edib. Deyir ki, minaaxtaranın ilk növbədə psixoloji durumu yaxşı olmalıdır: "Əgər minaaxtaran hansısa problem səbəbindən narahatdırsa, fikirlidirsə, qrup rəhbəri onun əməliyyata başlamasına icazə vermir. Çünki bir səhv həm özünün, həm də neçə şəxsin ölümünə səbəb ola bilir. Ona görə də biz hər zaman işə başlayarkən ayıq-sayıq, tam hazırlıqlı vəziyyətdə oluruq. Bir sözlə, əraziyə çıxarkən əməliyyatçının fikri başqa problemlərdə olmamalıdır. Onun zərrə qədər fikirli olması böyük faciəyə səbəb ola bilər".

Saqifin sözlərinə görə, axtarış aparılan ərazilərdə tapılan əsasən piyada və tank əleyhinə olan minalardır. Bəzən "sürpriz"lər də olur. Düşmən tank əleyhinə olan minaların üzərinə piyada əleyhinə minaları da yerləşdirir. Bu da böyük partlayışa səbəb olur. Ona görə də mina axtarışı prosesi çox dəqiqliklə aparılır.

Bir qədər sonra yenidən qrup üzvləri ayrılmış ərazidə əməliyyata başlayırlar. Biz isə cüzi səhvi belə bağışlanmayan, məsuliyyətli peşə sahiblərinə təşəkkürümüzü bildirərək ayrılırıq.

## Müharibədən sonra 200 nəfərə yaxın insan minaların qurbanı olub

Göründüyü kimi, İkinci Qarabağ müharibəsi başa çatsa da, onun ağır fəsadları hələ də qalmaqdadır. Düşmənin mina xəritələrini tam olaraq Azərbaycana təhvil verməməsi səbəbindən indiyədək 200 nəfərə yaxın insanımız mina partlayışı səbəbindən həlak olub və ya ağır yaralanıb.

ANAMA-nın son məlumatına görə, 2020-ci ilin noyabr ayından 26 dekabr tarixinədək işğaldan azad edilmiş ərazilərdə agentlik tərəfindən aparılan təmizləmə əməliyyatları zamanı 10,472 ədəd piyada əleyhinə, 4,775 ədəd tank əleyhinə mina və 13,210 ədəd partlamamış hərbi sursat (cəmi: 28 457 ədəd mina və PHS) aşkar olunaraq zərərsizləşdirilib. Nəticədə 66, 892, 166 kv.m (6,689 ha) hektardan çox ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

Əlbəttə ki, Ermənistanın israrla davam etdirdiyi mina terroru regionda qarşılıqlı etimada və sülh prosesinə təhdiddir. Digər tərəfdən beynəlxalq humanitar hüquqa və konvensiyalara görə, dinc əhaliyə təhlükə yaradan minalama hərbi cinayət sayılır.

Nəhayət, dünya ictimaiyyəti görməli və anlamalıdır ki, minalanmış ərazilər problemi təkcə öz ərazi bütövlüyünü bərpa etmiş Azərbaycan üçün deyil, ümumilikdə region üçün bitib-tükənməyən faciələrin mənbəyi olaraq qalmaqdadır. Buna görə də bölgədə sülh, əmin-amanlıq, təhlükəsizlik istəyən, iqtisadi əlaqələrin genişlənməsində maraqlı olan bütün dövlətlər Ermənistanın sərhəd tanımayan müharibə cinayətlərinə sərt mövqe nümayiş etdirməlidirlər.

Ancaq əminliklə deyə bilərik ki, minatəmizləmə prosesi nə qədər çətin olsa da, İlham Əliyevin yenidən qurduğu Ağdamda şahidlik etdiyimiz mənzərə onu deməyə əsas verdi ki, tezliklə şəhər tamamilə "gizli qatillər"dən təmizlənəcək və xarabalıqlar üzərində möhtəşəm, əzəmətli şəhər salınacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Şeyxülislam Allahşükür Paşazadə Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə soydaşlarımıza müraciət edib



**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə bütün dünyada yaşayan soydaşlarımıza müraciət ünvanlayıb.**

AZƏRTAC QMİ-nin mətbuat xidmətinə istinadən müraciəti təqdim edir: "Yer kürəsinin müxtəlif nöqtələrində yaşayan soydaşlarımıza müraciət edərək Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edir, Uca Yaradanımızdan xeyir-dualar diləyir və ən xoş arzularımı yetirirəm.

Bu il dünya azərbaycanlıları həmrəylik gününü və yeni təqvim ilini dövlətimizin tarixində möhtəşəm bir ildönümü əhval-ruhiyyəsi ilə qeyd edirlər. Qarabağ Zəfərinin tarixi dəyər və mübarək fəlsəfəsi hər bir azərbaycanlı üçün tarixi ədalətin bərpası yolunda Haqq savaşımızın şərəf və qürur mənbəyidir. Azərbaycan torpaqlarının 30 illik erməni işğalına son qoyan Vətən müharibəsində Qələbəmizin milli-mənəvi dirçəlişimizin, dövlətçilik qüdrətimizin, Vətən sevgisinin, iman gücünün zirvəsi olaraq xalqımızın qəlbində və yaddaşında önəmi olduqca böyükdür.

Uca Allahın köməyi ilə rəşadətli Azərbaycan Ordusu beynəlxalq hüququn təmin edə bilmədiyi ərazi bütövlüyümüzü bərpa etmək kimi şərəfli vəzifənin həyata keçirilməsi missiyasını Prezident, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev cənablarının rəhbərliyi ilə həyata keçirdi. Azərbaycan xalqı illərlə həsrətində olduğu əzəli torpaqlarını işğalçıdan, öz milli, dini, mədəni abidələrini əsarətdən azad etmək yolunda, bərbad edilmiş şəhər, kəndlərimizə, yaşayış məskənlərimizə sahib çıxmaq üçün haqq mübarizəsini qalibiyyətlə tamamladı. Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda qəhrəmancasına vuruşan ordumuz müzəffər liderimizin siyasi iradəsi və qalib sərkərdəliyi ilə dünya hərb tarixinə Şuşa qalasının alınması kimi şanlı səhifə yazdı, Azərbaycan Bayrağını əzəli torpaqlarımızda ucaltdı. Vətən torpağı uğrunda canını fəda edərək şəhidlik məqamına yüksəlmiş Azərbaycan Ordusunun bütün qəhrəman əsgər və zabitlərinə, mülki şəxslərə Allahdan rəhmət, şücaətli qazilərimizə şəfalar diləyirik.

Şükürlər olsun ki, hər il növbəti bayramımızı Şuşanın Cıdır düzündə qarşılamaq amalı ilə yaşayan xalqımızın niyyəti hasil oldu. Möhtərəm Prezidentimiz Zati-aliləri cənab İlham Əliyev Azərbaycan xalqına verdiyi əhdə hər zaman sadiqlik nümayiş etdirir, ən ülvi arzularımızı gerçəkləşdirir. Azərbaycan xalqının, dindarların duaları Uca Yaradanın köməyi ilə müstəcab oldu. Azərbaycan torpaqlarını işğaldan azad etməklə nəinki dünya azərbaycanlılarının 30 illik Qarabağ həsrətinə, həmçinin insanlıq tarixində böyük ədalətsizliyə, terrora, vandalizmə, bəşəri cinayətlərə son qoyuldu, məscidlərimiz, ziyarətgahlarımız əsarətdən qurtuldu. Azad Qarabağ məscidlərinin minarələrindən ucalan Azanlar bizim milli, dini kimliyimizin təsdiqi və mənəvi qələbəmizin rəmzidir.

Azərbaycan torpaqlarında erməni vandalizminin acı nəticələri - vəhşicəsinə dağıdılmış şəhər və kəndlərin, mənəvi məkanların tezliklə bərpası ilə bağlı hazırda sürətlə aparılan genişmiqyaslı quruculuq işləri bizi hədsiz sevindirir. Bu gün dövlətimiz Azərbaycan xalqının əbədi, əzəli torpaqlara Böyük Qayıdışını təmin etmək, viran edilmiş torpaqlarımıza yeni nəfəs vermək, Qarabağda müasir, yüksək səviyyədə həyat şəraiti təmin etmək istiqamətində fövqəladə zəhmətlər reallaşdırır. Zati-aliləri və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək mənəvi dəyərlərə ənənəvi olaraq diqqət və qayğı ilə yanaşması bütün dünya üçün nümunədir. Şuşada yeni, möhtəşəm məscid binasının təməlinin qoyulması, işğalçılar tərəfindən vandalizmə məruz qalmış məscid, məbəd və ibadətgahlarımızın böyük məhəbbət və qayğı ilə bərpa və yenidən qurulması bizi hədsiz sevindirir. Füzulidə bu yaxınlarda fəaliyyətə başlamış beynəlxalq hava limanı, Şuşaya aparan Zəfər yolu bizim əminliyimizi, nikbinliyimizi artırır. Uca Allahın köməyi ilə, müdrik dövlət rəhbərimizin misilsiz səyləri ilə, əminik ki, ən qısa zamanda Azərbaycanın Qarabağ torpaqları öz yeni, gözəl görkəmi ilə hər birimizi sevindirəcəkdir.

Vətən müharibəsində Qələbəmiz qlobal əhəmiyyətli, dünya siyasətinin gedişatına təsir qüdrətində olan bir zəfərdir - haqqın, ədalətin şər üzərində qələbəsidir. Bu, İslam dünyası adına və sülhsevər dünya ictimaiyyəti adına böyük qələbədir. Bu yaxınlarda BMT-nin Ədalət Məhkəməsinin Azərbaycanın haqqını müdafiə etməsi, Ermənistanın bizə qarşı əsassız iddialarını təmin etməməsi də ədalətli mövqeyimizin təsdiqi olan rəmzidir. Monoetnik, işğalçı, qəsbkar Ermənistanın multikultural, bəşəri dəyərlərə sadiq Azərbaycana qarşı iddia qaldırması, heç şübhəsiz ki, riyakarlıqdan başqa bir şey deyil.

Əziz həmvətənlər! Sizləri hər birimiz üçün önəmli olan Həmrəyliyimiz günündə təbrik fürsətindən istifadə edərək, mühüm olan bir reallığı xatırlatmaq istərdim. Dünya azərbaycanlıları cameə olaraq onilliklər ərzində Zəfərimiz üçün nə qədər fədakarlıq və təəssübkeşlik nümayiş etdirmişlərsə, Zəfərimizin nəticələrinin, bundan sonra da həyatın bütün sahələrində, bütün beynəlxalq müstəvilərdə davam etməsi üçün millət olaraq hələ çox səy göstərməli, hələ də məkr və qisasçılıq təzahürlərindən tam xilas olmamış erməni millətçiliyinin əks-hücumlarını, qarayaxma kampaniyalarını dəf etmək istiqamətində bütün qüvvəmizlə mütəşəkkil olmalıyıq. Zəfərin qazanılmasında xalq-dövlət birliyinin, milli həmrəyliyin nələrə qadir olduğuna hər birimiz və bütün dünya şahid oldu. Bu Zəfəri bizə qazandıran dövlətçilik siyasətinin yaşam gücü məhz dövlət-xalq birliyindədir. Dövlət rəhbərimizin həyata keçirdiyi xətt həm siyasi, həm mənəvi baxımdan ən düzgün yoldur. Bizə qələbə bəxş edən xalq-dövlət birliyimizi, dövlətçiliyimizi göz bəbəyimiz kimi qorumalı və milli mənafelərimiz uğrunda daim həmrəy olmalıyıq. Haqq, ədalət uğrunda mübarizə Vətənin nəfinə beynəlxalq qurumlar müstəvisində, diplomatiya sahəsində, informasiya məkanında, qlobal iqtisadi layihələr zəminində davam etməlidir. Azərbaycan naminə, millətimizin gələcək qələbələri, Vətənimizin maraqları naminə, daha artıq inkişaf və tərəqqimiz, beynəlxalq miqyasda daha böyük uğurlarımız naminə bütün dünya azərbaycanlılarını həmişə həmrəy olmağa çağırıram.

Əziz həmvətənlərim! Bir daha hamınızı Dünya Azərbaycanlılarının Həmrəylik Günü və qarşıdan gələn Yeni təqvim ili münasibətilə ürəkdən təbrik edir, ailələrinizə səadət və uğur arzulayır, Uca Yaradandan xeyir-dualar diləyirəm.

Qadir Allah hər zaman yardımçımız olsun, xalqımızı, müstəqil dövlətimizi və müdrik dövlət rəhbərimizi qorusun, Azərbaycanımızı hifz etsin! Amin!"

***Şeyxülislam Allahşükür Paşazadə***

*Bakı şəhəri, 29 dekabr 2021-ci il*

## "Azərenerji" ASC 110 kV-luq 2,3-cü "Şimal" HX-lərinin kabelə keçirilməklə yenidən qurulması və elektrikquraşdırma işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56;).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 15 000 000 (on beş milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi üzrə ən azı 3 oxşar layihədə təcrübəsi olması barədə təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, peşəkar mütəxəssislərinin olmasını təsdiq edən tərcümeyi-halları və ya digər sənədlər (əmək kitabçası və s.).*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 fevral 2022-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifi isə **22 fevral 2022-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **23 fevral 2022-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərenerji" ASC 500 kV-luq 2-ci "Abşeron" və 330 kV-luq 1-ci "Abşeron" HX-lərinin yenidən qurulması və elektrikquraşdırma işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56;).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 15 000 000 (on beş milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi üzrə ən azı 3 oxşar layihədə təcrübəsi olması barədə təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, peşəkar mütəxəssislərinin olmasını təsdiq edən tərcümeyi-halları və ya digər sənədlər (əmək kitabçası və s.).*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 fevral 2022-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **22 fevral 2022-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **23 fevral 2022-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərenerji" ASC 330 kV-luq 4-cü "Mingəçevir" HX-nin yenidən qurulması və 37-38 saylı dayaqlararası aşırımda 330 kV-luq 5-ci və 6-cı "Mingəçevir" HX-ləri ilə kəsişmədə elektrikquraşdırma işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56;).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 15 000 000 (on beş milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi üzrə ən azı 3 oxşar layihədə təcrübəsi olması barədə təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, peşəkar mütəxəssislərinin olmasını təsdiq edən tərcümeyi-halları və ya digər sənədlər (əmək kitabçası və s.).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 fevral 2022-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **22 fevral 2022-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **23 fevral 2022-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərenerji" ASC 110 kV-luq 1-ci və 2-ci "Şəmkir" EVX-lərin giriş-çıxış sxemi ilə "Gəncə-2" YS-na qoşulması və 330 kV-luq 1-ci "Goranboy" HX-nin tikintisi və istismara verilməsi işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56;).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: "Kapital Bank" ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 15 000 000 (on beş milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi üzrə ən azı 3 oxşar layihədə təcrübəsi olması barədə təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, peşəkar mütəxəssislərinin olmasını təsdiq edən tərcümeyi-halları və ya digər sənədlər (əmək kitabçası və s.).*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 fevral 2022-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **22 fevral 2022-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **23 fevral 2022-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Respublikası Mərkəzi Bankının 2022-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə BƏYANATI

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının başçılığı ilə 2021-ci ildə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkə iqtisadiyyatına pandemiyanın neqativ təsirləri minimallaşdırılmışdır. Pandemiyanın yeni dalğasına baxmayaraq, ilkin və effektli antiböhran tədbirləri, peyvəndlənmə prosesinin kütləviləşməsi və sosial təcrid məhdudiyyətlərinin mərhələli yumşaldılması, eləcə də iqtisadi subyektlərin şəraitə tədricən uyğunlaşması nəticəsində iqtisadi fəallıq bərpa edilmiş, cari il üçün nəzərdə tutlan proqnozdan daha yüksək iqtisadi artıma nail olunmuşdur.*

*2021-ci ildə də ölkədə makroiqtisadi və maliyyə sabitliyinin qorunması Azərbaycan Respublikası Mərkəzi Bankının fəaliyyətinin başlıca prioritetlərini təşkil etmişdir. Cari ilin ikinci yarısından dünyanın əksər ölkələrində olduğu kimi ölkədə inflyasiya təzyiqləri artsa da, ümumilikdə makroiqtisadi sabitlik təmin olunmuşdur. İnflyasiyanın xarici fonunun əhəmiyyətli pisləşməsi şəraitində inflyasiyanın formalaşmasında xarici və daxili qeyri-monetar amillərin müəyyənedici rolunu nəzərə almaqla Azərbaycan Mərkəzi Bankının pul siyasəti monetar şərait və inflyasiya gözləntilərini idarə etmək vasitəsilə bu amillərin təsirinin yumşaldılmasına yönəldilmişdir.*

*Cari ildə yüksək neft qiymətləri, qeyri-neft ixracının əhəmiyyətli artımı şəraitində ölkənin profisitli ticarət və tədiyə balansının formalaşması milli valyutanın məzənnəsinin sabitliyinin qorunmasına və ilin yekunlarına görə strateji valyuta ehtiyatlarının artmasına imkan vermişdir. Valyuta bazarının tarazlığı şəraitində məzənnə sabitliyi xarici mühitdən gələn inflyasiyanın əhəmiyyətli balanslaşmasına şərait yaratmışdır.*

*2021-ci ildə Mərkəzi Bankın maliyyə sabitliyi siyasətində əsas prioritetləri maliyyə-bank sisteminə etimadın qorunması, risklərin minimallaşdırılması, maliyyə sektorunda idarəetmə potensialının və şoklara qarşı dayanıqlığın artırılması təşkil etmişdir. Həyata keçirilən requlyativ siyasət və risk-əsaslı nəzarət çərçivəsi maliyyə sektorunun, o cümlədən maliyyə bazarlarının müxtəlif seqmentlərinin stabil fəaliyyətinin davam etdirilməsinə imkan vermişdir.*

*2021-ci ildə real sektorun maliyyə resurslarına çıxışının genişləndirilməsinə də nail olunmuşdur. Pandemiya şəraitində biznesin kreditləşməsi üzrə ikirəqəmli artım tempi və qiymətli kağızlar bazarında müşahidə olunan yüksək aktivlik iqtisadi artımın maliyyələşmə imkanlarını genişləndirmiş, maliyyə sektorunun dərinliyi cari ildə daha da yüksəldilmişdir.*

*2022-ci ildə də Mərkəzi Bankın pul siyasəti ölkədə dayanıqlı qiymət sabitliyinin təmin olunmasına, inflyasiyanın elan edilmiş hədəf çərçivəsinə qaytarılması və dayanıqlı lövbərləşməsinə yönəldiləcəkdir. Baza proqnozlara görə yüksək dəyişkənliyə malik, xarici qeyri-monetar amillər hesabına formalaşan inflyasiyanın növbəti ilin sonuna hədəf diapazonunun yuxarı həddinə yaxınlaşacağı gözlənilir.*

*Proqnozlaşdırılan profisitli tədiyə balansı, dövlət büdcəsinə Azərbaycan Respublikası Dövlət Neft Fondundan transfertlərin əhəmiyyətli artımı 2022-ci ildə də daxili valyuta bazarının tarazlığını və milli valyutanın məzənnəsinin dayanıqlığını dəstəkləyəcəkdir.*

*2022-ci ildə də Mərkəzi Bank maliyyə sektorunun sabitliyinin təmin olunması, maliyyə inklüzivliyinin genişləndirilməsi, sığorta və kapital bazarlarının dərinliyinin artırılması, milli ödəniş sisteminin təhlükəsiz, fasiləsiz və davamlı fəaliyyətinin təmin edilməsini diqqət mərkəzində saxlayacaqdır.*

*2022-ci il və ortamüddətli strateji dövrdə də Mərkəzi Bankın əsas prioritetlərindən biri kommunikasiyasının effektivliyinin və əhatəliyinin genişləndirilməsi olacaqdır. Bu, həm iqtisadi subyektlərin gözləntilərinin effektiv idarə olunmasına, həm də makroiqtisadi koordinasiyanın effektivliyinin daha da gücləndirilməsinə imkan verəcəkdir.*

## I. 2021-Cİ İLDƏ PUL VƏ MALİYYƏ SABİTLİYİ SİYASƏTİ

### 1.1. Pul siyasətinin həyata keçirilməsi mühiti

*2021-ci ildə Mərkəzi Bankın pul siyasəti dünyanın əksər ölkələrində iqtisadi fəallığın bərpası və inflyasiya təzyiqlərinin artması, yüksək inflyasiya idxalı və əlverişli neft qiymətləri, daxili iqtisadi artıma qayıdış, fiskal və maliyyə sabitliyi şəraitində həyata keçirilmişdir.*

2021-ci ildə dünyada COVID-19 əleyhinə kütləvi peyvəndləmənin aparılması, ayrı-ayrı ölkələrdə karantin məhdudiyyətlərinin mərhələli yumşaldılması şəraitində **qlobal iqtisadiyyatda bərpa prosesi** müşahidə edilmişdir. Pandemiyanın yeni dalğasına baxmayaraq, dünya iqtisadiyyatında əhəmiyyətli paya malik ölkə qruplarında iqtisadi aktivlik göstəriciləri pandemiyadan əvvəlki səviyyəni üstələmişdir.

Beynəlxalq Valyuta Fondunun (BVF) oktyabrda açıqlanmış son proqnozlarına görə qlobal iqtisadi artımın 2021-ci ildə 5.9% olacağı gözlənilir. Qlobal ticarətin cari ildə 9.7% artacağı proqnozlaşdırılır.

2021-ci ildə **dünyanın əksər ölkələrində inflyasiya təzyiqləri** yüksəlmişdir ki, bu da əsasən pandemiya ilə əlaqədar müvəqqəti tələb-təklif uyğunsuzluğu, qlobal birja qiymətlərinin sürətli artımı, dəyər zəncirində qırılmalar, daşınma və logistika xərclərinin yüksəlməsi ilə izah olunur. Noyabrda illik inflyasiya hədəflə müqayisədə ABŞ-da 3.4 dəfə, Avrozonada 2.5 dəfə, Rusiyada 2.1 dəfə, Qazaxıstanda 1.5 dəfə, Belarusda 2.1 dəfə, Ukraynada 2.1 dəfə, Gürcüstanda 4.2 dəfə, Türkiyədə isə 4.3 dəfə yüksək olmuşdur. Son meyilləri nəzərə alaraq BVF 2021-ci ilin sonuna inflyasiya proqnozunu həm İnkişaf Etmiş Ölkələr (İEÖ), həm də İnkişaf Etməkdə Olan Ölkələr (İEOÖ) üzrə yüksəltmişdir. Bu şəraitdə bir sıra ölkələrdə mərkəzi banklar inflyasiya təzyiqlərini nəzərə almaqla pul siyasətini sərtləşdirməkdədirlər. İlin əvvəlindən indiyədək mərkəzi banklar tərəfindən 108 dəfə əsas faiz dərəcəsinin artırılması haqqında qərar qəbul edilmişdir.

2021-ci ildə **dünya bazarında əmtəə qiymətləri**nin əhəmiyyətli yüksəlməsi müşahidə edilmişdir. Dünya bazarlarının konyunkturası bir tərəfdən qlobal tələbin davamlı bərpası, digər tərəfdən isə epidemiya əleyhinə məhdudiyyətlər səbəbindən istehsalı tələbə uyğun genişləndirmək imkanlarının daralmasından təsirlənmişdir. Dünya Bankının (DB) əmtəə bazarları haqqında son məlumatlarına əsasən 2021-ci ilin noyabrında ötən ilin eyni dövrü ilə müqayisədə enerji qiymətləri 2.1 dəfə, qeyri-enerji qiymətləri 24.7% artmışdır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə noyabrda dünya ərzaq qiymətləri illik əsasda 27.3% yüksəlmişdir. Bir sıra ərzaq ixracatçılarında iqlim şəraitinin pisləşməsi də dünya ərzaq qiymətlərinə artırıcı təsir edir.

**Daşınma-logistika xərclərinin artması** və çatdırılma müddətinin uzanması dünyada inflyasiya proseslərinin güclənməsinin əsas səbəblərindən biri kimi çıxış edir. Cari ilin noyabrında 1 konteynerin daşınma xərcləri ötən ilin eyni dövrünə nəzərən 4 dəfədən çox yüksəlmiş, xammalın və hazır məhsulun çatdırılma müddəti isə 2 dəfəyə yaxın yüksəlmişdir *(Mənbə: Freightos.com).*

Qlobal iqtisadi aktivliyin artması şəraitində neftə tələbdəki yüksək artımla müqayisədə OPEC++ razılaşması çərçivəsində təklifin konservativ artırılması **neftin qiymətinə** artırıcı təsir etmişdir. Brend markalı neftin orta qiyməti 2021-ci ilin ötən dövründə 71 ABŞ dolları təşkil etmişdir ki, bu da ötən ilin orta qiymətindən (43 ABŞ dolları) 65% çoxdur. Enerji daşıyıcılarının bahalaşması enerji idxalçısı olan ticarət tərəfdaşı ölkələrində inflyasiya proseslərini sürətləndirir.

2021-ci ildə **Azərbaycanın xarici iqtisadi mövqeyi** ölkənin qeyri-neft məhsulları ixracı potensialının realizasiyası və ixrac məhsullarının qiymətinin artması şəraitində formalaşmışdır. Cari ilin yanvar-oktyabr aylarında ixrac qiymətləri indeksinin orta illik artımı 46.9% təşkil etmişdir. 2021-ci ilin 11 ayında xarici ticarət balansının profisiti ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.8 dəfə artaraq 9.4 mlrd. ABŞ dolları təşkil etmişdir. Qeyri-neft ixracı 44%, qeyri-neft idxalı isə 9% artmışdır. **9 ayda tədiyə balansı**nın cari əməliyyatlar hesabında 3.9 mlrd. ABŞ dolları və ya ÜDM-in 11%-i səviyyəsində profisit yaranmışdır.

Profisitli tədiyə balansı şəraitində ölkənin **strateji valyuta ehtiyatları** 11 ayda 4.4% (2.2 mlrd. ABŞ dolları) artaraq 53 mlrd. ABŞ dollarını, Mərkəzi Bankın ehtiyatları isə 10.2% artaraq 7 mlrd. ABŞ dollarını üstələmişdir.

Cari ildə stimullaşdırıcı makroiqtisadi siyasətin davam etməsi və xarici tələbin genişlənməsi şəraitində sosial təcrid tədbirlərinin mərhələli yumşaldılması **məcmu tələbin bərpası**na şərait yaratmışdır. 11 ayda ötən ilin eyni dövrünə nəzərən pərakəndə ticarət dövriyyəsi 3%, ödənişli xidmətlərin istehlakı 4.6% artmışdır. İstehlakın artmasında sərt karantin dövründə yaranmış yığımların xərclənməsi, kredit aktivliyinin bərpası, habelə xarici səfərlərin məhdudlaşması səbəbindən ölkədaxili xidmətlərə tələbin artması da müəyyən rol oynamışdır. Son rüblər istehlakçı inamı indeksi əhəmiyyətli yaxşılaşmaqdadır.

**Dövlət tələbi** məcmu tələbin başlıca mənbələrindən biri olaraq qalmışdır. 11 ayda dövlət büdcəsi xərclərinin ÜDM-ə nisbəti 27.6%-i üstələmişdir.

Məcmu tələbin bərpası məcmu təklifin də yüksəlməsi ilə müşayiət olunur. 2021-ci ilin 11 ayında ümumi daxili məhsul real ifadədə 5.3%, o cümlədən qeyri-neft-qaz sektoru üzrə 6.4% artmışdır. Qeyri-neft-qaz sektorunda **iqtisadi artım** başlıca olaraq ticari sektor hesabına olmuşdur. Qeyri-neft-qaz sənayesində 20.9%, kənd təsərrüfatında 3.8%-lik artım baş vermişdir.

Mərkəzi Bank tərəfindən **real sektorun monitorinqi** çərçivəsində keçirilmiş sorğular da iqtisadi aktivliyin artmaqda olduğunu təsdiqləyir. Monitorinqə görə cari ilin 11 ayında biznes inam indeksinin orta göstəricisi qeyri-neft sənayesi, ticarət, xidmət və tikinti sektorlarında ötən ilin eyni dövrü ilə müqayisədə əhəmiyyətli yaxşılaşmışdır. Ticarətdə satış gözləntisi, xidmətdə isə tələb gözləntisi üzrə orta göstəricilər cari ilin 11 ayında müsbət zonada qərarlaşmışdır. Qeyri-neft sənaye müəssisələrində istehsal güclərinin yüklənmə səviyyəsi ötən ilin eyni dövrünə nəzərən əhəmiyyətli yüksəlmişdir.

### 1.2. 2021-ci ildə həyata keçirilən pul siyasəti və onun nəticələri

*2021-ci ildə Mərkəzi Bankın pul siyasəti inflyasiyanın dinamikası və xarici fonunun pisləşməsi, inflyasiyaya təsir göstərən amillərin xarakteri - onların müvəqqəti və ya qalıcı olması, inflyasiyanın risklər balansında baş vermiş dəyişikliklər, inflyasiyanın ortamüddətli proqnozu və gözləntilər nəzərə alınmaqla formalaşdırılmışdır.*

Rəsmi statistikaya görə illik **inflyasiya** noyabrda (2021-ci ilin noyabr ayı 2020-ci ilin noyabr ayına nəzərən) 11.1% təşkil etmişdir. Orta illik inflyasiya isə yanvar-noyabr aylarında 6.2% olmuşdur.

Tənzimlənən qiymətlərin, həmçinin mövsümi xarakterli məhsulların qiymət dəyişimi nəzərə alınmadan hesablanan orta illik **baza inflyasiya** 2021-ci ilin yanvar-noyabr aylarında 3.9% təşkil etmişdir.

İnflyasiya təzyiqlərinin yüksəlməsi bütün məhsul və xidmət alt qrupları üzrə baş vermişdir. Noyabrda ərzaq məhsulları üzrə qiymət indeksi illik əsasda 14.9% yüksəlmişdir. Orta illik ərzaq inflyasiyası isə yanvar-noyabr aylarında 7.4% olmuşdur. Mövsümi amillərin tarixi təhlilləri göstərir ki, son 10 ildə hər ilin may-sentyabr aylarında ərzaq məhsulları üzrə kumulyativ olaraq orta hesabla 3.4% deflyasiya müşahidə olunurdusa, cari ilin müvafiq mövsümündə 2.3% inflyasiya olmuşdur. **Ərzaq inflyasiyası**na dünya ərzaq qiymətlərinin yüksəlməkdə davam etməsi ciddi təsir göstərmişdir. Xüsusən də kərə və bitki yağlarının, şəkər və süd məhsullarının, eləcə də çörək məmulatlarının bahalaşması dünya ərzaq qiymətlərindən əhəmiyyətli təsirlənmişdir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatlarına görə noyabrda illik əsasda dünya qiymətləri un məmulatları üzrə 23.2%, süd məhsulları üzrə 19.1%, yağlar üzrə 51.4%, şəkər üzrə 36.4% yüksəlmişdir.

Noyabrda illik əsasda inflyasiya qeyri-ərzaq məhsulları üzrə 7.1%, xidmətlər üzrə isə 9.1% təşkil etmişdir. Qeyri-ərzaq məhsulları arasında ən çox illik bahalaşma yanacaq məhsulları (20%) və inşaat materialları (12.9%) üzrə qeydə alınmışdır. Xidmətlər üzrə inflyasiyaya dövlət tənzimlənməsi tətbiq edilən qiymət və tariflərin dinamikası əhəmiyyətli təsir göstərmişdir.

**İstehsalçı qiymətləri indeksi** də ümumilikdə artıma meyilli olmuşdur. Oktyabrda ötən ilin eyni dövrü ilə müqayisədə emal sənayesində istehsalçı qiymətləri indeksi 29.9%, kənd təsərrüfatı istehsalçı indeksi isə 14.4% artmışdır. Qeyd olunanlar onu göstərir ki, xarici və daxili xərc amillərinin qiymətlərə ötürücülüyü iqtisadiyyatın sahələri üzrə fərqlənir. Kənd təsərrüfatı məhsulları üzrə istehsalçı qiyməti indeksinin artım tempinin ərzaq inflyasiyası səviyyəsindən geri qalması ərzaq məhsulları üzrə inflyasiya idxalının yüksək olduğunu göstərir. Ekspertlərin artıq "Aqroflyasiya" adlandırdıqları bu prosesin də başlıca səbəbləri qlobal tələbin artması, quraqlıq, antikovid məhdudiyyətləri, istehsal-yanacaq, gübrə, logistika xərclərinin artması təşkil etmişdir. Bununla yanaşı, daşıma xərclərinin artması ilə avtomobil nəqliyyatı ilə ölkədaxili yükdaşıma qiymətlər indeksinin illik olaraq 11.7% artması da ölkədə istehsalçı qiymətlərin artımına töhfə vermişdir.

Ümumilikdə inflyasiya təzyiqləri son vaxtlar qiymətlərin formalaşmasında həlledici rol oynayan **xarici amillər** hesabına artmaqdadır. Dünya bazarında birja məhsulları qiymətlərinin və ticarət tərəfdaşlarında inflyasiyanın yüksəlməsi, təchizat zəncirində qırılmalar və daşınma xərclərinin artımının təsirləri gözlənildiyindən daha əhəmiyyətli və davamlı xarakter alır. Bu səbəblərdən cari ilin yanvar-oktyabr aylarında idxal qiymətləri indeksinin orta illik artımı 21.4% olmuşdur. Daxili xərc amilləri, xüsusən dövlət tənzimlənməsi tətbiq edilən qiymətlərin liberallaşdırılması illik inflyasiyanın 1/4-ni izah edir. İnflyasiyanın dinamikasının formalaşmasında monetar amillərin rolu əhəmiyyətli aşağıdır. Qəbul edilmiş makroiqtisadi çərçivə və tədiyə balansının profisitinin dəstəklədiyi əsas lövbər manatın məzənnəsinin dayanıqlığı inflyasiya idxalını əhəmiyyətli dərəcədə neytrallaşdırmışdır.

İlin ötən dövründə inflyasiyanın faktiki dinamikası **inflyasiya gözləntiləri**ni müəyyənləşdirən əsas amil olmuşdur. Son 12 ayda inflyasiya gözləntiləri real sektorun bütün monitorinq olunan sektorlarında artım meyilli olmuşdur. Dekabrda aparılan sorğulara görə ev təsərrüfatlarının 82%-i inflyasiya gözləyir, o cümlədən 29%-i inflyasiya tempinin daha da yüksələcəyini düşünür. İnflyasiya gözləntilərinin yüksəlməsi tələbi artırmaqla xərclərin qiymətlərə transformasiyasını sürətləndirmək potensialına malikdir.

2021-ci ilin ötən dövründə manatın xarici valyutalara nəzərən **məzənnəsi** valyuta bazarında tələb-təklif nisbətinə uyğun olaraq formalaşmışdır. Xarici mühitdə baş verən proseslərin dolayı təsirləri ilə yaranmış gözləntilər nəticəsində yanvar ayında valyuta hərraclarında tələb artsa da, fevral ayından başlayaraq tələbin azalması və sabitləşməsi müşahidə olunmuşdur. Hesabat dövründə profisitli tədiyə balansı və strateji valyuta ehtiyatlarının artması şəraitində gözləntilərin yaxşılaşması da valyuta bazarına sabitləşdirici təsir göstərmişdir. İlin ötən dövründə Mərkəzi Bankda keçirilən valyuta hərraclarının 70%-də təklif tələbi üstələmişdir.

Manatın ABŞ dollarına nəzərən rəsmi məzənnəsi cari ildə də banklararası əqdlər üzrə orta məzənnə əsasında müəyyən edilmişdir. Banklar tərəfindən müəyyən edilən xarici valyutanın alış-satış məzənnələri rəsmi məzənnəyə yaxın trayektoriyada formalaşmışdır.

Manatla **pul bazası** 2021-ci ilin 11 ayında 5.3% artmışdır. Dövr ərzində dövlət büdcəsinin profisitli icrası və vahid xəzinə hesabının dinamikası pul bazasının aşağı templi artımını dəstəkləməklə antiinflyasiya effektinə malik olmuşdur.

**Faiz dəhlizinin parametrləri**nə dair qərarlar qlobal mühitdə baş verən proseslərin ölkə iqtisadiyyatına təsirləri, məcmu tələbin və iqtisadiyyatın bərpa tempi, inflyasiyanın faktiki və gözlənilən səviyyəsinin hədəfə nəzərən qiymətləndirilməsi, inflyasiyanın xarici və daxili amillərdən formalaşan risklər balansı nəzərə alınmaqla qəbul edilmişdir. İqtisadi artımın bərpasına dəstək məqsədilə uçot dərəcəsi 2018-ci ilin əvvəlindən 2020-ci ilin dekabr ayına kimi 16 mərhələdə azaldırılaraq 15%-dən 6.25%-ə endirilmişdir. Lakin 2021-ci ilin birinci yarısında başlıca olaraq xarici mühitdə baş verən proseslərə cavab olaraq uçot dərəcəsinin dəyişdirilməsi istiqamətində pauza götürülmüş, ilin ikinci yarısından başlayaraq isə inflyasiya proseslərinin sürətlənməsinə cavab olaraq sentyabr, oktyabr və dekabr aylarında uçot dərəcəsi 3 dəfə ardıcıl yüksəldilərək 7.25%-ə çatdırılmışdır.

İqtisadiyyatda likvidliyin effektiv idarə olunması məqsədilə Mərkəzi Bank müxtəlif **bazar əməliyyatları** alətlərindən cari ildə də adekvat istifadə etmişdir. Bank sistemində izafi likvidliyin mövcudluğu şəraitində Mərkəzi Bankın sterilizasiya alətlərinə tələb bütün aylar üzrə yüksək olaraq qalmışdır. 2021-ci ilin ötən dövründə Mərkəzi Bank 37 not hərracı keçirmişdir.

Cari ilin ötən dövründə dövlət qiymətli kağızlarının gəlirliyi və banklararası bazarda **faiz dərəcələri** əsasən azalma meyilli olmuşdur. Ümumilikdə dövlət qiymətli kağızlarının gəlirliyi müddətindən asılı olaraq 2-5 faiz bəndi civarında azalaraq ilin sonuna 4-7% intervalında formalaşmışdır. Yalnız son aylarda bu faizlərdə müəyyən artım müşahidə olunmuşdur. Kredit və depozitlər üzrə nominal faizlərdə əhəmiyyətli dəyişiklik müşahidə edilməmişdir. Cari ilin noyabrında manatla yeni kreditlər üzrə orta faiz 17%, yeni cəlb edilmiş əmanət və depozitlər üzrə orta faiz 8.5% olmuşdur. İnflyasiyanın yüksəlməsi real faizlərin azalması ilə müşayiət olunur.

2021-ci ildə depozitlərin **dollarlaşma** səviyyəsi azalmaqda davam etmişdir. Xarici valyutada əmanət və depozitlərin cəmi əmanət və depozitlərdə xüsusi çəkisi ilin əvvəlindəki 56.4%-dən tədricən azalaraq noyabr ayında 51% təşkil etmişdir. O cümlədən fiziki şəxslərin əmanətlərinin dollarlaşması ilin əvvəlindəki 50.8%-dən 41.9%-ə, kreditlərin dollarlaşması isə müvafiq olaraq 29.8%-dən 26.5%-ə düşmüşdür. 2015-ci ilin əvvəlindən ilk dəfə olaraq fiziki şəxslərin manatla əmanətlərinin xüsusi çəkisi xarici valyutada əmanətləri üstələmişdir.

Rəqəmsal alətlərdən daha geniş istifadə etməklə şəffaflıq və hesabatlığın gücləndirilməsi prinsipləri əsasında pul siyasətinin effektiv **kommunikasiyası** cari ildə də diqqətdə saxlanılmışdır. 2021-ci ildə də öncədən ictimaiyyətə açıqlanmış qrafikə uyğun olaraq Mərkəzi Bankın siyasət qərarlarına dair press-relizləri müvafiq analitik şərhlərlə dərc edilmiş, müntəzəm mətbuat konfransları keçirilmişdir. Pul siyasəti icmalı rüblük əsasda ictimaiyyətə açıqlanmışdır. Mərkəzi Bankın fəaliyyəti rəsmi internet səhifəsi, habelə Yutub kanalı, Tvitter, İnstaqram və Feysbuk sosial şəbəkələri vasitəsilə mütəmadi işıqlandırılmışdır. Mərkəzi Bankın ortamüddətli dövrə yeni kommunikasiya strategiyası qəbul edilmişdir.

### 1.3. Maliyyə sabitliyi və maliyyə sektorunun inkişafı

*2021-ci ildə Mərkəzi Bankın maliyyə sabitliyi siyasəti pandemiyanın maliyyə sektoruna neqativ təsirlərinin minimallaşdırılmasına və maliyyə-bank sisteminə etimadın qorunmasına yönəlmişdir. Həyata keçirilən requlyativ siyasət və risk-əsaslı nəzarət çərçivəsi maliyyə sektorunun bütün seqmentlərinin stabil fəaliyyətini təmin etmişdir. Cari ildə real sektorun maliyyə resurslarına çıxışının genişləndirilməsinə də nail olunmuşdur.*

Cari ildə də bank sistemi öz dayanıqlığını qorumuş, bank sektorunun sağlamlaşdırılması və kapitallaşdırılması tədbirləri davam etdirilmişdir. **Bank sektorunun kapital adekvatlığı** minimum requlyativ tələbi 1.8 dəfə üstələmişdir. Sektorun ani **likvidlik** əmsalı 58.3% olmaqla minimum tələbi (30%) 1.9 dəfə üstələmişdir.

Pandemiya ilə əlaqədar **kreditlərin restrukturizasiyası** cari ildə də davam etdirilmişdir. Pandemiya başlayandan bəri ümumilikdə 1.3 mlrd. manat məbləğində 57 mindən çox kredit restrukturizasiya olunmuşdur. Restrukturizasiya olunmuş kreditlərin məbləğ üzrə 87%-i biznes, 9%-i istehlak, 4%-i ipoteka kreditlərinin payına düşmüşdür. Qeyd edək ki, 2021-ci ilin əvvəlində pandemiya ilə bağlı tətbiq olunmuş yumşalmalardan sonra restrukturizasiya portfelinin ödənişləri üzrə müsbət dinamika müşahidə olunmuşdur. 30.11.2021-ci il tarixinə pandemiya ilə əlaqədar restrukturizasiya olunmuş portfelin qalıq məbləği 0.7 mlrd. manat təşkil etmişdir.

2021-ci ilin əvvəlindən başlayaraq Mərkəzi Bank tərəfindən pandemiya ilə bağlı tətbiq edilən **requlyativ yumşalma rejimindən mərhələli çıxış** çərçivəsində bəzi requlyativ tələblərin bərpa edilməsinə, bəzi güzəştlərin isə davam etdirilməməsinə qərar verilmişdir. Qeyd olunmalıdır ki, pandemiyanın genişləndiyi şəraitdə müvəqqəti tənzimləyici yumşalmalar iqtisadi subyektlər üçün neqativ nəticələrin məhdudlaşmasına şərait yaratmış, borcalanların maraqlarının müdafiəsinə, kreditləşmənin saxlanılmasına və maliyyə sektorunun stabil fəaliyyətinə müsbət təsir etmişdir.

Cari ildə bank sektoru üzrə **requlyativ çərçivənin** mərhələli şəkildə beynəlxalq standartlara (Bazel III) uyğunlaşdırılması, habelə banklarda risklərin idarə edilməsinin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilmişdir. Bank sektorunun kapitala aid requlyativ tələblərə tədricən adaptasiyası çərçivəsində bazar və əməliyyat risklərinin kapitalın hesablanmasında nəzərə alınması banklarda əlavə buferin yaradılmasını təmin etmişdir.

İqtisadi aktivliyin və istehlak nikbinliyinin yüksəlməsi cari ildə bank xidmətlərinə tələbatın da artmasına şərait yaratmışdır. 11 ayda bank sektorunun aktivləri 11.1%, **kredit portfeli** 15% artmışdır. Biznes kreditləri 12.4%, istehlak kreditləri 20.2%, ipoteka kreditləri 16.8% artmışdır.

Bank sisteminin **resurs bazası** genişlənməkdə davam etmişdir. 11 ayda bankların depozit portfeli (maliyyə institutlarının depozitləri istisna olunmaqla) 19.4%, o cümlədən əhalinin əmanətləri (sahibkarlıqla məşğul olan fiziki şəxslərin depozitləri istisna olunmaqla) 10.4% artmışdır. Milli valyutada əmanətlər 30.4% artdığı halda, xarici valyutada əmanətlər 8.6% azalmışdır.

Əmanətlərin tam sığortalanmasından çıxışla əlaqədar qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq **əmanətlərin sığortalanması mexanizminin yeni çərçivəsi**nin tətbiqinə başlanılmışdır. Yeni çərçivəyə əsasən, fiziki şəxslərin qorunan əmanətləri üzrə kompensasiya məbləği 30 min manatdan 100 min manata yüksəldilmişdir. Eyni zamanda, fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin depozitləri (kompensasiya məbləği 20 min manat müəyyən edilməklə) və notariusların depozit hesablarında olan fiziki şəxslərə məxsus pul vəsaitləri də əmanətlərin sığortalanması mexanizmi ilə əhatə edilmişdir. Bu dəyişikliklərin tətbiqi nəticəsində say etibarilə cəmi əmanətçilərin 99.9%-nin əmanətlərinin tam qorunması təmin edilir.

**Sığorta bazarı**nın genişləndirilməsinə xidmət edən infrastruktur elementlərinin, sığorta sektorunda qabaqcıl beynəlxalq təcrübələrə uyğun istehlakçıların müdafiəsi çərçivəsinin yaradılması istiqamətində fəaliyyət davam etdirilmişdir. Sığorta haqları 11 ayda ötən ilin eyni dövrünə nəzərən 15% artmışdır. Artım könüllü sığorta üzrə 15%, icbari sığorta üzrə isə 16% təşkil etmişdir. Sığorta sahəsində risk əsaslı nəzarət və tənzimləmə çərçivəsinə keçidlə bağlı Dünya Bankı ilə birgə layihənin icrası, mövcud icbari sığorta növlərinin tam rəqəmsallaşması istiqamətində işlər davam etdirilmişdir. Vətən müharibəsi zamanı şəhid olmuş hərbi qulluqçuların vərəsələrinə və xəsarət almış hərbi qulluqçulara həyata keçirilən icbari sığorta ödənişlərinin sürətli icrası işləri cari ildə də davam etdirilmişdir.

Ardı 10-cu səh.

# Azərbaycan Respublikası Mərkəzi Bankının 2022-ci il üçün pul və maliyyə sabitliyi siyasətinin əsas istiqamətləri barədə BƏYANATI

*Əvvəli 9-cu səh.*

2021-ci ildə iqtisadiyyatın maliyyəyə çıxışının dəstəklənməsində **kapital bazarı**nın imkanlarından istifadənin aktivləşdirilməsi təmin edilmişdir. Kapital bazarının əməliyyat infrastrukturunun təkmilləşdirilməsi, hüquqi çərçivənin beynəlxalq standartlara uyğunlaşdırılması, həmçinin bazarda tələb və təklifin dəstəklənməsi istiqamətində işlər davam etdirilmişdir. Cari ildə özəl sektorun kapital bazarından maliyyələşmə təşəbbüslərinin və fond birjasında listinqin təşviq edilməsi məqsədilə listinq tələbləri sadələşdirilmiş və investorlar üçün stimullaşdırıcı tarif rejiminin tətbiqinə başlanmışdır. Kapital bazarında maliyyə vasitəçiliyinin inkişaf etidirilməsi və maliyyə inklüzivliyinin artırılması məqsədilə qiymətli kağızlar bazarında müştəri hesablarının məsafədən açılması və sifarişlərin elektron qaydada təqdim edilməsi imkanları yaradılmış və marja ticarətinə dair tələblər təkmilləşdirilmişdir. Kapital bazarının infrastrukturunun inkişaf etdirilməsi istiqamətində Türkiyənin mərkəzi depozitarı ilə əlaqələr qurulmuş və növbəti ildən Bakı Fond Birjası ilə İstanbul Birjası arasında dual listinq modelinin tətbiq edilməsi nəzərdə tutulur. Həmçinin kapital bazarına dair maliyyə savadlılığının artırılması üzrə bazar iştirakçıları ilə birgə intensiv maarifləndirmə tədbirləri təşkil edilmişdir. 2021-ci ildə korporativ qiymətli kağızların kütləvi təklifi üzrə ümumi məbləği 535 milyon manat olan 20 emissiya prospekti təsdiq edilmiş və cari ilin ilk 11 ayında 505 milyon manat məbləğində korporativ qiymətli kağız fond birjasında yerləşdirilmişdir. Qeyd edilən dövrdə fond birjasında ticarət həcmi 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 24,3%, bu dövrdə repo bazarı isə 3,4 dəfədən çox artmışdır.

**Milli Ödəniş Sistemi**nin davamlı, sürətli və təhlükəsiz fəaliyyəti 2021-ci ilin ötən dövründə də təmin edilmişdir. 11 ayda Milli Ödəniş Sisteminin əsas komponentləri (AZIPS və XÖHKS) vasitəsilə həyata keçirilən ödənişlərin ümumi həcmi ÜDM-in 2.3 misli səviyyəsində olmuşdur. Elektron bankçılıq xidmətləri üzrə göstəricilərdə irəliləyişlər davam etmiş, Ani Ödənişlər Sisteminin əhatə dairəsi genişlənmişdir.

**Kart infrastrukturu** da genişlənməkdə davam etmişdir. Dövriyyədə olan təmassız ödəniş kartlarının sayı 2020-ci ilin 11 ayı ilə müqayisədə 2 dəfə, təmassız ödənişləri qəbul edən POS-terminalların sayı isə 29% artmışdır. 11 ayda kartlarla aparılan ölkədaxili nağdsız əməliyyatlar ötən ilin eyni dövrü ilə müqayisədə 75.4% artmışdır. Bununla da kart əməliyyatlarında nağdsız dövriyyənin xüsusi çəkisi 2020-ci ilin analoji dövrü ilə müqayisədə 23%-dən 31%-ə yüksəlmişdir.

Müasir dövrün əsas çağırışlarından olan **elektron bankçılıq** göstəriciləri üzrə də müsbət dinamika müşahidə olunmuşdur. Belə ki, 2021-ci ilin 11 ayı ərzində internet və mobil bankçılıq vasitəsilə aparılan əməliyyatların həcmi ötən ilin analoji dövrü ilə müqayisədə müvafiq olaraq 60.5% və 3.8 dəfə yüksəlmişdir.

Elektron maliyyə-bank xidmətlərinin genişləndirilməsi məqsədilə Mərkəzi Bank tərəfindən istismara verilmiş **"Rəqəmsal İdentifikasiya Sistemi"**nin (RİS) əhatə dairəsi genişlənməkdədir. 01.12.2021-ci il tarixinə 20 bank RİS platformasına inteqrasiya olunmuş, sistem vasitəsilə hüquqi və fiziki şəxslərə 1600-dən artıq bank hesabı məsafədən açılmış, 280 ödəniş kartı əldə edilmişdir.

Hesabat dövrü ərzində ölkənin maliyyə sisteminin ISO20022 standartına keçidi üzrə hazırlanmış Tədbirlər Planına uyğun olaraq işlərin icrası həyata keçirilmişdir. Standartın tətbiqi ödəniş sistemləri iştirakçıları arasında mübadilə üzrə vahid məlumat formatlarının yaradılmasına, əməliyyatlarda risklərin minimallaşdırılmasına, avtomatlaşmaya sərf olunan resursların azaldılmasına imkan verəcəkdir.

Cari ildə Azərbaycan Mərkəzi Bankı dünyada **Mərkəzi Bankın Rəqəmsal Valyutası** (MBRV) ilə bağlı aparılan araşdırmaları və bu istiqamətdə realizasiya edilən layihələri diqqətlə izləmişdir. MBRV-nın tətbiqi imkanlarının və ilkin şərtlərinin öyrənilməsi məqsədilə bəzi xarici ölkələrin mərkəzi bankları ilə əməkdaşlıq çərçivəsi də qurulmuşdur.

Nağdsız ödənişlərin inkişafına mane olan problemləri aradan qaldırmaq, yaşayış yerindən asılı olmayaraq ölkənin istənilən ərazisində əhali və biznesin ucuz və əlverişli maliyyə xidmətlərinə çıxış imkanlarını artırmaq və rəqəmsal ödəniş xidmətlərindən istifadəni genişləndirmək məqsədilə **"Azərbaycan Respublikası Mərkəzi Bankının 2021-2023-cü illər üçün Rəqəmsal Ödəniş Strategiyası"** hazırlanmış və Strategiya üzrə nəzərdə tutulan tədbirlərin icrasına başlanılmışdır.

## II. 2022-Cİ İLƏ PUL VƏ MALİYYƏ SABİTLİYİ SİYASƏTİ

*2022-ci ilə Mərkəzi Bankın pul siyasəti xarici mühitdə əhəmiyyətli qeyri-müəyyənliklərin qaldığı şəraitdə inflyasiyanın hədəf diapazonuna doğru dinamikasının təmin edilməsinə və ortamüddətli dövrdə bu diapazonda dayanıqlı lövbərləşməsinə yönəldiləcəkdir.*

*Maliyyə sektorunda dayanıqlı sabitliyin təmin edilməsi, maliyyə bazarlarının müxtəlif seqmentlərinin davamlı və stabil fəaliyyətinin dəstəklənməsi, iqtisadiyyatda maliyyə-bank sektorunun rolunun gücləndirilməsi, nağdsız ödənişlərin genişləndirilməsi istiqamətlərində siyasət və islahatlar çərçivəsi gücləndiriləcəkdir.*

### 2.1. Makroiqtisadi proqnozlar və gözləntilər

*Xarici mühitdə yüksək qeyri-müəyyənliklərin qaldığı şəraitdə növbəti ildə də ölkədə iqtisadi artımın davam edəcəyi proqnozlaşdırılır.*

Covid-19 virusunun yeni ştammlarının yaratdığı risklər və artan qeyri-müəyyənliklər şəraitində 2022-ci ildə qlobal iqtisadi artımın davam edəcəyi gözlənilir. Beynəlxalq Valyuta Fondunun oktyabr hesabatına əsasən qlobal iqtisadiyyatın 2022-ci ildə 4.9% artacağı proqnozlaşdırılır. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üzrə **iqtisadi artım** prosesinin peyvəndləmənin əhatə dairəsindən, məhdudiyyətlərin aradan götürülməsi müddətindən və həyata keçirilən stimullaşdırıcı tədbirlərin davamlılığından asılı olaraq fərqli dinamika ilə baş verəcəyi gözlənilir. İqtisadi artımın inkişaf etmiş ölkələrdə 4.5%, inkişaf etməkdə olan ölkələrdə isə 5.1% olacağı proqnozlaşdırılır. Təxirə salınmış tələbin sürətlə reallaşdırılması təklifin artımı ilə uzlaşmazsa, inflyasiya təzyiqlərinin davam edəcəyi gözlənilir. Müxtəlif stimullaşdırıcı proqramlar vasitəsilə fiskal dəstəyin və monetar siyasətin iqtisadi artım, məşğulluq və inflyasiya proseslərindən asılı olaraq dəyişəcəyi gözlənilir.

Qlobal təklifin genişləndiyi şəraitdə **dünya əmtəə qiymətləri**ndəki artımın nisbətən səngiyəcəyi proqnozlaşdırılır. Qlobal istiləşmə ilə bağlı artan problemlərin növbəti ildə də dünya ərzaq qiymətlərinə təsir göstərəcəyi istisna olunmur.

**Neftin dünya qiyməti** növbəti ildə də qlobal iqtisadi aktivlik, geosiyasi amillər və OPEC++ çərçivəsində qəbul edilən qərarların təsiri altında formalaşacaqdır. Başlıca analitik mərkəzlər tərəfindən (BVF, Dünya Bankı, ABŞ Enerji Agentliyi, Standard Chartered, Fitch, Barclays və s.) 2022-ci ilə konsensus qiymət 1 barelə görə 70.9 ABŞ dolları, o cümlədən BVF tərəfindən 64.5 ABŞ dolları səviyyəsində qiymətləndirilir. Ümumilikdə 2022-ci ildə dünyada neftə tələbin artmaqda davam edəcəyi proqnozlaşdırılır.

Qlobal əmtəə qiymətlərinin dinamikası **dünya ölkələrində inflyasiya prosesləri**nə təsir göstərən amillərdən biri olaraq qalacaqdır. İnflyasiyanın 2022-ci ildə də bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə yüksək olacağı istisna edilmir. Bu, əsasən dünya ərzaq qiymətlərindən qaynaqlanan təzyiqlər və idxalçılar üçün yüksələn enerji daşıyıcıları qiymətlərilə bağlıdır.

Qlobal logistik zəncirdə qısamüddətli pozulmalara baxmayaraq, **qlobal ticarət** həcminin 2022-ci ildə 6.7% artacağı proqnozlaşdırılır. Əmtəə ticarəti ilə müqayisədə xidmət ticarətinin daha zəif templərlə bərpası gözlənilir.

2022-ci ildə qlobal tələbin genişlənməsi və bu şəraitdə neft qiymətinin dinamikası, ticarət tərəfdaşlarında makroiqtisadi durum, qeyri-neft ixracının dinamikası **Azərbaycanın tədiyə balansı**na təsir göstərən əsas amillər olacaqdır. Qiymətləndirmələrə görə 2022-ci ildə neftin hətta 50 ABŞ dolları qiymətində tədiyə balansının cari əməliyyatlar hesabında ÜDM-in təxminən 4%-i səviyyəsində profisit gözlənilir.

Azərbaycan iqtisadiyyatının real sektorunda cari ildə başlamış artımın 2022-ci ildə davam edəcəyi proqnozlaşdırılır. Rəsmi proqnozlara görə 2022-ci ildə real **iqtisadi artım** tempinin 3.9%, o cümlədən qeyri-neft sektoru üzrə 4.9% olacağı gözlənilir. Sosial təcrid tədbirlərinin yumşaldılması, stimullaşdırıcı makroiqtisadi siyasətin davam etdirilməsi, özəl investisiyaların artımının tədricən sürətlənməsi, işğaldan azad olunmuş ərazilərdə bərpa işlərinin həyata keçirilməsi, kontr-tsiklik fiskal siyasət və makroiqtisadi sabitlik iqtisadi artım proqnozunun əsasını təşkil edir.

2022-ci ildə də **dövlət tələbi** iqtisadi aktivliyin dəstəklənməsində mühüm rol oynayacaqdır. 2022-ci ildə dövlət büdcəsi xərclərinin 2021-ci ilə nəzərən 4.7% artacağı gözlənilir. Növbəti ildən büdcə qaydasının təkmilləşdirilməsi və tətbiqin bərpa edilməsi ilə qeyri-neft fiskal kəsirin azaldılması strategiyasının həyata keçirilməsi uzunmüddətli fiskal dayanıqlığın təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

### 2.2. 2022-ci il üzrə pul siyasətinin başlıca istiqamətləri

*2022-ci ildə də pul siyasətinin başlıca məqsədi inflyasiyanın hədəf diapazonuna (4±2%) doğru dinamikasının təmin edilməsi olacaqdır. Bu məqsədə nail olmaq başlıca olaraq qeyri-monetar amillərdən - dünya ərzaq və enerji daşıyıcıları qiymətlərindən, tələb-təklif zəncirində bərpa vəziyyətindən, növbəti ilə dövlət tarif siyasətindən və makroiqtisadi siyasət çərçivəsindən asılı olacaqdır.*

Pul siyasətinin **son hədəfi** inflyasiyanın 4±2% dəhlizində idarə olunması dəyişməz qalır. Yenilənmiş son inflyasiya proqnozlarına görə baza proqnozunda qeyd olunan şərtlər daxilində 2022-ci ilin ikinci yarısından inflyasiyanın bu diapazonun yuxarı intervalına doğru irəliləməsi baş verəcəkdir.

Mövcud yüksək inflyasiya səviyyəsinə xarici amillərin təsirinin keçici xarakterini nəzərə alaraq monetar siyasət qiymətlər sabitliyi ilə iqtisadi artım və məşğulluq məqsədləri arasında çevikliyi saxlayacaqdır. Lakin situasiya qeyd olunan baza ssenaridən kənarlaşdığı təqdirdə pul siyasətinin daha sərt rejimə keçirilməsi zərurəti yarana bilər. İnflyasiya gözləntilərinin effektli idarə olunması həyata keçirilən siyasətə ictimai etibarın yüksəldilməsinə yönələcəkdir. Siyasət reaksiyası yarana biləcək qeyri-müəyyənlikləri və siyasətə inamsızlığı aradan qaldırmaqla investisiya-biznes fəallaşmasına yol açacaq, iqtisadi artımı və məşğulluğu dəstəkləyəcəkdir.

2022-ci ildə proqnozlaşdırılan neft qiymətləri, qeyri-neft ixracının artım dinamikası, nəticə etibarı ilə profisitli tədiyə balansı və təsdiq olunmuş dövlət büdcəsinə əsasən Neft Fondundan dövlət büdcəsinə transfertlərin artırılması **valyuta bazarında tarazlığı** təmin etməklə qiymətlər sabitliyinin əsas lövbəri olan məzənnə dayanıqlığını dəstəkləyəcəkdir. Valyuta bazarında tarazlığın qorunması növbəti il və ortamüddətli dövrə də xarici valyuta gəliri mənbələrinin şaxələnməsi istiqamətində islahatların sürətləndirilməsini aktuallaşdırır.

Pul siyasətinin digər aralıq hədəfi olan **pul kütləsi** iqtisadiyyatın pula olan tələbi, iqtisadi artım proqnozu və inflyasiya nəzərə alınmaqla tənzimlənəcəkdir. Rəqəmsallaşma proseslərinin təsiri ilə pul kütləsinin strukturunda baş verən dəyişikliklər də pul təklifinin tənzimlənməsi zamanı nəzərə alınacaqdır. Pul təklifinə təsir göstərmək üçün əməliyyat orientiri olaraq bankların Mərkəzi Bankdakı manatla müxbir hesabları qalığından istifadə ediləcəkdir.

Əməliyyat hədəflərinə nail olmaq üçün 2022-ci ildə də Mərkəzi Bank arsenalındakı bütün **alət** və mexanizmlərdən adekvat istifadə edəcəkdir. Alətlərin kəmiyyət parametrlərinə və dürasiyasına dair qərarlar bank sisteminin likvidlik mövqeyindən asılı olaraq operativ şəkildə veriləcəkdir. Bank sisteminin struktur profisitinin (və ya kəsiri) müntəzəm qiymətləndirilməsi davam etdiriləcəkdir. Avtonom və qeyri-avtonom amillərin likvidliyə təsirlərini qiymətləndirmək üçün likvidliyin monitorinqi və proqnozlaşdırılması sistemindən istifadə ediləcəkdir. Pul siyasəti alətlərindən makroiqtisadi proseslərin təbiətinə uyğun olaraq çevik istifadə transmissiya mexanizminin effektiv işləməsinə, həmçinin makroiqtisadi və maliyyə sabitliyinə dəstək verəcəkdir.

**Faiz dəhlizi parametrləri**nə dair qərarlar yenilənmiş makroiqtisadi proqnozlar, xarici və daxili xərc amillərinin inflyasiyaya transmissiyası, inflyasiya gözləntiləri və risk balansının dəyişimi nəzərə alınmaqla qəbul ediləcəkdir. Bu zaman kontr-tsiklik pul siyasətinin həyata keçirilməsi prinsipi əsas götürüləcəkdir. Faiz dəhlizinin Mərkəzi Bankın İdarə Heyətində müzakirəsinin əvvəlki illərdə olduğu kimi 2022-ci ildə də öncədən ictimaiyyətə açıqlanmış qrafikə (Əlavə 1) uyğun olaraq təşkil edilməsi nəzərdə tutulur.

Mərkəzi Bank pul siyasəti qərarlarının verilməsi zamanı **transmissiya** mexanizmindəki fasilələri və xüsusiyyətləri də nəzərə alacaqdır. Pul siyasəti ilə bağlı qərarların real iqtisadi dəyişənlərə (məcmu tələb, istehsal, inflyasiya) təsiri arasındakı zaman fasiləsi (laq) bir neçə rüb çəkə bilir. İqtisadiyyatda struktur dəyişikliyi ilə bağlı qeyri-müəyyənliklər şəraitində təsir fasiləsi bir qədər də uzana bilər.

İnflyasiyaya təsir imkanlarını artırmaq üçün pul siyasətinin təkmilləşdirilməsi uzunmüddətli dövrdə **hibrid inflyasiya hədəflənməsi rejiminə şərt əsaslı mərhələli keçid strategiyası** çərçivəsində həyata keçiriləcəkdir. Bunun üçün ilkin olaraq yeni rejimə keçidlə bağlı zəruri hazırlıq işləri görüləcək, baza şərtlərin reallaşması başlıca prioritet olacaqdır.

Ortamüddətli perspektivdə (2022-2026-ci illər) yeni pul siyasəti rejiminə **baza keçid şərtləri**nin yaradılması çərçivəsində Mərkəzi Bank hökumətlə birlikdə dövlət qiymətli kağızları bazarının genişləndirilməsi və aktiv pul bazarının formalaşdırılması, nağd-kölgə iqtisadiyyatının məhdudlaşdırılması, valyuta bazarında təklif kanallarının şaxələndirilməsi və effektiv makroiqtisadi koordinasiyanın gücləndirilməsi kimi istiqamətlərdə fəaliyyət göstərəcəkdir.

Pul siyasəti çərçivəsinin təkmilləşdirilməsində Mərkəzi Bankın **təhlil və proqnozlaşdırma potensialının gücləndirilməsi** də mühüm rol oynayacaqdır. Bu istiqamətdə Proqnozlaşdırma və Siyasət Təhlili Sisteminin qurulması (FPAS), orta və uzunmüddətli proqnozlaşdırma üzrə model çantasının modernləşdirilməsi, proqnoz göstəricilərinin spektrinin genişləndirilməsi, təhlil və proqnozlar üçün zəruri statistik məlumat bazasının kəmiyyət və keyfiyyətcə təkmilləşdirilməsi istiqamətində işlər görüləcəkdir. Real sektor müəssisələri və ev təsərrüfatlarına dair statistik-analitik işlərin gücləndirilməsi çərçivəsində maliyyə davranışları və iqtisadi gözləntilərə dair sorğuların təkmilləşdirilməsi, sorğu əsaslı analitik təhlillərin dərinləşdirilməsi nəzərdə tutulur.

Gözləntilərin idarə edilməsində kommunikasiya siyasətinin effektivliyinin artırılması qarşıdakı strateji dövrdə də pul siyasətinin vacib elementlərindən biri olacaqdır. İnformasiya açıqlığı siyasəti çərçivəsində pul siyasətinin məqsədi, prinsipləri, tədbirləri və nəticələri, eyni zamanda iqtisadi vəziyyətin qiymətləndirilməsi və inkişaf perspektivləri ilə bağlı maksimum operativ və tam açıq məlumatların ictimaiyyətə açıqlanması təmin olunacaqdır. Kommunikasiya texnologiyalarının inkişaf etməsi və pandemiya səbəbiylə kommunikasiya zamanı **rəqəmsal alətlərdən daha geniş istifadə** olunacaqdır. Qəbul edilmiş yeni strategiya əsasında kommunikasiyanın əhatə dairəsinin genişləndirilməsi istiqamətində də daim işlər aparılacaqdır. Müxtəlif hədəf qrupları üçün iqtisadi-maliyyə mövzularında maarifləndirmə işlərinin davam etdirilməsi də nəzərdə tutulur.

### 2.3. 2022-ci ildə maliyyə sabitliyi siyasəti və maliyyə sektorunun inkişafının prioritet istiqamətləri

*2022-ci ildə Mərkəzi Bankın maliyyə sektoru üzrə siyasəti maliyyə sabitliyinin qorunması, maliyyə vasitəçiliyinin genişləndirilməsi yolu ilə biznesin dəstəklənməsi, maliyyə-kapital bazarlarının dərinləşdirilməsi kimi istiqamətlərə yönəldiləcəkdir. Bütün bunlar maliyyə sektorunun iqtisadi artımda rolunun daha da yüksəlməsinə imkan yaradacaqdır. Rəqəmsallaşma və müasir ödəniş sistemi infrastrukturundan istifadə səviyyəsinin yüksəldilməsi istiqamətində də işlər davam etdiriləcəkdir.*

Maliyyə sabitliyinin təmin olunması istiqamətində 2022-ci il üzrə əsas siyasət və islahatlar istiqaməti ilk növbədə **bank sektorunun prudensial tənzimlənmə və nəzarət çərçivəsinin beynəlxalq standartlara (Bazel II, Bazel III) uyğunlaşdırılması** prosesinin davam etdirilməsi olacaqdır. Banklarda idarəetmənin gücləndirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması, o cümlədən korporativ idarəetmə potensialının inkişaf etdirilməsi, risklərin idarə edilməsi sistemlərinin gücləndirilməsi, insan resurslarının inkişaf etdirilməsi təşviq ediləcəkdir.

Biznes subyektləri üçün **bank kreditlərinə çıxışın asanlaşdırılması** istiqamətində işlər davam etdiriləcəkdir. Ölkədə maliyyə inklüzivliyi və dərinliyinin artırılması məqsədilə təklif amillərinin təşviq olunması, o cümlədən kreditorların hüquqlarının müdafiəsi sisteminin effektivliyinin artırılması, uzunmüddətli maliyyələşmə mənbələrinin təmin edilməsi, risklərin ötürülməsi və bölüşdürülməsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilməlidir. Tələbin təşviq olunması ilə kreditlərə sağlam tələbin artırılması üçün ilk növbədə qeyri-formal iqtisadiyyatdan çıxış və şəffaflaşmanın sürətləndirilməsi, biznes subyektlərində korporativ idarəetmənin yaxşılaşdırılması, müstəqil mühasibatlıq və audit institutlarının inkişaf etdirilməsi kimi şərtlərin reallaşdırılması tələb olunur.

**Agent bankçılığı**ın inkişaf etdirilməsi də ölkədə maliyyə xidmətlərinə çıxışın artırılmasına və maliyyə xidmətlərinin keyfiyyətinin artırılmasına töhfə verəcəkdir. Alternativ maliyyələşmənin inkişafı üçün hüquqi və tənzimləmə çərçivəsinin formalaşdırılması işləri davam etdiriləcəkdir.

**Sığorta sektoru**nda tənzimləmə və nəzarət çərçivəsinin beynəlxalq prinsiplərə və qabaqcıl standartlara uyğunlaşdırılması çərçivəsində Solvency 2 standartlarına mərhələli keçid strategiyasının icrası davam etdiriləcəkdir. Sığorta sektorunda insan resurslarının və idarəetmə potensialının inkişafı, qabaqcıl beynəlxalq təcrübələrə uyğun istehlakçıların müdafiəsi çərçivəsinin formalaşdırılması, sektorun bazar infrastrukturunun inkişafı, sığorta sektorunun rəqəmsallaşdırılması və müxtəlif çeşidli rəqəmsal xidmətlərin formalaşdırılması üzrə tədbirlər həyata keçiriləcəkdir. Bununla belə, sığorta savadlığının artırılması məqsədilə maarifləndirmə və təbliğat tədbirləri daha geniş və intensiv miqyasda davam etdiriləcəkdir.

**Kapital bazarı**nın fəaliyyətinin hüquqi çərçivəsi və əməliyyat infrastrukturunun təkmilləşdirilməsi, habelə ekosistemdə mövcud olan və kapital bazarından effektiv maliyyələşməni məhdudlaşdıran maneələrin aradan qaldırılması istiqamətində beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlıq davam etdiriləcəkdir. İnvestisiya şirkətlərində nəzarət çərçivəsinin və korporativ idarəetmənin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlərin icrası nəzərdə tutulur. Kapital bazarında maliyyə vasitəçiliyinin təkmilləşdirilməsi üzrə investisiya fondlarının fəaliyyətinin təşviq edilməsi və bankların kapital bazarında birbaşa iştirak imkanlarının yaradılması üzrə işlər davam etdiriləcəkdir. Kapital bazarı infrastrukturunun inkişaf etdirilməsi istiqamətində mərkəzləşdirilmiş ticarət və depozitar sisteminin qurulması və qiymətli kağızların emissiyası prosesinin elektronlaşdırılması nəzərdə tutulur. Kiçik və Orta Biznes (KOB) subyektlərinin kapital bazarından maliyyələşməsinin təşviqi məqsədilə onlar tərəfindən emissiya edilən korporativ istiqrazlara zəmanət və subsidiyanın verilməsi mexanizminin yaradılması üzrə tədbirlər görüləcəkdir. Mərkəzi Bankın IOSCO (Qiymətli Kağızlar üzrə Komissiyaların Beynəlxalq Təşkilatı) təşkilatına imtiyazlı üzvlüyünün təmin edilməsi, xarici investorların kapital bazarına çıxış imkanlarının artırılması məqsədilə qlobal kastodianlarla əlaqələrin qurulması, törəmə maliyyə alətləri üzrə tənzimləyici çərçivənin beynəlxalq standartlara uyğunlaşdırılması, habelə şirkətlərlə və əhali ilə maarifləndirici tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulur.

**Milli ödəniş sistemi**nin təhlükəsiz, fasiləsiz və davamlı fəaliyyətinin təmin edilməsi 2022-ci ildə də mühüm prioritetlərdən biri olacaqdır. Maliyyə infrastrukturunda qarşılıqlı məlumat mübadiləsinin effektivliyinin və səmərəliliyinin artırılması, o cümlədən ISO20022 beynəlxalq standartının tam tətbiqi nəzərdə tutulur. İnnovativ nağdsız ödənişlərin inkişaf etdirilməsi üçün beynəlxalq standartların tətbiqi çərçivəsində açıq bankçılıq modeli üzrə API standartlarının tətbiq olunması planlaşdırılır. Ödəniş infrastrukturunda kiber təhlükəsizlik səviyyəsinin gücləndirilməsi də diqqətdə saxlanılacaqdır.

Rəqabətli, innovativ və əlçatan ödəniş mühitinin formalaşdırılması, **rəqəmsal ekosistemi**n inkişaf etdirilməsi, rəqəmsal ödənişlərin əhatə dairəsinin genişləndirilməsi məqsədilə institusional mühitin yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdiriləcəkdir. Sözügedən tədbirlər çərçivəsində şəhər və rayonlarda ictimai nəqliyyatda gediş haqlarının innovativ ödəniş alətləri (bank kartları və mobil bankçılıq həlləri) vasitəsilə qəbulu imkanlarının genişləndirilməsi, təsərrüfat subyektlərində POS-terminalların əhatə dairəsinin genişləndirilməsi, POS-terminalların quraşdırılması mümkün olmayan yerlərdə QR kod ödəniş həllərinin qəbulu imkanlarının yaradılması kimi layihələr yer almaqdadır. Həmçinin rəqəmsal ödənişlər üzrə maliyyə savadlılığının artırılması, biznes və əhalinin rəqəmsal ödəniş xidmətlərindən aktiv istifadəyə təşviq edilməsi və bu istiqamətdə insan resursları potensialının gücləndirilməsi tədbirləri də davam etdiriləcəkdir.

Sürətli ödənişlər sisteminin gələcək inkişafının pul siyasəti və maliyyə vasitəçiliyi üçün əhəmiyyətini nəzərə alaraq **Mərkəzi Bankın Rəqəmsal Valyutası**nın (MBRV) ortamüddətli dövrdə tətbiqi imkanlarının qiymətləndirilməsi bir neçə istiqamətdə davam etdiriləcəkdir: I. rəqəmsal valyutanın tətbiqi üzrə siyasət, məqsəd və hədəfin dəqiqləşdirilməsi; II. maraqlı tərəflərin prosesə cəlb olunması; III. qanunvericilik bazasının formalaşdırılması; IV. yeni nəsil texnologiyadan istifadə potensialı; V. bazarın hazırlıq səviyyəsi. MBRV ilə bağlı konseptual sənədlər açıq və ətraflı kommunikasiya ediləcəkdir.

*2022-ci ildə monetar siyasət milli iqtisadiyyatda makroiqtisadi və maliyyə sabitliyinin təmin olunmasına, ilk növbədə inflyasiyanın hədəf çərçivəsinə yaxınlaşmasına, maliyyə sektorunun iqtisadi inkişafda rolunun fəallaşmasına və bu məqsədlə monetar sferada və maliyyə sektorunda islahatların aparılmasına yönəldiləcəkdir. Qarşıya qoyulan hədəflərin realizasiyası əhəmiyyətli dərəcədə makroiqtisadi siyasət institutları arasındakı koordinasiyanın effektivliyindən asılı olacaqdır.*

### Pul siyasəti qərarlarının ictimaiyyətə açıqlanması qrafiki

2022-ci ildə faiz dəhlizinin parametrlərinə dair qərarlar 8 dəfə olmaqla aşağıdakı qrafiklə ictimaiyyətə təqdim ediləcəkdir:

- 28 yanvar
- 18 mart
- 29 aprel
- 17 iyun
- 29 iyul
- 16 sentyabr
- 28 oktyabr
- 16 dekabr

Qeyd olunan tarixlərdən 28 yanvar, 29 aprel, 29 iyul və 28 oktyabr tarixlərində qərarın açıqlanması mətbuat konfransı ilə müşayiət olunacaqdır.

## “Azərenerji” ASC 110 kV-luq ikidövrəli “Böyükşor YS - Binəqədi YS” arası Elektrik Veriliş Xətlərinin tikintisi və elektrikquraşdırma işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56;).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: “Kapital Bank” ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 15 000 000 (on beş milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi işlər üzrə ən azı 3 layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları).*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 fevral 2022-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **22 fevral 2022-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **23 fevral 2022-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## “Azərenerji” ASC 110 kV-luq ikidövrəli “110/35/10 kV-luq “Kəlbəcər” YS - 110/35/10 kV-luq “Qorçu” YS” arası HX-nin tikintisi və elektrikquraşdırma işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56;).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: “Kapital Bank” ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 15 000 000 (on beş milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi üzrə ən azı 3 oxşar layihədə təcrübəsi olması barədə təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, peşəkar mütəxəssislərinin olmasını təsdiq edən tərcümeyi-halları və ya digər sənədlər (əmək kitabçası və s.).*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 fevral 2022-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **22 fevral 2022-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **23 fevral 2022-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## “Azərenerji” ASC 220 kV-luq 2-ci “Zabrat” HX-nin giriş-çıxış sxemi ilə “Böyükşor” YS-na, 220 kV-luq 4-cü “Zabrat” HX-nin giriş-çıxış sxemi ilə “Qala” YS-na, 110 kV-luq 2-ci “Maştağa” HX-nin giriş-çıxış sxemi ilə 220 kV-luq “Zabrat” YS-na qoşulması və elektrikquraşdırma işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56;).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: “Kapital Bank” ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 15 000 000 (on beş milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi üzrə ən azı 3 oxşar layihədə təcrübəsi olması barədə təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, peşəkar mütəxəssislərinin olmasını təsdiq edən tərcümeyi-halları və ya digər sənədlər (əmək kitabçası və s.).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 fevral 2022-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **22 fevral 2022-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **23 fevral 2022-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## “Azərenerji” ASC 500 kV-luq “Samux-Qardabani” Hava Xəttində yenidənqurma və elektrikquraşdırma işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu əldə edə bilərlər (Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56;).

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: “Kapital Bank” ASC Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır (yəni tender təklifləri olan zərflərin açılışı günündən sonra ən azı 60 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xətləri, elektrik istehsalı işlər üzrə başqa layihələrin layihələndirmə və tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 15 000 000 (on beş milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *sifarişçinin podratçıya təqdim etdiyi layihələr, spesifikasiyalar, sxemlər, cizgilər əsasında tender təklifləri hazırlanmalıdır. Əks halda təqdim olunmuş tender təklifləri qiymətləndirməyə alınmayacaq;*
- *iddiaçı şirkətin elektrik stansiyaların, yarımstansiyaların, elektrik verilişi xəttləri, elektrik istehsalı işləri üzrə başqa layihələrin layihələndirilməsi və tikintisi üzrə ən azı 3 oxşar layihədə təcrübəsi olması barədə təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, peşəkar mütəxəssislərinin olmasını təsdiq edən tərcümeyi-halları və ya digər sənədlər (əmək kitabçası və s.).*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **14 fevral 2022-ci il saat 15:00-a** qədər, bank təminatını və tender təklifini isə **22 fevral 2022-ci il saat 15:00-a** kimi Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına Tender və müqavilə şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **23 fevral 2022-ci il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Təyyarə reysləri təxirə salınır, səyahətlər məhdudlaşdırılır…

## “Omikron”un sürətlə yayılması bir çox ölkəni sərt tədbirlər görməyə vadar edib

*Əvvəli 1-ci səh.*

Sonrakı sıralarda Braziliya, Hindistan, Rusiya, Meksika, Peru, Böyük Britaniya, İndoneziya, İtaliya, İran, Kolumbiya və Fransa gəlir.

Bir çox ölkə “Omikron”un yayılmasının gələn il epidemioloji vəziyyəti daha da pisləşdirəcəyindən ehtiyat edərək zəruri tədbirlər görmək qərarına gəlib. Artıq bəzi dövlətlər vətəndaşlarının xaricə səyahətlərini məhdudlaşdırıb. Ötən çərşənbə axşamı “Omikron” ştamının yayılması səbəbindən dünyada 2,5 mindən çox təyyarə reysi təxirə salınıb. Eyni zamanda Yeni il şənliklərinin keçirilməsinə qadağa qoyan qərarlar qəbul edilib. İngiltərə, Almaniya, Yunanıstan, Fransada Yeni illə əlaqədar kütləvi bayram şənlikləri və ənənəvi atəşfəşanlıqlar keçirilməyəcək.

COVID-19 xəstələrinin simptomlarını izləyən ZOE tibb portalı məlumat yayıb ki, digər ştamlardan fərqli olaraq, “Omikron”a yoluxan xəstələrdə “baş dumanlanma” müşahidə edilir: “Alimlər bu simptomun tənəffüs, qan dövranı, ifrazat və bədənin digər sistemlərinin zədələnməsi nəticəsində yarandığını irəli sürürlər. Xəstələrin demək olar ki, 50 faizi qeyri-adi simptomların göründüyünü bildirib. Onların arasında “Omikron”un xarakterik əlamətlərindən biri də “baş dumanlanma”sıdır. Çox güman ki, “Omikron” ona yoluxanların yaddaşına da mənfi təsir göstərir”.

### “Omikron” ştamına yoluxma faktı qeydə alınmayıb

Azərbaycanda vaxtında və doğru verilmiş qərarların nəticəsidir ki, koronavirusla bağlı epidemioloji vəziyyət stabil və nəzarət altındadır. Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ötən çərşənbə axşamı keçirilən brifinqdə məlumat verildi ki, respublikamızda indiyə qədər dünyanın 100-ə qədər ölkəsində qeydə alınan COVID-19 infeksiyasının “Omikron” ştamına yoluxma faktı qeydə alınmayıb. Buna baxmayaraq, səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən Teymur Musayev diqqətə çatdırdı ki, Azərbaycanla həmsərhəd olan ölkələrdə “Omikron” ştamı qeydə alınıb və yayılmaqda davam edir. Ona görə də bu ştamın Azərbaycana gəlməsi və yayılması zamana bağlı olan məsələdir. O bildirib ki, yeni ştam ölkədə qeydə alınarsa, müəyyən qabaqlayıcı və məhdudlaşdırıcı tədbirlərə əl atmalı olacağıq.

Hazırda isə Azərbaycanda koronavirusun heç bir dalğası müşahidə olunmur. Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva bununla əlaqədar söylədi ki, son aylar ərzində koronavirusa yoluxma sayında ciddi artım noyabrın əvvəllərində müşahidə olunub: “Ölkəmizdə yanvardan bəri tətbiq olunan vaksinasiya prosesi nəticəsində ciddi tədbirlərə və qapanmalara ehtiyac olmadan vəziyyəti idarə edə bilirik”.

### COVID-19 əleyhinə 11 milyondan çox peyvənd dozası vurulub

Hazırkı dövrə qədər ölkədə COVID-19 əleyhinə 11 milyondan çox peyvənd dozası vurulub. İki doza vaksin alan insanların sayı 4 milyondan, indiyə qədər ölkədə “buster” doza ilə peyvəndlənənlərin sayı isə 1 milyondan çoxdur.

Respublikamızda peyvəndləməyə bu ilin yanvar ayından tibb işçilərinin vaksinasiyası ilə start verilib və vaksinasiya kampaniyası ölkədə uğurla həyata keçirilir. Prezident İlham Əliyevin beynəlxalq arenada qazandığı nüfuzu sayəsində bütün platformalarda hazırlanan vaksinlər ölkəyə gətirilib. Ölkəmizə koronavirus əleyhinə istifadə oluna biləcək yeni dərmanların gətirilməsi də müzakirə edilir.

Yeni növ koronavirus infeksiyası ilə bağlı tibb elminin gəldiyi ortaq qənaət budur ki, pandemiyadan qurtulmaq yalnız peyvəndlə mümkündür. Düzdür, hələlik peyvəndlərin “Omikron” variantına qarşı təsirləri araşdırılır və əldə edilən nəticələr kifayət qədər geniş deyil. Buna baxmayaraq, araşdırmaçılar da, ÜST də peyvəndlərin ölüm hallarının, ağır xəstəliklərin baş verməsində azalmaya səbəb ola biləcəyini qətiyyətlə bildirirlər.

Odur ki, vətəndaşlar ölkəmizdə həyata keçirilən uğurlu vaksinasiya prosesində fəal iştirak edərək bu prosesə öz töhfələrini verməlidirlər. Belə olarsa, pandemiya bəlasından da tez bir zamanda qurtula bilərik.







***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Azərbaycanda növbəti Uşaq Paralimpiya İdman Oyunları baş tutub

## "Azercell" uşaqların fiziki sağlamlığı və inkişafının təmin olunmasına öz töhfəsini verməkdə davam edir

**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC-nin dəstəyi ilə Azərbaycanda növbəti Uşaq Paralimpiya İdman Oyunları baş tutub. Sayca VI Uşaq Paralimpiya İdman Oyunları bu il hər bir idman növü üzrə ayrı-ayrı yarışlar şəklində və karantin rejiminin tələblərinə uyğun olaraq keçirilib.**

Oyunlarda Bakı, Gəncə, Şirvan şəhərləri və Naxçıvan Muxtar Respublikasından paralimpiyaçı uşaqlar iştirak ediblər. 13 noyabr - 22 dekabr tarixləri arasında baş tutan VI Uşaq Paralimpiya İdman Oyunlarında ümumilikdə 5 idman növü üzrə 120-yə yaxın uşaq yarışıb.

Uşaqlar pauerliftinq, stolüstü tennis, cüdo, üzgüçülük və para-taekvondo idman növləri üzrə oyunlarda iştirak ediblər. Hər idman növü üzrə yarışlar müxtəlif kateqoriyalarda keçirilib. Nəticədə 70-dən çox uşaq fərqli dərəcələr üzrə qalib elan olunub.

Sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasına yardım edən "Azercell Telekom" MMC bu mühüm missiyanı dəstəkləməklə ölkəmizdə uşaqların fiziki sağlamlığı və inkişafının təmin olunmasına öz töhfəsini verir.

2021-ci ilin yayında Tokioda keçirilmiş Olimpiya və Paralimpiya Oyunlarında Azərbaycan milli komandalarının tərəfdaşı kimi çıxış edən "Azercell Telekom" MMC növbəti Uşaq Paralimpiya yarışmasının iştirakçılarını və qaliblərini təbrik edir, onlara gələcəkdə daha böyük uğurlar arzulayır.

# Beş nəfər erməni hərbçi və erməni əsilli mülki şəxs qarşı tərəfə qaytarılıb

Azərbaycan Respublikası humanizm prinsiplərini rəhbər tutaraq dekabrın 29-da Macarıstan Respublikasının vasitəçiliyi ilə beş nəfər erməni əsilli şəxsi Ermənistan tərəfinə təhvil verib.

Bu barədə AZƏRTAC-a Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından məlumat verilib.

Həmin şəxslər 2021-ci il noyabrın 16-da Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədinin Kəlbəcər istiqamətində törədilən təxribatın qarşısı alınarkən saxlanılmış erməni əsilli hərbi qulluqçulardır. Qeyd olunan beş nəfər Ermənistan vətəndaşı, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları - 1 noyabr 1995-ci il təvəllüdlü Abramyan Sarkis Arturi, 18 iyun 1991-ci il təvəllüdlü Xaçatryan Arman Vaçaqani, 8 yanvar 1988-ci il təvəllüdlü Aqacanyan Vaqe Sasuni, 16 aprel 1992-ci il təvəllüdlü Xaçataryan Suren Levai və 4 oktyabr 1997-ci il təvəllüdlü Avetyan Aram Artemidir.

Dövlət Komissiyasından bildirilib ki, 2021-ci il noyabrın 26-da, dekabrın 4-də və 19-da da Azərbaycan qarşı tərəfə 21 nəfər erməni əsilli hərbi qulluqçunu qaytarıb.

Dekabrın 29-da bir nəfər erməni əsilli mülki şəxs, 24 aprel 1971-ci il təvəllüdlü Verdyan Armen Abrikoviç yolu azaraq Azərbaycan hərbçilərinin nəzarətində olan əraziyə daxil olub. Azərbaycan humanizm prinsiplərinə sadiq qalaraq həmin şəxsi Ermənistana təhvil verib.

Qeyd edək ki, cari il noyabrın 26-da da daha bir erməni əsilli mülki şəxs qarşı tərəfə qaytarılıb.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən 24 dekabr 2021-ci il tarixdə keçirilmiş "Xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün bayram tədbirlərinin təşkili" adlı müsabiqənin qalibi "Sosial-İqtisadi Təşəbbüslərə Dəstək" İctimai Birliyi olmuşdur.

*Tender komissiyası*

◆ Dünya gündəmi

# Livan xaosdan qurtulacaqmı?

## Ölkədə parlament seçkilərinin keçirilmə tarixi nəhayət ki, razılaşdırılıb

Livanın Baş naziri Nəcib Mikati parlament seçkilərinin keçirilməsi ilə bağlı fərmanın imzalandığını açıqlayıb və yeni hökumətin, nəhayət, gələn il iclasa toplaşacağına ümid etdiyini bildirib. Səsvermə 2022-ci il mayın 15-nə təyin edilib. Mikatinin dediyinə görə, bu tarix Prezident Mişel Aunla razılaşdırılıb.

Bu ilin oktyabrında Livan parlamenti səsvermənin 27 mart 2022-ci il tarixdə keçirilməsi haqqında qanunu təsdiq edib. Prezident onu imzalamayıb və seçkilərin təxirə salınması təklifini irəli sürüb. Lakin Milli Məclis bu düzəlişləri rədd edib.

"Güclü Livan" xristian bloku keçirilmiş səsvermə proseduruna etiraz edərək iclas zalından gedib. Daha sonra daxili işlər naziri Bassam Mavlavi bildirib ki, onun idarəsinə seçkilərə hazırlıq üçün ən azı üç ay vaxt lazım olacaq və buna görə də səsvermənin may ayına köçürülməsi məqsədəuyğundur. Eyni zamanda, o vurğulayıb ki, Baş nazirdən və Prezidentdən əvvəl seçki haqqında qanunu imzalamayacaq.



## Problemləri 7 ilə də həll etmək mümkün deyil

Mişel Aun hesab edir ki, hazırda Livan hökuməti qarşısında duran bir çox problemləri nə parlament seçkilərinədək, nə də yaxın altı-yeddi il ərzində həll etmək mümkün olacaq.

2019-cu ilin payızında ölkənin iqtisadi sistemi sürətlə dağılmağa başladı ki, bu da əsasən onun strukturu ilə əlaqəlidir. Məsələ ondadır ki, vətəndaş müharibəsindən sonra Livan funtunun məzənnəsi 1507,5:1 nisbətilə dollara bağlanıb. Beyrut milli valyutanın dəyərini saxlamaq üçün xaricdəki livanlı diasporun köçürmələri, kreditlər, turizm sahəsi, investisiyalar vasitəsilə maliyyələşdirilən əhəmiyyətli dollar ehtiyatlarını saxlamağa borclu idi.

Nəticədə elə bir vəziyyət yaranıb ki, müxtəlif məhsulları idxal etmək onları Livanda istehsal etməkdən daha sərfəli olub. Bu səbəbdən hətta ölkənin kənd təsərrüfatı da tənəzzülə uğrayıb. Bundan sonra xarici investisiyalar azalmağa başlayıb ki, bu da büdcə kəsirinin artmasına gətirib çıxarıb. Kreditlərə xidmət etmək üçün hökumət əhaliyə öz dollar yığımlarının birdəfəlik verilməsini məhdudlaşdırıb və sosial xərcləri azaldıb. Bu tədbirlər isə kütləvi etirazlara və yekunda hökumətin istefasına səbəb olub.

## Perspektivsiz həyat miqrasiyanı gücləndirir

Sistemin çökməyə başladığı sürət (xarici banklar bir ay ərzində ölkəni tərk ediblər) xaricdən qəsdən təxribat törətmək ehtimalı yaradır. Politoloq Vyaçeslav Matuzovun fikrincə, Livan iqtisadiyyatı əhalini "Hizbullah" şiə təşkilatını özbaşına zərərsizləşdirməyə təhrik etmək üçün "çökdürülüb".

İstənilən halda, milli valyutanın çökməsindən sonra ölkənin iqtisadi həyatının digər sahələrində də çökmə baş verib, yanacaq çatışmazlığı nəqliyyatı iflic edib, əhali və sənaye üçün elektrik enerjisi kəsiri yaradıb, idxal olunan ilk zəruri məhsulların böyük əksəriyyəti ya əlçatmazdır, ya da əhalinin xeyli hissəsi üçün həddindən artıq bahadır. İşsizlik 40 faiz civarındadır, əhalinin 80 faizdən çoxu yoxsulluq həddində yaşayır.

Sosioloqların dediyinə görə, livanlıların təxminən üçdə ikisi (söhbət əsasən gənclərdən gedir) öz vətənlərində həyat üçün perspektivlər görmədiyindən, ölkəni əbədi olaraq tərk etməyə çalışır.

***Rizvan HİLALOĞLU, "Azərbaycan"***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

# Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə MƏLUMAT

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Qanun) 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciətlər əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 24 dekabr 2021-ci il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 4 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

Bundan əlavə, İdarə Heyətinin eyni tarixli qərarı ilə lisenziya sahiblərinin lisenziyalarının qüvvəsinin dayandırılmasına əsas vermiş halları müəyyən edilmiş müddətdə aradan qaldırmadığını nəzərə alaraq Qanunun 107.1.2-ci maddəsinə müvafiq olaraq siyahıda göstərilən (siyahı əlavə olunur) 47 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

## "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən ləğv olunan lisenziyaların SİYAHISI

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Cəlilova Leyla Qasım qızı | 01.10.2010 | 000367 | 2001775292 |
| 2 | Hüseynov İlham İslam oğlu | 24.01.2012 | 000532 | 7300657162 |
| 3 | Mehtiyev Rəşad Qəşəm oğlu | 05.10.2018 | SA-0048 | 2003032712 |
| 4 | Əmirov Səid Maşallah oğlu | 12.10.2018 | SA-0100 | 3200524982 |

## "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.2-ci maddəsinə əsasən ləğv olunan lisenziyaların SİYAHISI

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Azayev Emil Sabir oğlu | 12.01.2017 | SA-006 | 1601481082 |
| 2 | Həsənova Ziyafət İmran qızı | 05.10.2018 | SA-0092 | 2304204172 |
| 3 | Məmmədli Elsevər Vidadi oğlu | 12.10.2018 | SA-0104 | 3101490842 |
| 4 | Atayev Seymur İmalxan oğlu | 03.12.2018 | SA-0115 | 2905072632 |
| 5 | Əliyev Vahid Rüstəmbəy oğlu | 10.01.2019 | SA-0128 | 1804215902 |
| 6 | Novikova Polina Yuryevna | 23.04.2019 | SA-0147 | 1603442772 |
| 7 | Mustafayev Adil İmran oğlu | 14.08.2019 | SA-0159 | 8503077482 |
| 8 | Qurbanlı Qurban Əfqan oğlu | 14.08.2019 | SA-0161 | 8503105592 |
| 9 | Məmmədova Gülşən Rövşən qızı | 17.12.2020 | SA-0189 | 1306802982 |
| 10 | Şirəliyev Bəhruz Nüsrət oğlu | 16.03.2009 | 000037 | 1301825692 |
| 11 | Şəfiyev Malik Məhəmməd oğlu | 01.06.2009 | 000150 | 8400276242 |
| 12 | Əliyeva Gülmirə Ağası qızı | 01.06.2009 | 000166 | 6000416032 |
| 13 | Rəşidov Azər Nəriman oğlu | 23.06.2009 | 000187 | 2900077432 |
| 14 | Həsənov Əmmar Xankişi oğlu | 24.06.2009 | 000190 | 6400535482 |
| 15 | Mirzəliyev Tarıverdi Arif oğlu | 21.07.2009 | 000220 | 5600115592 |
| 16 | Vəliyev Coşqun Vəli oğlu | 25.09.2009 | 000264 | 5700171472 |
| 17 | Bəbişov Söhrab Hilal oğlu | 29.01.2010 | 000307 | 3400306232 |
| 18 | Sultanova Gülnarə Aydın qızı | 18.02.2010 | 000313 | 1501562822 |
| 19 | Xanəli Əziz Əvəz oğlu | 30.07.2010 | 000345 | 8300701792 |
| 20 | Əsədova Məlahət Eldar qızı | 13.11.2010 | 000378 | 1701149732 |
| 21 | Manafov Bəhruz Elman oğlu | 03.03.2011 | 000411 | 1401910192 |
| 22 | Səmədov Ramin Cavanşir oğlu | 06.05.2011 | 000426 | 1401935962 |
| 23 | Cəfərbəyli Orxan Əjdər oğlu | 18.08.2011 | 000465 | 1302553562 |
| 24 | Şirəliyev Əlican Nüsrət oğlu | 05.12.2011 | 000508 | 1301823982 |
| 25 | Həsənov Zahid Zakir oğlu | 30.01.2012 | 000534 | 1901394112 |
| 26 | Səfərov Alverdi Səfər oğlu | 30.03.2012 | 000610 | 2902413322 |
| 27 | Hüseynov Samir Səyyad oğlu | 16.04.2012 | 000627 | 1302830682 |
| 28 | Şərbətov Allahverdi Saleh oğlu | 08.05.2012 | 000648 | 6300202082 |
| 29 | Əsədi Jalə Mirtalib qızı | 08.05.2012 | 000653 | 1002520502 |
| 30 | Hüseynov Abasət Şəmsi oğlu | 07.08.2012 | 000722 | 3900741022 |
| 31 | Kərimov Anar Fətəlixan oğlu | 07.08.2012 | 000732 | 1601316042 |
| 32 | Əliyev Sadiq Aqil oğlu | 20.09.2012 | 000750 | 3200388622 |
| 33 | Maliki Süleyman Fərəc oğlu | 20.09.2012 | 000762 | 1100057652 |
| 34 | Rüstəmov Maqsud Şəmsəddin oğlu | 19.10.2012 | 000778 | 4500849002 |
| 35 | Qabulov Əhməd Mayis oğlu | 15.01.2013 | 000835 | 4300316762 |
| 36 | Əliverdiyev Oktay Saraslan oğlu | 14.03.2013 | 000904 | 7700961962 |
| 37 | Həsənov Vüqar Kamal oğlu | 14.03.2013 | 000905 | 2902361742 |
| 38 | Qurbanov Elvin Bayram oğlu | 14.03.2013 | 000908 | 2302195572 |
| 39 | Almasova Aynurə Zeynal qızı | 23.07.2013 | 000953 | 1901778012 |
| 40 | Ağayev Şadil Adil oğlu | 23.07.2013 | 000962 | 2601140062 |
| 41 | Bayramov Toğrul Natiq oğlu | 24.01.2014 | 080520 | 1901877802 |
| 42 | Babayeva Təranə Müzəfər qızı | 21.05.2014 | 080586 | 2002950222 |
| 43 | Mehdiyeva Pərvanə Qənbər qızı | 21.05.2014 | 080590 | 2302471922 |
| 44 | Məmmədov İdris Kamal oğlu | 16.10.2014 | 080613 | 6401161882 |
| 45 | Mikayıllı Nihad Əkbər oğlu | 07.08.2015 | 080705 | 2003457182 |
| 46 | Quliyev Rəşad Nazim oğlu | 07.08.2015 | 080714 | 1801901772 |
| 47 | Quliyeva Aygün Mehman qızı | 21.09.2015 | 080722 | 1304174852 |

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən COVID-19 xəstəliyinə səbəb olan virusun müəyyənləşdirilməsi məqsədilə əməkdaşların test müayinəsindən keçirilməsi işləri ilə əlaqədar elan edilmiş müsabiqə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 50-4.2-ci maddəsinə uyğun olaraq ləğv olunur.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Əhməd Əhmədzadə Əməkdar jurnalist, Prezidentin fərdi təqaüdçüsü

**ƏHMƏD İSAYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

TuranBank ASC-nin rəhbərliyi və kollektivi Qazax şöbəsinin müdiri İlqar İsmayılova atası

**İSMAYIL MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kürdəmir Rayon Məhkəməsinin sədri Museyib Bayramov və məhkəmənin kollektivi Ali Məhkəmənin hakimi Səyyad Kərimova qardaşı

**MƏHƏDDİN KƏRİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Tibb Universitetinin rektorluğu Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Qasımova anası

**ALİYƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının kollektivi institutun rektoru, professor Nazim Akif oğlu Qasımova anası

**ALİYƏ MİRZƏ QIZI QASIMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5586
Sifariş 2779
Qiyməti 40 qəpik